Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 25 (6167) 10 iyul 2026-cı il | Qiyməti 40 qəpik

## "Trampın sülh gündəliyinin irəli aparılmasında xüsusi rolu var"



**ABŞ Prezidenti Donald Trampın Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılmasında xüsusi rolu var.**

**Adalet.az xəbər verir ki, Prezident İlham Əliyev bunu ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvü, Avropa və Regional Təhlükəsizlik Əməkdaşlığı üzrə Alt Komitəsinin sədri, senator Stiv Deynsi qəbul edərkən bildirib. Prezident İlham Əliyev Donald Trampla şəxsi münasibətlərinin də yüksək səviyyədə olduğunu deyib. İlham Əliyev Donald Trampın ikinci dəfə ABŞ Prezidenti seçilməsindən sonra əməkdaşlıq və qarşılıqlı etimada əsaslanan ikitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini vurğulayaraq, iki ölkə arasında əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini və bunun iki ölkə, eyni zamanda, region üçün çox önəmli olduğunu deyib.**

## Vilayət Eyvazov Lerikdə qəbul keçirdi



**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyulun 6-da və 7-də Lerik rayonunda növbəti vətəndaş qəbulu keçirib.**

Adalet.az xəbər verir ki, nazir əvvəlcə Lerik rayonunda Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini dərin hörmət və ehtiramla yad edib.

Daha sonra Polis Şöbəsinin inzibati binasında Lerik, Lənkəran, Astara, Masallı və Yardımlı rayonlarından, eləcə də digər bölgələrdən qəbula gələn 348 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Qəbula gələn vətəndaşların müraciətlərinin operativ və qanunvericiliyin tələblərinə uyğun həlli, habelə vətəndaş məmnunluğunun təmin olunması məqsədilə Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə müvafiq tapşırıqlar verilib.

Müraciətlərin böyük əksəriyyəti yerindəcə həll olunub, digərləri nəzarətə götürülüb.

Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov Lənkəran rayonunda polis və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını da keçirib.

Sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 227 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

## *Britaniya "Zəngəzur" gəmisinin sanksiyasını ləğv etdi*



**Böyük Britaniya Azərbaycana məxsus "Zəngəzur" gəmisinə tətbiq etdiyi sanksiyanı ləğv edib.**

Adalet.az xəbər verir ki, bu barədə Britaniya hökuməti 7 iyul tarixində məlumat yayıb. Qeyd olunub ki, sözügedən gəmi "Ukraynada sabitliyin pozulmasına, o cümlədən bu ölkənin ərazi bütövlüyünə, suverenliyinə və müstəqilliyinə təhdidə yardım etmə, həmçinin Rusiya hökumətinə gəlir əldə etməkdə köməklik göstərmə" ittihamları ilə sanksiya siyahısına daxil edilmişdi.

Xatırladaq ki, "Zəngəzur" gəmisi Azərbaycana məxsus digər 4 gəmi - "Qarabağ", "Xankəndi", "Şuşa" və "Zaqatala" ilə birlikdə aprelin 24-ü Avropa İttifaqının (Aİ) da sanksiya siyahısından çıxarılmışdı.

## BRAZİLİYA "SƏBAİL" KİMİ OYNAYIRDI




**Heyf sənə, Braziliya. Dünya çempionatında həmişə hamının gözü Braziliyada olur ki, nəsə bir yenilik olacaq, qeyri-adi bir oyun göstərəcəklər. Amma son 20 ildən çoxdur ki, biz bunu görə bilmirik. Ona görə ki, Braziliya öz ənənəvi futbolundan ayrılıb Avropa futboluna keçib. Və Avropa futboluna keçəndən sonra da dönüb bizim "Səbail" komandasına.**

Dünyaya ən çox futbolçu satan bir ölkə özü gedib Avropadan məşqçi gətirir. Al, bu da sənə avropalı məşqçi.

Neymar da day Neymar deyil, Kadi Borges kimi bir şeydi.

## Müəllimlərin geyimi ilə bağlı hüquqi əsas yaradılır



**Təhsilverənlər üçün geyimlə bağlı hüquqi əsas yaradılır.**

Adalet.az xəbər verir ki, bu, Milli Məclisin iclasında müzakirəyə çıxarılan "Ümumi təhsil haqqında" qanuna dəyişiklikdə əksini tapıb.

Təhsilalanlarla bağlı qanunvericilikdə nəzərdə tutulan dəyişiklik dövlət ümumi təhsil müəssisələrində artıq müəyyən edilmiş geyim tələblərinə riayət olunmasının hüquqi müstəvidə təsbit edilməsini nəzərdə tutur.

Beləliklə, qanunvericilikdə nəzərdə tutulan dəyişikliklərin əsas məqsədi dövlət ümumi təhsil müəssisələrində vahid idarəetmə yanaşmasının möhkəmləndirilməsi, təşkilati mədəniyyətin inkişaf etdirilməsi, məktəbdaxili nizam-intizamın daha da gücləndirilməsi, peşəkar iş mühitinin formalaşdırılması və təhsil prosesinin bütün iştirakçıları üçün daha səmərəli şəraitin yaradılmasıdır.

Qanun layihəsi səsverməyə çıxarılaraq III oxunuşda qəbul edilib.

## *RONALDO MESSİDƏN YAXŞI OĞLANDI, AMMA...*




**Öz səxavəti ilə, böyük ürəyi ilə, ürək açıqlığı ilə Ronaldo Messidən bəlkə də on dəfə yaxşı oğlandı. Amma Messi sübut elədi ki, Ronaldo ondan yaxşı oğlan olsa da, ondan yaxşı futbolçu deyil.**

Burnu fırtıqlı məktəbliyə oxşayan, amma yaşı 39-u keçən Messi sübut elədi ki, İlhamə Quliyeva demiş, yaşın nə fərqi var ki?

Messi sevincindən ağladı, Ronaldo isə kədərindən. Ağlama, Ronaldo, belə dünya çempionatı dəyməz sənin göz yaşlarına.

## ƏHALİSİ GƏNCƏDƏN BİR AZ ÇOX OLAN...






**Kabo-Verde dünya çempionatında oynadı və gözəl də oyun göstərdi. Bu ada dövlətinin ərazisi təxminən Gəncəbasarın ərazisi qədərdi. Gəncənin 500 min, bu ada dövlətinin isə 583 min əhalisi var.**

Bəli, o gəlib dünya çempionatına çıxır, Gəncənin "Kəpəz" komandası isə yüksək liqada qalmaq üçün özünü öldürür. Amma vaxt vardı Gəncə bir futbol şəhəri idi və Azərbaycana gözəl futbolçular bəxş edirdi.

## GÜNÜN LƏTİFƏSİ



Vəli Xramçaylı babat vurub parkın içi ilə evə gedir. Qəfildən görür ki, üstünə canavar gəlir. Tərpənməyə macal tapmamış canavar onu vurub keçir.

Ayağa qalxan kimi görür üstünə ayı gəlir. Donub qalır, ayı da onu vurub keçir. Bir də ayağa qalxır, görür üstünə dovşan gəlir. Fikirləşir ki, "ayə, indi dovşandanmı qorxub qaçacam"? Dovşan da onu vurub yıxır. Bu vaxt nəzarətçi yaxınlaşıb:

**- Ay qardaş, bu karuselin qabağından qaç də.**

# Prezident Fərman imzaladı



**Prezident İlham Əliyev "Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında Gürcüstana elektrik enerjisinin təchizatı və elektrik enerjisinin Gürcüstan ərazisi vasitəsilə tranziti barədə Saziş"in təsdiq edilməsi ilə bağlı Fərman imzalayıb.**

Fərmana əsasən, saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Energetika Nazirliyi onun müddəalarının həyata keçirilməsinin təmin edilməsi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Gürcüstan Hökumətinə bildiriş göndərməlidir.

Qeyd edək ki, saziş 2026-cı il mayın 18-də Bakıda imzalanıb.

# İlham Əliyev ötənilki dövlət büdcəsini təsdiq edib

**Prezident İlham Əliyev 2025-ci il dövlət büdcəsinin icrası haqqında qanunu təsdiqləyib.**

Sənədə əsasən, 2025-ci il dövlət büdcəsinin icrası gəlirlər 39 184 560,9 min manat, xərclər 38 604 559,6 min manat məbləğində olmaqla təsdiq edilib.

# Bir sıra diplomatik xidmət orqanları əməkdaşlarına diplomatik rütbə verilib

**Prezident İlham Əliyev Azərbaycan Respublikasının diplomatik xidmət orqanları əməkdaşlarına diplomatik rütbələrin verilməsi haqqında Sərəncam imzalayıb.**

Sənədə əsasən, Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının aşağıdakı əməkdaşlarına diplomatik rütbələr verilib:

**fövqəladə və səlahiyyətli səfir**
Rəfiyev Yalçın İlqar oğlu
Şərifov Samir Ənvər oğlu

**birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi**
Hacıyev Sultan Ağami oğlu
Nəsibov Ruslan Rafael oğlu

**ikinci dərəcəli fövqəladə və səlahiyyətli elçi**
Becanov Samir Arif oğlu
Nəcəfli Anar Cəfər oğlu.

# Şuşada abidələrin razılaşdırılmadan başqa yerə köçürülməsi qadağan olunub

**Şuşa şəhərinin ərazisində yerləşən abidələrin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılmadan başqa yerə köçürülməsi qadağan edilib.**

Bu barədə Prezident İlham Əliyev "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" qanuna dəyişikliyi təsdiqləyib.

Qanuna əsasən, Şuşa şəhərinin ərazisində yerləşən abidələrin korlanması və ya məhv edilməsi, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılmadan başqa yerə köçürülməsi, eləcə də onların toxunulmazlığını pozan və onlar üçün təhlükə yaradacaq tikinti-quraşdırma, bərpa, rekonstruksiya, konservasiya işlərinin və ya abadlaşdırma tədbirlərinin aparılması qadağandır.

Prezident İlham Əliyevin qanunun tətbiqi barədə imzaladığı müvafiq Fərmanla isə sözügedən məsələlərə razılıq vermək səlahiyyəti Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinə verilib.

# DİN-də kollegiya iclası

**Daxili İşlər Nazirliyində (DİN) bu ilin 6 ayında əməliyyat-xidməti fəaliyyətin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib.**

Adalet.az xəbər verir ki, bu barədə DİN məlumat yayıb.

İclası giriş sözü ilə açan daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov daxili işlər orqanları və Daxili Qoşunların cinayətkarlıqla mübarizə, ictimai asayişin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində xidməti vəzifələrini layiqincə yerinə yetirdiyini bildirib.

Beynəlxalq və respublika əhəmiyyətli kütləvi tədbirlərdə, habelə işğaldan azad edilmiş ərazilərdə təhlükəsizliyin etibarlı təmin olunduğunu, qanunla müəyyən edilmiş funksiyaların digər hüquq mühafizə orqanları ilə qarşılıqlı əlaqədə peşəkarlıqla icra edildiyini vurğulayıb.

Qarşıda mühüm vəzifələrin dayandığını da diqqətə çatdıraraq onların ətraflı müzakirəsinin, eləcə də xidməti fəaliyyətin təkmilləşdirilməsi məqsədilə əlavə təşkilati tədbirlərin müəyyənləşdirilib həyata keçirilməsinin vacibliyini qeyd edib.

İclasda hesabat məruzəsi və məruzətrafı çıxışlar dinlənilib.

Hesabat məruzəsində vurğulanıb ki, ötən 6 ayda əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan bütün dövlət qurumları üzrə 15.420 cinayət qeydə alınıb və onların 95,4 faizi daxili işlər və prokurorluq orqanları tərəfindən prosessual qaydada araşdırılan hüquqazidd əməllər olub, 87 faizini böyük ictimai təhlükə törətməyən və az ağır növləri təşkil edib.

2025-ci ilin 6 ayı ilə müqayisədə ümumi cinayətlər 8,6, ağır və xüsusilə ağır cinayətlər 6,5, mülkiyyət əleyhinə olanlar 15,3, onlardan oğurluqlar 11,5, dələduzluqlar 16,8, soyğunçuluqlar 8,8, quldurluqlar 44,2, hədə-qorxu ilə tələb etmələr 10,5, habelə xuliqanlıqlar 12,5, yetkinlik yaşına çatmayanların cinayətləri 15,3, ailə münaqişəsi zəminində törədilənlər 3,5, qrup halında baş verənlər 16,6 faiz, odlu silahın tətbiqi ilə törədilənlər 3 fakt, yol-nəqliyyat hadisələrinin sayı 7,6 faiz, qəzalarda xəsarət alanların sayı 19 faiz, həlak olanların sayı 9 faiz azalıb.

Cinayətlərin açılması 1,1 faiz, qeyri-aşkar şəraitdə törədilənlərin açılması 2,5 faiz, mülkiyyət əleyhinə olanların açılması 4,4 faiz, onlardan oğurluqların açılması 10,7 faiz, dələduzluqların açılması 1,2 faiz yaxşılaşıb, adam oğurluğu və avtonəqliyyat vasitəsinin qaçırılması cinayətlərinin açılması tam təmin edilib.



Həyata keçirilmiş istintaq hərəkətləri və əməliyyat tədbirləri ilə cinayətlərin 93,9 faizi, o cümlədən prokurorluq orqanları ilə birgə keçmiş illərdən bağlı qalmış 218 və görülmüş operativ cavab tədbirləri ilə 3.013 cinayət açılıb, eləcə də 4.474 hüquqazidd əməlin qarşısı alınıb. Müxtəlif cinayətlər törətmiş 6.887 şəxs məhkəmə məsuliyyətinə verilib. İstintaqdan və təhqiqat orqanlarından yayınan 4.282, o cümlədən ağır və xüsusilə ağır cinayətlərə görə 645 təqsirləndirilən şəxs tutulub. Axtarış işinin nəticələri 3 faiz yaxşılaşaraq 82,7 faizə yüksəlib.

Mütəşəkkil cinayətkarlıqla mübarizə tədbirləri çərçivəsində 288, o cümlədən ağır və xüsusilə ağır cinayətlər törətmiş 104 kriminal qrup zərərsizləşdirilib, qanunsuz olaraq odlu silah saxlayan və daşıyan 70 nəfər cinayət məsuliyyətinə cəlb edilib. Eyni zamanda 3.088 odlu silah, 337 qumbara və 99 mindən çox patron aşkarlanıb.

Qeyri-leqal dövriyyədən ötən ilin müvafiq dövrü ilə müqayisədə 1 ton 360 kiloqram çox, yəni 4 ton 318 kiloqram narkotik vasitə çıxarılıb, qanunsuz kultivasiya edilən və yabanı halda bitən 254 tondan artıq çətənə və xaş-xaş kolu aşkarlanıb məhv edilib. Bu növ əməllərə görə 41 cinayətkar qrup zərərsizləşdirilib, 2.652 şəxs cinayət məsuliyyətinə cəlb olunub. Vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində mühüm funksiyaların icrası da davam etdiriləcək 3.889 şəxsin qəbulu həyata keçirilib, qaldırılan məsələlərin əksəriyyəti öz qanuni həllini tapıb. Nazirliyə daxil olmuş müraciətlər operativ araşdırılaraq hər biri təşəbbüskarların hüquqları izah edilməklə yazılı cavablandırılmışdır.

Kollegiya iclasına yekun vuran nazir general-polkovnik V.Eyvazov xidməti vəzifələrin və qarşıya qoyulan tapşırıqların hesabat dövründə bütövlükdə layiqincə yerinə yetirildiyini qeyd edib, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi sahəsində əldə olunan müsbət nəticələrin inkişaf etdirilməsi üçün fəaliyyətin effektivliyinin artırılması ilə bağlı tapşırıq və tövsiyələrini verib.

**Həmçinin, vətəndaş məmnunluğunun təmin edilməsinin Azərbaycan Prezidenti İlham Əliyevin müəyyənləşdirdiyi əsas vəzifələrdən olduğunu vurğulayaraq cinayətlərin qarşısının alınması, açılması, hüquqazidd əməllər nəticəsində vurulmuş maddi ziyanın ödətdirilməsi, müraciətlərə baxılması və vətəndaş qəbulu işinə daha böyük həssaslıqla yanaşılmasını tələb edib.**

# Zelenski NATO sammitində Azərbaycana təşəkkür edib

**Ukrayna Prezidenti Volodimir Zelenski dəstəyə görə Azərbaycana təşəkkür edib.**

Adalet.az xəbər verir ki, bu barədə Zelenski iyulun 7-də NATO sammiti çərçivəsində Ankarada Müdafiə Sənayesi Forumunda çıxış edərkən bildirib.

V.Zelenskinin sözlərinə görə, bu gün Ukrayna "dünyanın ən böyük dron potensialına" malikdir və tərəfdaşlarına "Drone Deal" təşəbbüsü vasitəsilə əməkdaşlığı inkişaf etdirməyi təklif edir.

O qeyd edib ki, təşəbbüs yalnız pilotsuz uçuş aparatlarının alınmasını deyil, həm də birgə istehsalı, texnologiyaların sürətli tətbiqini, kritik infrastrukturun mühafizəsini və təhlükəsizlik sahəsində əməkdaşlığı nəzərdə tutur:



"Müdafiə sektorunda Ukrayna ilə əməkdaşlıq edən hər bir ölkə liderinə, hər bir şirkətə təşəkkür etmək istəyirəm. Avropa İttifaqı, Türkiyə, NATO ölkələri, eləcə də Azərbaycan və Fars körfəzi dövlətləri kimi ölkələr bizim güclü tərəfdaşlarımızdır. Ümid edirəm ki, əməkdaşlığımız ölkələrimizin təhdidlərə qarşı etibarlı müdafiəsini təmin edəcək".

**"Report"un daha əvvəl məlumat verdiyi kimi, aprelin 25-də Qəbələdə Azərbaycan və Ukrayna prezidentləri İlham Əliyev və Volodimir Zelenski arasında görüş çərçivəsində tərəflər hərbi sənaye kompleksinin inkişaf etdirilməsi barədə müzakirələr aparıblar. Müzakirələr zamanı hərbi sənayedə və ümumiyyətlə sənayedə birgə istehsalla bağlı çox gözəl imkanlar olduğu qeyd edilib. Bundan əlavə, dron əleyhinə mübarizə vasitələrinin hazırlanması sahəsində mümkün əməkdaşlıqdan, eləcə də bu sahədə təcrübə mübadiləsindən söhbət gedib.**

# *Deputat:* "Azərbaycanı təmsil edən idmançı mərsiyə sədaları altında meydana çıxır"



**"Konstitusiyada Azərbaycan dövlətinin prinsipləri əks olunub. Bunlardan biri Azərbaycanın dünyada unitar dövlət olması prinsipidir".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin iclasında deputat Fazil Mustafa deyib.

"Son zamanlar cənubda, qərbdə azərbaycanlıların yaşadığı müxtəlif ölkələrdə çox mənfi istiqamətlərdə Azərbaycana təsir göstərilir. Hətta Azərbaycanın özündə belə bu məsələnin qorunmasına həssaslığımız yetərincə deyil. Adicə bu yaxınlarda qaydasız döyüş üzrə bir idman yarışı keçirildi. Baxırsan ki, Azərbaycanı təmsil edən idmançı artıq uvertüra ilə, cəngi sədaları altında yox, mərsiyə sədaları altında meydana çıxır. Beləliklə özünün dini ideoloji təbliğatını aparır. Bura gələndə də Azərbaycan bayrağı əvəzinə hansısa ölkələrdə populyar olan dini ideoloji şüarlar səsləndirir. Biz hamımız isə bunu sakitcə müşahidə edirik", - deyə deputat bildirib.

# FHN və DSX birgə təlim keçirdi

**Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğın Nəzarəti Xidmətinin və Dövlət Sərhəd Xidmətinin "N" saylı hərbi hissəsinin birgə təşkilatçılığı ilə təlim keçirilib.**



Adalet.az xəbər verir ki, "N" saylı hərbi hissədə keçirilən təlimə FHN-in Dövlət Yanğın Nəzarəti, Dövlət Yanğından Mühafizə və Xüsusi Riskli Xilasetmə xidmətlərinin müvafiq canlı qüvvə və texnikası cəlb edilib.

Təlimin keçirilməsində məqsəd hərbi hissənin şəxsi heyətinə fövqəladə hallar, o cümlədən yanğınlarla bağlı davranış qaydalarının aşılanması, yanğından mühafizə bölmələrinin fəaliyyətinin daha da təkmilləşdirilməsi və əməkdaşların xilasetmə üzrə peşəkar bacarıqlarının artırılması olub.

Tədbirin nəzəri hissəsində FHN-in əməkdaşları fövqəladə hallar, o cümlədən yanğınlar zamanı zəruri davranış qaydaları və təxliyə tədbirləri barədə ətraflı məlumat veriblər. Həmçinin, təlim iştirakçılarına ilkin yanğınsöndürmə vasitələrindən istifadə qaydaları əyani şəkildə nümayiş etdirilib, onların sualları cavablandırılıb. Təlimin praktiki hissəsində şərti yanğınla əlaqədar "Həyəcan" siqnalı verildikdən sonra Hissənin əməkdaşları və əsgərləri tərəfindən şərti yanğına ilkin müdaxilə edilib, FHN-in yanğından mühafizə bölmələri isə operativ qaydada hadisə yerinə çataraq, "zərərçəkmişlərin təhlükəli ərazidən" təxliyə edilməsi, "yanğın" yerində çevik kəşfiyyatın aparılması və "yanğının söndürülməsi" əməliyyatlarını yerinə yetiriblər.

Uğurla keçən təlimdən sonra əldə edilmiş nəticələr müzakirə olunub, müvafiq tapşırıqlar verilib və müəssisənin yanğın təhlükəsizliyinə məsul şəxsi heyətinə maarifləndirici materiallar təqdim olunub.

# "Hər nəsil özü üçün şərtləri müəyyənləşdirməlidir"

**"Qlobal çağırışlar fonunda Azərbaycan diplomatiyasının uğurları Çinin tanınmış diplomatlarından Çjou Enlay deyirdi ki, "bütün diplomatiya müharibənin başqa vasitələrə davamıdır". Azərbaycan diplomatiyası da dövlət başçısının rəhbərliyi altında II Qarabağ Müharibəsində ölkəmizin tarixi zəfərindən sonra diplomatik mübarizədə əhəmiyyətli qələbələrə imza atıb".**

Adalet.az xəbər verir ki, bunu politoloq Zaur İbrahimli deyib.

O, bildirib ki, müasir beynəlxalq proseslər yüksək dinamika, sərt rəqabət, qarşıdurma, siyasi, iqtisadi və hüquqi amillərin çoxsəviyyəli qarşılıqlı əlaqəsi ilə xarakterizə olunur:

"Bu sərt rəqabət, qarşıdurma, yeni dünya nizamının formalaşması mərhələsində hər bir ölkənin beynəlxalq nüfuzu, diplomatik uğurları, beynəlxlaq arenada yeri, rolu milli maraqların qorunması, davamlı inkişaf, təhlükəsizliyinin təmin edilməsində ən mühüm amilə çevirilir. Çağdaş dövrümüzün ən məşhur diplomatlarından Henri Kissincer "Diplomatiya" əsərində qeyd edir ki, tarix dərsləri qərarların qəbulu zamanı avtomatik olaraq tətbiq olunan bir bələdçi deyil. Tarix müqayisə etməyə, oxşar təsirlərlə öyrənməyə imkan verir. Hər nəsil isə özü üçün hansı şərtlərin müqayisə edilə biləcəyini müəyyənləşdirməlidir.

Dövlət xadiminin isə təxmin etməyə yalnız bir cəhdi olur, əgər düz qərar verilmirsə, sonradan səhvləri düzəltmək mümükün olunur: "Tarix onu lazımi dəyişiklikləri nə qədər ağıllı şəkildə həyata keçirə bildiyinə və ən əsası sülhü nə dərəcədə qoruya bildiyinə görə mühakimə edəcəkdir".

Kissincerin bu fikirləri dövlət başçılarının, siyasi liderlərin, diplomatiyanın necə böyük məsuliyyət daşıdığını, zamanında düzgün qərara verilməsinin necə strateji vacib olduğunu bir daha diqqətə çatıdırır. Əldə olunmuş uğurlar, diplotaik qələbələr deməyə əsas verir ki, Azərbaycan tarixin bu çətin sınağından uğurla keçdi".

Politoloq deyib ki, Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan bu gün çağdaş qlobal proseslərdə, beynəlxalq gündəliyin formalaşmasında iştirak edir, sabitlik və təhlükəsizlik ixrac edir, güclü diplomatik mövqelərə malikdir, sülh təşəbbüsləri ilə Cənubi Qafqaz regionunun transformasiyasını həyata keçirir: "Bu strateji kurs Azərbaycanın gələcək onilliklər üçün iqtisadi dayanıqlığını, müstəqil xarici siyasətini və beynəlxalq nüfuzunu sığortalayır. Bu starteji kurs həmçinin, səriştəli, peşəkar diplomatiya ilə həyata keçirilir. Azərbaycanın beynəlalq nüfuzunun ən real göstəriciləri



beynəlxalq təşkilatlarda, platformalarda təmsilçilik, diplomtik uğurlardır. Azərbaycan artıq 200-ə yaxın dövlətlə diplomatik münasibətlər qurub, dünyanın müxtəlif ölkələrində 90-dan çox diplomatik nümayəndəlik vasitəsilə təmsil olunur, 50-dən artıq beynəlxalq və regional təşkilatın tamhüquqlu üzvüdür.

Ölkənin üzv olduğu mühüm təşkilatlara BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, Türk Dövlətləri Təşkilatı, MDB, ATƏT, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, D8 İqtisadi Əməkdaşlıq Təşkilatı və digərləri daxildir.2025-ci ildə Azərbaycan beynəlxalq təşkilatların seçkili orqanlarına irəli sürdüyü 14 namizədliyin hamısı üzrə qələbə qazanaraq 100 faizlik nəticəyə nail olub.

Ölkə nümayəndələri BMT sisteminin müxtəlif qurumlarında, UNESCO, Ümumdünya Turizm Təşkilatı, ICESCO və digər beynəlxalq təşkilatların qərarverici strukturlarında təmsilçilik hüququ əldə ediblər. Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi fəaliyyət göstərməsi, Qoşulmama Hərəkatına sədrliyi (2019-2023) və COP29-a, WUF13-ə ev sahibliyi beynəlxalq arenada Azərbaycan diplomatiyasının ən parlaq uğurlarındandır. BMT-nin müqavilə qurumlarında təmsilçilik baxımından ölkəmiz bütün BMT üzvləri arasında Çin ilə ikinci və üçüncü yerləri bölüşür. Elə Çinin tanınmış diplomatlarından Çjou Enlay deyirdi ki, "bütün diplomatiya müharibənin başqa vasitələrə davamıdır". Azərbaycan diplomatiyası da dövlət başçısının rəhbərliyi altında II Qarabağ Müharibəsində ölkəmizin tarixi zəfərindən sonra diplomatik müstəvidə əhəmiyyətli qələbələrə imza atıb. Bundan əvvəlki dövrdə Prezident İlham Əliyevin irəli sürdüyü "hücum diplomatiyası" doktrinası ölkəmizin beynəlxalq mövqelərini möhkəmləndirdi, tarixi zəfərdən sonra xarici siyasət, diplomatiyamız ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpası, sülh gündəliyinin inkişaf etdirilməsi, regionumuzun yeni reallıqlarının tanınması istiqamətində yüksək məharət nümayiş etdirdi. Artıq Azərbaycanın sülh diplomatiyası çağdaş dövrümüzün ən uğurlu nümunələrindən biri kimi öyrənilir.

Azərbaycan diplomatiyası bu gün praqmatik, qlobal miqyasda, regionda baş verən geosiyasi proseslərin, beynəlxalq münasibətlərin transformasiyasının, əsas trendlərin dərin təhlilinə əsaslanan peşəkarlıqla güclü reputasiya qazanıb.

Azərbaycan diplomatiyasının reputasiyası, peşəkarlığı Azərbaycanın xarici siyasətinin əsas vəzifələrini, balanslaşdırılmış və çoxtərəfli tərəfdaşlığa söykənən xarici siyasət kursunun davam etdirilməsi, həm Qərb, həm də Şərq qütbləri ilə münasibətlərini paralel, səmərəli şəkildə inkişaf etdirilməsi, TDT coğrafiyasında inteqrasiyanın sürətləndirilməsini, Cənubi Qafqazın sülh gündəliyi ilə transformasiyası kimi strateji məqsədlərə nail olunmasında əhəmiyyətli töhfə verir.

Diplomatik təmsilçilik sahəsində qazanılan hər bir uğur, beynəlxalq platformalarda səmərəli təmsilçilik Azərbaycanın beynəlxalq qərarların qəbuluna təsirini, milli maraqların qlobal müstəvidə qorunması imkanını genişləndirir.

Xarici İşlər Nazirliyi, diplomatik nümayəndəliklər və beynəlxalq təşkilatlar yanındakı daimi nümayəndəliklərin peşəkar kadr potensialı, on illər ərzində dövlət başçısının rəhbərliyi ilə yaradılmış qarşılıqlı hörmət və etimad mühiti, ölkənin beynəlxalq öhdəliklərinə sadiq qalması diplomatik uğurlarımızı şərtləndirir".

**Vasif ƏLİHÜSEYN**

Rüstəm Hacıyev



# Tramp Türkiyəyə F 35 qırıcıları verir...

***Zelenski: "Ukrayna NATO-nun kollektiv müdafiə sisteminin bir hissəsi olmalıdır"***

***NATO-nun Türkiyədə keçirilən sammitində iştirak edən ABŞ prezidenti Donald Tramp bəyan edib ki, "Biz F-35 qırıcı təyarələri ilə bağlı Türkiyəyə qoyulan sanksiyanı ləğv etməyə hazırlaşırıq".***

***Tramp açıq şəkildə bəyan edir ki, artıq dostlarını incitmək istəmir və Türkiyəyə hələlik 5 ədəd F-35 qırıcı təyyarə satacaq. Türkiyə prezidenti buna cavab olaraq: " Tramp həmişə dediyi sözü tutur"- deyə cavab verib.***

***Sanksiyaların götürülməsinin Türkiyə üçün böyük əhəmiyyəti var. Sanksiyaların götürülməsi, Türkiyənin KAAN qırıcı təyarələri üçün amerikan F110 mühərriklərinin alınması yolunda açır.***

***ABŞ prezidenti Donald Trampın bu bəyənatı İsrailin baş naziri Benyamin Netanyahunu yaman təlaşa salıb. O, həyəcan siqnalı çalaraq bəyan edib ki, ABŞ-ın Türkiyəyə belə bir silahı verməsi, regionda güc balansını pozacaq.***

***ABŞ prezidenti isə, geri çəkilmək fikirində deyil. NATO-nun fəaliyyətindən onsuzda narazı olan Donald Tramp, bu sammitə Türkiyə prezidenti Rəcəb Tayib Ərdoğana görə gəldiyini aşıq şəkildə bidirib.***

***NATO-nun sammitində çıxış edən Ukraynanın prezidenti Volodimir Zelenski bəyan edib ki, "Biz Rusiyanın arxa cəbhəsinin strateji təhlükəsizliyinin tam şəkildə qorunması ideyasını məhv etdik. Rusiya strateji gücünü ölkənin dərinliklərində yerləşdirməklə düşünürdü ki, kimsə oralara gəlib çıxa bilməz. Amma biz göstərdik ki, artıq min kilimetrlərlə yol qət edərək, oralara da çata bilərik.***

***Ukrayna prezidenti bəyan etdi ki, Ukrayna NATO-nun kollektiv müdfiə sisteminin bir hissəsi olmalıdır.***

## "Əks halda Rusiyanın itkiləri getdikcə daha da artacaq"

**Xəbər verdiyimiz kimi, Ukrayna Rusiyaya kütləvi şəkildə dronlar və raketlərlə hücum həyata keçirməkdə davam edir. Ötən gecə Moskva regionu istiqamətində 430 dronun uçuşu qeydə alınıb. Onlardan 36-sı Moskvaya yaxınlaşarkən zərəsizləşdirilib.**

Məsələylə bağlı Adalet.az-a danışan hərbi ekspert Ədalət Verdiyev bildirib ki, Ukraynanın zərbələrinin əsas hədəfi Rusiyanın enerji infrastrukturudur:

"Daha əvvəllər biz Ukraynanın 500 daha sonra 1500 kilometr Rusiya dərinliyinə zərbələr endirdiyini görürdük. Artıq zərbələri Novosibirsk vilayətinə, yəni Ukrayna Rusiyanın ondan 2000 kilometr məsadəfə yerləşən ərazilərinə dəqiq zərbələr endirir. Bu bir daha onu göstərir ki, Ukrayna hava hücumu sahəsində üstünlüyü əldə edib. Müəyyən çatışmazlıqlar hava hücumundan müdafiə sistemləri və onların zenit raketləri ilə bağlıdır. Amma hər bir halda Rusiya son aylar Ukrayna tərəfindən daha çox narahat edilir, nəinki Ukrayna Rusiya tərəfindən".

Hərbi ekspertin sözlərinə görə, proseslərin bu şəkildə davam etməsi Rusiyanın ciddi yanacaq çatışmazlığı ilə qarşılaşdığını nümayiş etdirir:

"Ukrayna dron və uzaqmənzilli raket istehsalında yerli imkanlarını kifayət qədər artırıb. Proseslər onu göstərir ki, zaman Rusiyanın xeyrinə işləmir. Rusiya işğal siyasətindən əl çəkməli, Ukrayna ilə real şərtlər daxilində danışıqlar prosesinə başlamalıdır. Əks halda Rusiyanın itkiləri getdikcə daha da artacaq".

## NATO-nun Ankara sammiti Türkiyəni dünya gücünə çevirdi

**"Baş katib Mark Rutte sammitin ideyasını belə təqdim etdi: daha güclü Avropa, ABŞ-dan daha az asılı, amma Amerikanın hələ də möhkəm kök saldığı bir ittifaq. Qulağa xoş gəlir. Amma bu cümlənin əsl tərcüməsi tamam başqadır.Ankara ev sahibi kimi böyük nüfuz qazandı".**

Adalet.az xəbər verir ki, bunu politoloq Əziz Əlibəyli deyib.

"Bundan da vacibi, Trump İsrailin açıq etirazına baxmayaraq Türkiyəyə F-35 satışını yenidən gündəmə gətirdi. Türkiyənin xətti aydın və ardıcıldır: Finlandiya ilə İsveçin üzvlüyü məsələsində olduğu kimi, öz əvəzsizliyini danışıq masasında gücə çevirmək. Parçalanan bir ittifaqda bu, əslində yeganə ağıllı strategiyadır, asılı tərəf yox, müstəqil bir qütb kimi dayanmaq", - deyə o, bildirib.

**Sübhan**

# «Azərbaycan xarici siyasətini çoxtərəfli əməkdaşlıq modeli üzərində qurub»

**"Beynəlxalq münasibətlər çərçivəsində elə səfərlər olur ki, onların əhəmiyyəti imzalanan sənədlərin sayı ilə deyil, verdiyi siyasi mesajların miqyası ilə qiymətləndirilir. Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayenin Azərbaycana son səfəri də məhz bu kontekstdə nəzərdən keçirilməlidir. İlk baxışdan enerji, nəqliyyat və regional əməkdaşlıq gündəliyi ilə müşayiət olunan bu səfər, əslində, kollektiv Avropanın Güney Qafqaza baxışında yeni mərhələnin başlandığını göstərən siyasi hadisə kimi qiymətləndirilməlidir".**

Adalet.az xəbər verir ki, bunu politoloq Qulamhüseyn Əlibəyli deyib.

Onun sözlərinə görəx son 5-6 ildə Avropa İttifaqının xarici siyasət prioritetlərində əhəmiyyətli transformasiya baş verir və proses bu gün də davam edir:

"Əgər bir neçə il əvvələ qədər Avropa ittifaqının Azərbaycanla münasibətlərində demokratiya, insan hüquqları və qanunun aliliyi məsələləri üstünlük təşkil edirdisə, daha sonra enerji təhlükəsizliyi ön plana çıxırdısa, indi bu münasibətlərə daha geniş geosiyasi və geoiqtisadi məsələlər çərçivəsində baxılır. Bu gün nəqliyyat dəhlizləri, rəqəmsal bağlantılar, yaşıl enerji, regional inteqrasiya və sülhün iqtisadi əsaslarının yaradılması Avropa İttifaqının bütövlükdə Güney Qafqaza, xüsusilə də Azərbaycana yönəlik siyasi strategiyasının üstün istiqamətini təşkil edir.

Avropa İttifaqının xarici siyasət prioritetlərindəki bu transformasiyanı təsadüfi saymaq olmaz; bu transformasiya müasir beynəlxalq münasibətlər sistemində yaranmış yeni geosiyasi və geoiqtisadi reallıqların tələblərindən irəli gəlir".

O, bildirib ki, müasir dünyada beynəlxalq siyasət yeni geosiyasi və geoiqtisadi mərhələyə daxil olub:

"Son bir neçə ildə qlobal və regional geosiyasi və hərbi qarşıdurmalar, xüsusilə, Rusiya - Ukrayna müharibəsi, Yaxın və Orta Şərqdə davam edən silahlı qarşıdurmalar, böyük dövlətlər arasında geosiyasi rəqabətin açıq mübarizəyə keçməsi bütövlükdə Avropaya göstərdi ki, enerji təhlükəsizliyinə yalnız iqtisadi məsələ kimi baxmaq olmaz.

Ənənəvi strateji marşrutlarda yaşanan gərginlik, Çin və Uzaq Şərq ölkələri ilə Avropa arasında yükdaşımaların mühüm hissəsinin keçdiyi şimal marşrutunun - Rusiya üzərindən keçən dəhlizin təhlükəsizliyi üçün yaranan risklər, Hürmüz boğazı ətrafında bu gün də davam edən gərginlik göstərdi ki, logistika və nəqliyyat xətləri artıq iqtisadi əhəmiyyət daşımaqdan çıxararaq müasir geosiyasi rəqabətin və mübarizənin əsas vasitələrindən birinə çevrilib. Başqa sözlə, bu gün qlobal siyasətin əsas gündəliyini artıq ideoloji, siyasi və hərbi qarşıdurmalar deyil, təbii resurslar, enerji, logistika və kommunikasiya imkanları müəyyən edir.

XX əsrin sonlarına qədər qlobal təhlükəsizlik əsasən siyasi və hərbi ittifaqlar vasitəsilə təmin olunurdusa, XXI əsrdən başlayaraq bu yanaşmanın artıq kifayət qədər səmərəli və etibarlı olmadığı aydın oldu. Bu gün qlobal təhlükəsizlik və sabitlik daha çox enerji xətləri, dəmir yolları, limanlar, elektrik şəbəkələri və rəqəmsal infrastrukturlar üzərindən formalaşır.

Məşhur amerikalı strateq Edvard Lütvakın XXI əsrdə dövlətlər arasında rəqabətin getdikcə hərbi müstəvidən iqtisadi və logistika müstəvisinə keçəcəyi barədə hələ keçən əsrin sonlarında verdiyi proqnoz bu gün öz təsdiqini tapmaqdadır. Belə ki, artıq qaz kəmərləri, elektrik xətləri, dəmir yolları, limanlar və rəqəmsal kommunikasiya şəbəkələri ağır hərbi silahlardan heç də az əhəmiyyət daşımır. Dövlətlərin beynəlxalq çəkisi onların hərbi üstünlüyündən daha çox sadalanan infrastrukturlardakı rolundan və mümkün imkanlarından birbaşa asılı olur.

Belə bir şəraitdə Avropanın təhlükəsizliyi konsepsiyasının kökündən dəyişdirilməsi, Avropa İttifaqının alternativ nəqliyyat, kommunikasiya və logistika xətlərinin inkişafına daha çox diqqət ayırması təbii olaraq müasir geosiyasi rəqabət və mübarizə baxımından həyati əhəmiyyət kəsb edir. Buna görə də bütövlükdə Orta Dəhliz və Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutları Avropa İttifaqı üçün siyasi və iqtisadi baxımdan strateji əhəmiyyət kəsb edib. Buna görə də bütövlükdə Avrasiya məkanı dünya siyasətinin əsas mərkəzlərindən birinə, Xəzər dənizi hövzəsi və Güney Qafqaz isə obyektiv olaraq qlobal təhlükəsizlik və iqtisadiyyat baxımından mühüm strateji əhəmiyyət daşıyan regiona çevrilib".

Q.Əlibəyli deyib ki, Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayenin Bakıya səfəri və bu səfər çərçivəsində Bakıdan verilən mesajları da məhz bu kontekstdə qiymətləndirmək daha məqsədəuyğun olar:



"Bu səfərdə diqqət çəkən əsas məqamlardan biri odur ki, Avropa İttifaqı Azərbaycana artıq yalnız etibarlı enerji tərəfdaşı kimi deyil, Avropa ilə Mərkəzi Asiya və Uzaq Şərq arasında strateji bağlantını təmin edən dövlət kimi baxır. Səfər zamanı "Peace through Connectivity" (bağlantılarla sülh) təşəbbüsünün elan olunması, "Global Gateway" ("Qlobal Keçid") proqramı vasitəsilə nəqliyyat, enerji və rəqəmsal infrastruktur layihələrinə yeni maliyyə dəstəyinin nəzərdə tutulması göstərir ki, Avropa İttifaqı Güney Qafqaza yönəlik regional siyasətini klassik diplomatiyadan daha çox iqtisadi inteqrasiya və bağlantılar üzərində qurmağa çalışır.

Azərbaycan dövləti də son iyirmi ildə məhz bu istiqamətdə ardıcıl siyasət həyata keçirib. Enerji layihələrinin şaxələndirilməsi, nəqliyyat dəhlizlərinin inkişafı, Xəzər dənizinin tranzit imkanlarının genişləndirilməsi və regional əməkdaşlıq mexanizmlərinin qurulması təsadüfi qərarlar deyildi. Bu gün həmin strategiyanın siyasi dividendləri aydın görünür.

Əgər iyirmi il əvvəl Azərbaycanın əsas üstünlüyü karbohidrogen ehtiyatları hesab olunurdusa, bu gün ölkənin ən böyük üstünlüyü onun geostrateji mövqeyidir. Azərbaycan Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən nəqliyyat arteriyalarının kəsişməsində yerləşir. Bu mövqe uzun illər ərzində məqsədyönlü dövlət siyasəti nəticəsində yaradılmış enerji, nəqliyyat və logistika infrastrukturu ilə tamamlanıb.

Bu gün Avropa üçün Azərbaycan yalnız təbii neft və qaz ixrac edən ölkə deyil, həm də Xəzər hövzəsinin, Mərkəzi Asiyanın və Türk dünyasının, Çin və Uzaq Şərqin Avropa ilə əlaqələrini təmin edən mühüm geosiyasi platformadır. Bu, Azərbaycanın beynəlxalq rolunun keyfiyyətcə yeni mərhələyə keçdiyini göstərir.

Diqqətəlayiq başqa bir məqam isə Ursula fon der Lyayenin Azərbaycanın etibarlı tərəfdaş olduğunu bir daha vurğulamasıdır. O, enerji əməkdaşlığının hələ də münasibətlərin əsas sütunlarından biri olduğunu qeyd etsə də, çıxışının məzmunu göstərirdi ki, Brüssel artıq əməkdaşlığı təkcə enerji tədarükü ilə məhdudlaşdırmır. Yaşıl enerji, nəqliyyat, rəqəmsal əlaqələr və regional sabitlik eyni strateji paketdə təqdim olunur.

Azərbaycan son illərdə öz xarici siyasətini çoxtərəfli əməkdaşlıq modeli üzərində qurub. Avropa İttifaqı, türk dövlətləri, Mərkəzi Asiya ölkələri və digər tərəfdaşlarla paralel münasibətlərin inkişaf etdirilməsi Bakıya dəyişən geosiyasi şəraitdə daha geniş manevr imkanları qazandırıb. Ursula fon der Lyayenin səfəri göstərir ki, Avropa İttifaqı da bu reallığı qəbul edir və Azərbaycanı regionda mühüm strateji tərəfdaş kimi qiymətləndirir.

Bu səfər göstərdi ki, Avropa İttifaqı ilk dəfə olaraq Güney Qafqazı yalnız münaqişə məkanı kimi deyil, Avropa ilə Asiya arasında yeni iqtisadi məkanın formalaşdığı region hesab edir. Bu yanaşma Azərbaycanın beynəlxalq rolunu da keyfiyyətcə yeni mərhələyə yüksəldir.

Bununla yanaşı, səfər Avropa İttifaqının region siyasətində balans yaratmaq cəhdinin də göstəricisi kimi də qiymətləndirilə bilər. Bakıda regional bağlantılar və əməkdaşlıq gündəmi, ardınca isə İrəvanda iqtisadi dəstək və Avropa bazarına çıxışla bağlı mesajlar Avropa İttifaqının Qafqazda uzunmüddətli iştirakını gücləndirmək niyyətini nümayiş etdirir. Bu isə o deməkdir ki, region artıq yalnız qonşuluq siyasətinin deyil, Avropa təhlükəsizlik və geoiqtisadi strategiyasının da ayrılmaz hissəsinə çevrilir.

Bütün bunlar fonunda Azərbaycan üçün əsas vəzifə yaranan imkanlardan maksimum səmərə ilə istifadə etməkdir. Artan geosiyasi əhəmiyyət üstünlüklərlə yanaşı, əlavə məsuliyyət də yaradır. Etibarlı tərəfdaş imicinin qorunması, nəqliyyat və enerji layihələrinin davamlı inkişafı, regional əməkdaşlığın genişləndirilməsi və balanslaşdırılmış xarici siyasətin davam etdirilməsi, daxili siyasətdə Avropa İttifaqının elan etdiyi dəyərlərə yönəlik islahatlar Azərbaycanın beynəlxalq mövqeyini daha da möhkəmləndirə bilər. Nəticə etibarilə, Ursula fon der Lyayenin Bakı və İrəvana səfəri Avropa İttifaqının Güney Qafqaza baxışında yeni geosiyasi mərhələnin konturlarını ortaya qoydu. Azərbaycanın bu yeni mərhələdə rolu isə artıq yalnız enerji ixrac edən ölkə olmaqdan xeyli genişdir. O, Avropa ilə Asiyanı birləşdirən geoiqtisadi məkanın əsas aktorlardan birinə çevrilməkdədir.

Tarix göstərir ki, beynəlxalq siyasətdə dövlətlərin əhəmiyyəti təkcə malik olduqları resurslarla deyil, dəyişən geosiyasi reallıqları nə dərəcədə düzgün oxuya və onları milli maraqlara uyğun strateji üstünlüyə çevirə bilmələri ilə müəyyən olunur. Ursula fon der Lyayenin Bakı səfəri bir daha göstərdi ki, Azərbaycan artıq bu yeni geosiyasi rəqabətin passiv müşahidəçisi deyil, onun formalaşdığı mərkəzi platformalardan birində aktiv oyunçudur".

**Vasif ƏLİHÜSEYN**

---

# Psixoloq: "Ən təhlükəli məqam zorakılığın alqışlanmasıdır"

**Hadisəyə təkcə hüquqi müstəvidən baxmaq düzgün deyil. Burda çox ciddi psixoloji sosial mexanizmlər fəaliyyət göstərir. Ümumiyyətlə, autizm spektr pozuntusu olan bir uşağa qarşı nümayiş etdirilən bir aqressiya var. Düşünürəm ki, bu hal autizmdən qaynaqlanmır. Sosial şəbəkələrdə uşağın autizmli olması ilə əlaqələndirirlər ki, bəlkə də bu səbəbdən uşağa belə davranış göstərilib. Ancaq bu, səhv düşüncədir. Burda aqresiyya göstərən şəxsin empatiya, emosianal tənzimləmə, sosial məsuliyyət və fərqindəlik bu kimi xüsusiyyətlərin çatışmazlığı ilə əlaqədar olan aqressiv davranışdır.**

Bu sözləri Adalet.az-a açıqlamasında psixoloq Nərmin Ağayeva söyləyib. Onun sözlərinə görə , zorakılıq və kobud davranış cəzasız qalanda adi hala çevrilir:

"Psixologiyada bunun elmi izahı var. İnsanlar davranışları müşahidə edərək öyrənirlər. Uşaqlar ailədə, məktəbdə , sosial mühitdə alçaldıcı hərəkətlər, güc nümayişi kimi münasibətin cəzasız qaldığını görürsə, zamanla bu halı davranış modeli kimi nümayiş etdirirlər. Yəni ki, kobudluq artıq vərdişə çevrilir.

İkinci nəzəriyyə isə dehomanizasiyadır ki, bu da insan həyatı üçün mühüm haldır. İnsan qarşısındakı fərdi özünə bənzər insan kimi deyil, problem, manеə kimi qəbul edir. Belə olan halda qarşısındakı insana zorakılıq göstərməyə başlayır.

Onun göstərdiyi zorakılıq psixoloji baxımdan həmin insana görə daha da asanlaşır. Əlilliyi olan, inkişaf fərqliliyi olan şəxslərə bəzən ayrı-seçkilik olur. Bu isə dehomanizmdən qaynaqlanır.



Digər mühüm mexanizm empatiyanın inkişafıdır. Bu, yalnız fitri xüsusiyyət deyil. Erkən uşaqlıq dövründən etirabrən ailədə , məktəbdə cəmiyyətdə formalaşan sosial bacarıqdır. Xüsusən, araşdırmalar göstərir ki, valideynlərin uşaqlarla emosianal mövzuda danışması, prososial davranışları model kimi göstərməsi, fərqliliklərə qarşı hörmət aşılaması uşaqların gələcəkdə aqressiv davranışlarının azalmasına səbəb olur. Bəzən insanlar bu cür hadisələri həmin adamın sərt xasiyyəti, əsəbi halı kimi qiymətləndirir. Halbuki, aqressiya şəxsiyyət xüsusiyyəti olmaqla yanaşı, öyrənilmiş davranış nümunəsi kimi də göstərilir. Yəni kobudluq, zorakılıq bir anda yaranmır. Uzun illər formalaşan sosial münasibətlərin nəticələridir".

Psixoloq qeyd edib ki, davranışa görə ilk məsuliyyət onu törədən şəxsin üzərinə düşür:

"Videoda gördüyümüz həmin xoşagəlməz görüntü- bir gəncin uşağı liftdən itələməsi fərqliliyin qəbul edilməməsinin, aqressiv davranışın bir nümunəsidir.Bununla yanaşı, ailənin verdiyi tərbiyə, təhsil sistemində inkulziv dəyərlərin yetərincə öyrədilməməsi, cəmiyyətin əlilliyi və inkişaf fərqliliklərini hələ də tam qəbul etməməsi, mediada nifrət nitqinin və ayrı-seçkiliyin normallaşdırılması da bu mühitin formalaşdırmasına təsir göstərən amillərdən biridir. Ən təhlükəli məqam isə zorakılığın alqışlanmasıdır.

Sosial şəbəkələrdə bəzi nüfuzlu şəxslər baş vermiş hadisəni sorğulamağa cəhd edirlər. Burda cəmiyyət aqressiv davranışı qəhrəmanlıq, kişilik kimi təqdim edib , uşağı sırtıq adlandırırlar.

Belə olan halda zorakı davranışlar "sosial mükafat" qazanır. Oxşar hərəkətlərin təkrarlanma ehtimalı artır.Autizm spektor pozuntusundan əziyyət çəkən uşaqlar və yaxud da normal psixi inkişafa malik olan uşaqlar cəmiyyət üçün təhlükəli deyil. Əksinə, burda təhlükə empatiyasını itirmiş, fərqliliyi qəbul etməyən şəxslərdir.İnkişaf etmiş cəmiyyətlər insanın fərqli olmasını deyil, ona qarşı olan qeyri- insani davranışı problem hesab etməlidir. Cəmiyyətin psixoloji sağlamlığı da məhz ən həssas üzvlərə necə münasibət göstərilməsi ilə ölçülür".

**Əntiqə KƏRİMZADƏ**

# DYP-dən kənd təsərrüfatında çalışanlara müraciət



**Əkin sahələrində çalışan insanların qanunvericiliyə uyğun təchiz edilməmiş yük avtomobillərində, traktor və ya qoşqularda daşınması ağır avtoqəzalara zəmin yaradır.**

Adalet.az xəbər verir ki, bu barədə Baş Dövlət Yol Polisi İdarəsinin Kənd təsərrüfatı sahəsində çalışan vətəndaşlara müraciətində qeyd olunub.

Bildirilib ki, mövsümlə əlaqədar avtomobil yollarında kənd təsərrüfatı texnikalarının sayı artıb. Lakin, bir sıra hallarda bu tip nəqliyyat vasitələri ilə yük və sərnişin daşıma qaydalarının pozulması, onların texniki tələblərə cavab verməməsi ağırlıq dərəcəsi yüksək olan yol qəzalarına şərait yaradır.

Xatırladırıq ki, texniki-təhlükəsizlik baxımından istifadəyə yararsız, xarici işıq cihazları nasaz, tələblər pozulmaqla əlavə avadanlıq quraşdırılmış, yaxud dövlət qeydiyyat nişanları yerində olmayan kənd təsərrüfatı texnikası ilə daşımaların həyata keçiriməsi sürücü ilə yanaşı digər hərəkət iştirakçıları üçün də ciddi təhlükədir.

Ot kütləsinin, müxtəlif növ məhsulların qablaşdırılmadan, çəki və ölçü parametrləri aşılmaqla qoşqularda daşınması ağırlıq dərəcəsi yüksək olan qəzaların baş verməsinə səbəb olur.

”Baş Dövlət Yol Polisi İdarəsi əkin-biçin işlərinin sürətləndiyini nəzərə alaraq, bir daha kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxsləri işə cəlb etdikləri əməkçilərin yol hərəkəti ilə bağlı təhlükəsizliklərinin təmin olunmasına, məhsulların daşınmasının və qablaşdırılmasının qanunvericiliyin tələblərinə uyğun həyata keçirilməsinə xüsusi diqqət yetirməyə çağırır, bu sahədə nəzarət tədbirlərinin gücləndirildiyini onların diqqətinə çatdırır”, - məlumatda qeyd olunub.

# "Real sektorun inkişafını məhdudlaşdıran əsas amillərdən biri..."

**”Bunu sadəcə fikir kimi yox, iqtisadi göstəricilərə əsaslanaraq deyirəm. Çünki real sektorun əksər sahələrində bizneslərin xalis rentabelliyi bankların effektiv kredit faizlərindən aşağıdır”.**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib.

O, bildirib ki, bu reallığı həm qlobal korporativ maliyyə araşdırmları, həm də yerli bazarın xüsusiyyətləri təsdiqləyir:

”Məsələn, NYU Stern School of Business və CSI Market-in sektor üzrə analitik təhlillərinə görə, kənd təsərrüfatında xalis rentabellik adətən 4-6%, emal sənayesində 5-10%, tikintidə 6-8%, topdansatış və pərakəndə ticarətdə 2-7%, nəqliyyatda isə 6-8% intervalında dəyişir. (Azərbaycan kimi inkişaf etməkdə olan iqtisadiyyatlarda risk amili və bazar konyunkturası səbəbindən bu göstəricilər müəyyən qədər yüksək olsa da, real sektorun əksər sahələrində gəlirlilik 10-12 %-dən yüksək olmur) Yalnız proqram təminatı, əqli mülkiyyətə əsaslanan texnologiyalar və bəzi yüksək texnologiyalı fəaliyyət sahələrində xalis rentabellik qlobal miqyasda 23-35%-ə qədər yüksələ bilir. Bu mənzərə regionlarda biznes kreditlərinə tələbin niyə zəif olduğunu da izah edir”.

İqtisadçı bildirib ki, bankların bu istiqamətdə tələbin aşağı olması ilə bağlı arqumentində müəyyən həqiqət payı var:

”Ancaq məsələyə yalnız tələb tərəfdən yanaşmaq düzgün olmaz. Kredit bazaında tələb təklif olunan maliyyə resursunun qiymətindən də birbaşa asılıdır. Kommersiya banklarının öz vəsaitləri hesabına təklif etdiyi daxili biznes kreditlərinin orta faizinin 13-16%, mikrokreditlərdə isə 18-20%-i keçdiyi bir şəraitdə rentabelliyi 5-10 faiz olan istehsal sahələrinin kredit hesabına maliyyələşdirilməsi əksər hallarda iqtisadi cəhətdən səmərəli olmur. Sahibkar hesablayır ki, biznesinin normal gəlirliliyi maliyyə resursunun real dəyərindən aşağıdır və buna görə də investisiya qərarını ya təxirə salır, ya da ondan tamamilə imtina edir”.

E.Əmirovun fikrincə, regionlarda biznes kreditlərinə aşağı tələbin səbəbini yalnız sahibkarda deyil, bankların təklif etdiyi maliyyələşmə şərtlərində də axtarmaq lazımdır: ”Üstəlik, son dinamika da biznes üçün vəziyyətin yaxşılaşmadığını göstərir. Azərbaycan Mərkəzi Bankının statistik məlumatlarına görə, yeni verilmiş manat kreditləri üzrə ümumi orta faiz dərəcəsi 2026-cı ilin mayın əvvəlinə 17,92% olduğu halda, iyun əvvəlinə 18,30%-ə yüksəlib. Bu göstərici yalnız biznes deyil, bütün kredit portfelini əhatə etsə də, biznes mühitində maliyyələşmə şərtlərinin yumşalmadığını göstərən mühüm siqnaldır. Hətta fərdi sahibkarlara və kiçik biznesə yönələn mikrokreditləşmədə də bu tendensiya özünü göstərir və cəmi bir ay ərzində borclanma şərtləri daha da ağırlaşır. Halbuki real sektorun inkişafı üçün gözlənti kredit faizlərinin tədricən aşağı düşməsi olmalıdır. Eyni zamanda, yeni cəlb olunmuş müddətli manat depozitləri üzrə orta faiz dərəcəsi 7,99%-dən 7,96%-ə enib. Yəni depozit faizi azalır, kredit faizi isə artır. Nəticədə kreditlə depozit faizi arasındakı marja daha da genişlənir. Bu isə bank resurslarının real sektor üçün ucuzlaşmadığını, əksinə, maliyyələşmənin daha da bahalaşdığını göstərir. Bundan ən çox zərər görən isə yeni fəaliyyətə başlayan və ya istehsalını genişləndirmək istəyən sahibkarlardır. Onsuz da bazara yeni daxil olan müəssisələrin girov imkanları məhdud, riskləri isə yüksək qiymətləndirilir. Belə şəraitdə yüksək kredit faizi onların maliyyəyə çıxışını daha da çətinləşdirir və yeni investisiyaların qarşısında ciddi maneəyə çevrilir. Əlqərəz, iqtisadiyyatın inkişafı üçün əsas məsələ kreditin əlçatan olması deyil, onun iqtisadi cəhətdən səmərəli qiymətlə təqdim edilməsidir. Çünki investisiya qərarını müəyyən edən amil kreditin mövcudluğu deyil, onun qiymətidir”.

**Vasif ƏLİHÜSEYN**

## *Uşaq arabası ilə təhlükə yaratdı...*

**Bir çox piyadalar təəssüflər ki, yolu keçərkən təyin olmayan yerdə keçir. Sanki onlar demək istəyir ki, ” biz yaxşı eləyib belə yerdə keçirirk!” Bununsa heç də yaxşı nəticəsi olmur.**



Yəni təyin olunmayan yerdən keçən piyadaları bir də görürsən ki, hansısa avtomobil vurdu. Bax onda həmin insanlar peşmançılıq ( onda da gec olur) hissləri yaşayırlar. Bir neçə gün bundan əvvəl Yeni Günəşlidə avtomobil yolunda ( Fatimeyi-zəhra məscidinin yanı) qadın uşaq arabasında yolu keçirdi.

Təyin olunmayan yer olduğu üçün avtomobilin bir yol versə də , arxadan gələn sürücü ona yol vermədi . Az qala ananı və arabada olan uşağı maşın vurmuşdu.Şükür Allaha ki, qəza baş vermədi və ölüm- itim olmadı! Ona görə də kimliyindən asılı olmayaraq hamı təyin olunmuş yerdən keçməlidir!!!

**Emil FAİQOĞLU**

**Məzahir ƏHMƏDOĞLU**

# "Köhnə Tiflis" adlı çaxır şüşəsi



**Bu dəfə Abidin Dinodan yazacaqdım. Başqa şeylər düşünmüşdüm. Hardan haraya...**

**Mağazadan mineral su və limon alarkən rəfdəki çaxır butılkaları diqqətimi cəlb etdi. Bu cəhənnəm istisində könlümdən içmək-filan keçmirdi, tən ortada etiket-şəkilləri ilə fərqlənən butılkalar mənə nəyisə xatırladırdı. Satıcıdan xahiş edib onlara əlimdə diqqətlə baxdım və hər şey mənə aydın oldu.**

**Elə bu səbəbdən də mövzu dəyişdi.**

**Nikolay Aslanoviç Pirosmanaşvili soyadı adi bir gürcünü xatırlatmaqdan uzağa getməz, zənnimcə. Ancaq sən qonşu gürcü xalqının sevimli oğlu Pirosmanini, daha çox əzizləyənlər üçün sadəcə Nikonu Gürcüstanda kimdən soruşsan, tanıyar və onu təbəssümlə yad edər. Mən hətta Qax rayonunda yaşayan həm oxumuş, savadlı, həm də sadə gürcülərlə söhbət edərkən də Pirosmanini tanımayana rast gəlmədim. Gürcülər sənətkarlıq baxımından bəlkə də çox xoşbəxt olan, ancaq şəxsi həyatı mənasında talesiz Nikonun xatirəsini həmişə əziz tuturlar.**

**Əslində Pirosmani heç də dünya şöhrətli bir rəssam deyildi. O, rəssamlığı da doğulduğu kənddə özbaşına, həvəskarcasına öyrənərək ustalaşmışdı. Nikonun tanınması, məşhurlaşması, bütün kaprizlərinə rəğmən xalq tərəfindən sevilməsi Tiflis meyxanalarından başladı. O, meyxana divarlarına çəkdiyi şəkillərdə, tablolarda gürcü məişətini, gürcü xarakterini o qədər reallıqla canlandırırdı ki, bu yerlərə gələn tənha adam da özünü səs-küylü məclisdəki kimi hiss edirdi.**

**Niko özü də daim camaat içində olurdu, meyxanaları gəzirdi, içirdi, sevirdi, dalaşırdı, kiməsə doğru yüyürürdü, kimlərdənsə qaçırdı...**

**Pirosmaninin kətan üzərində işlədiyi əsərlər öz yerində, yüz ildən də artıq vaxt keçməsinə baxmayaraq divar rəsmlərinin də çoxu qiymətli əsərlər kimi saxlanılmaqdadır. Gürcü xalqı özünün itkin oğlunu həmişə hər yerdə xatırlayır, Pirosmani ilə fəxr edir.**

**Mənim mağazada gördüyüm gürcü çaxırlarının üstündəki etiketlər də Nikonun meyxana əsərlərindən götürülmüşdü.**

**Mən bu yerdə keçid edərək Səttar Bəhlulzadədən danışa bilərdim. Tamam ayrı bir ovqatla. Ancaq Pirosmani taleyinə oxşar ömür sürmüş nakam şairimizi xatırladım. Pirosmani təxminən 1918-ci ildə, Məhəmməd Hadi isə 1919-cu ildə ”yoxa” çıxıblar, 55-56 yaşlarında.**

**Bənzərsiz şeirlər yazan Məhəmməd Hadinin də yolu bir ara meyxanalardan keçib. Ancaq çoxları bilmir ki, o, xalqına xidmət yolunda şairliyi ilə yanaşı başqa xeyirli işlərlə də məşğul olub. Məhəmməd Hadi keçən əsrin əvvəllərində Köhnəbazarda (indiki Kürdəmirdə) müəllimlik də edib. Burada tez-tez meydana toplanan insanlar qarşısında şeirlərini söyləyib. Bəzən bu şeirləri satmaq istəyini də bildirib. Alanlar olub.**

**Məhəmməd Hadini hər yerdə seviblər.**

**Xalq onun şeirlərini əzbər bilib.**

**Məhəmməd Hadinin, deyirlər ki, çox şeirləri itib.**

**Bu xalq həm də onun itkin şeirləridir.**

**Gürcülər Pirosmanini hər yerdə yaşadırlar. Hətta bizə də sevdirirlər. Əslində millətindən,dilindən, dinindən asılı olmayaraq bütün xalqların böyük sənətkarları sevgiyə, rəğbətə layiqdir.**

**Görəsən, Gürcüstanda Məhəmməd Hadini tanıyırlarmı?**

***P.S*** **Bu məqaləni yazmaqda, göründüyü kimi umacaqlı bir məqsədim olub. İndi təkrarən xatırlamaqda da məqsədim var. Əkrəm Əylisli, Anar, Ramiz Rövşən... hər hansı başqa bir ölkədə yaşasaydılar, istisnasız olaraq bütün cəmiyyət onların adını hər yerdə hər zaman fəxrlə çəkərdi.Elə qonşuluğumuzda , gürcülərdə belədir.Bir-biriləri ilə münasibətlərinin necəliyindən asılı olmayaraq , onlar heç vaxt özlərinin Əkrəminə, Anarına, Ramizinə... başqa cür yanaşmazdılar . Kimsə durub kiminsə xoşuna gəlməkdən ötrü böyük yazıçı və şairləri absurd iddialarla qarşı-qarşıya qoyursa, gərək reallığı da bir düşünsün.Mən indiyə qədər heç vaxt eşitməmişəm, oxumamışam ki , Anar Əkrəm Əylislinin, Əkrəm Əylisli də Anarın yaradıcılığı haqqında yüksəkdən aşağı hər hansı bir fikir bildirsin.Əksinə olub. Bu ağsaqqal yazıçılarımız hələ gənclik -cavanlıq illərindən , liderlik stixiyasının başlanğıcından həmişə bir-birinin yaradıcılıqlarını yüksək dəyərləndirərək onlara haqsızlıq edənlərə qarşı da birgə mübarizə aparıblar.Bir xalqın yetişdirdiyi böyük dost yazıçılar kimi. Özlərinin çox gözəl , yenilikçi ( Altmışıncılar) yaradıcılıqları ilə , orijinal, heç vaxt heç kəs tərəfindən o səviyyəyə yaxın belə qələmə alına bilməyəcək füsunkar, bənzərsiz əsərləri ilə yazıb-yaratmağa davam ediblər.**

**”Mənim nəğməkar bibim” Əkrəm Əylislinin ”Adamlar və ağaclar” romanının ( trilogiya) bir povestidir.Yubileyi keçirilən tanınmış bir ədəbiyyatşünas Azərbaycan ədəbiyyatını ordan-burdan ələşdirərək gəlib çıxır dünyaca məşhur Əkrəm Əylislinin yaradıcılığına. Və görün necə ”peşəkarcasına hökm” verir: ”Çoxunun düşüncəsi ” Mənim nəğməkar bibim” dən o yana keçmir. O bibinin də axırı Haykanuş çıxdı... ”**

**Müsahibə boyu çox gözəl fikirlər söyləyən, savadlı, intellektual səviyyə nümayiş etdirən ədəbiyyatşünasımızı qəfildən belə bir ”svarkaya” nə məcbur etmişdir görəsən? Bu qədər takma haqsızlığın və amansızlığın mənbəyi haradandır?**

**... Hər hansı gürcü ədəbiyyatşünası özlərinin böyük yazıçısını və onun ən gözəl əsərlərindən birinin ən bənzərsiz obrazını bu şəkildə aşağılayardımı? Ədəbiyyatşünasımızın digər iddiaları qalsın öz yerində. Özü demişkən, bütün bunlara zaman cavab verəcək.**

**Mənsə başqasının yerinə yox, öz kimliyimə görə çox utandım...**

***P.P.S.*** **... Hətta Pirosmaninin kökəncə Azərbaycan türkü olması barədə də rəvayətlər dolaşır...**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Yaxşı adamlar gün işığıdı...

**Bu dünyada çox şeyə etibar yoxdu... Elə dünyanın özünə etibar qalmayıb... O ki qala insanlar ola... 40 il çörək kəsdiyin adam sənə dönük çıxır... Onu ağır günündə bir dəfə yanında görmürsən! Çünki çörəyi dizinin üstündədi... Düşünürsən ki, heyf ötən günlərə, gör kimə dost demişəm!**

**Amma burda sənin heç bir günahın olmayıb. Və sənin də çörəyinin duzu olub. Ancaq "dost" dediyin o yaramaz insanın duzu olmayıb... Ona görə də nə dünyadan küsməlisən, nə də insanlardan! Və mən də heç vaxt dünyadan da incimәmişəm, insanlardan da! Çünki dünya gözəl dünyadı və gözəl də insanlar var. Dünyanı o gözəl, o yaxşı, o çiçək, o mələk insanlar xilas edəcək... Səmimi danışmaq hələ səmimi olmaq demək deyil. Bilirsiniz niyə? Səmimi danışmaq o vaxt özünü təsdiq edir ki, o adamın əməli səmimi olur.**

**O qədər səmimi danışan qeyri-səmimi insanlar var. Televizorda çıxışına baxırsan və deyirsən ki, ay Allah, görəsən, bundan səmimi insan varmı?! Amma həyatda tam başqa üzün görürsən! Nə isə...**



**Biz hamını aldada bilərik və özümüzü mələk kimi də təqdim edərik. Ancaq kimin hansı əməlin sahibi olduğunu Allah hamıdan yaxşı bilir... Və bu gün dünyamızda yaxşı insanlara daha çox ehtiyac duyulur...**

**Bu yaxşı insanlar mehribanlıq, sevgi, şirinlik yaradır. Başqa sözlə, demiş olsaq, odun üstünə su tökür, insanları birləşdirir, yıxılana arxa durur, ağlayanın göz yaşlarını silir, insanlara çörək verir! Bundan gözəl nə ola bilər?! Belə böyük, ziyalı, xeyirxah insanlardan biri də uzun illər tanıdığım, kimsəsizlərə arxa duran, dostluqda, yoldaşlıqda sədaqətli olan İlham Əliyevdir! O İlham Əliyev ki, Qubadlı rayonunun Mollu kəndində boya-başa çatıb və əsl vətən oğlu olub. Birinci və İkinci Qarabağ savaşında həmişə döyüşən oğlanlarımızın yanında olub. Adam var ki, Vətən uğrunda canını verib, şəhid olub, qazi olub. İnsan da var ki, İlham müəllim kimi döyüşən igidlərimizi maddi-mənəvi cəhətdən ruhlandırb. Yəni o, vətənə sözü ilə yox, əməli ilə xidmət edib! Neçə-neçə ehtiyac içində olan ailələr deyir ki, İlham müəllim bizə çox kömək edib, əlimiz hər yerdən üzüləndə bizə arxa durub. Təbii ki, ən böyük insanlıq elə əl tutmaq və kiməsə arxa durmaqdı... Bu gün insanların bir-birinə bigənə, soyuq münasibət bəslədiyi bir dönəmdə belə vətənpərvər, istiqanlı insanları adam görəndə sevinir! Sevinir ki, nə yaxşı dünyamızda, Musa Yaqubun dili ilə demiş olsaq "mələk insanlar var, çiçək insanlar var". İlham Əliyev torpaqlarımız erməni işğalından azad olunandan sonra həmin yerlərdə gedən abadlıq, quruculuq işlərində yaxından iştirak edir. Bunu doğma Qubadlı rayonunundan olanlar daha yaxşı bilir.**

**Əlbəttə, öncə insanın ürəyində vətən sevgisi, təpər olmalıdır ki, qolunu çırmayıb belə işlər görsün. İlham müəllim deyir ki, mənim üçün vətəndən, anadan müqəddəs heç bir varlıq yoxdu. Özümü xoşbəxt sayıram ki, doğma Qarabağımın azad olunmasını gördüm. Cənab Prezident İlham Əliyev 200 ildən sonra qızıl bir tarix yazdı və xalqımızı sevindirdi. Və bundan böyük xoşbəxtlik ola bilməz. Biz də bu böyük abadlıq, quruculuq işlərində prezidentimizə və dövlətimizə kömək etməliyik. Bu gün mən ikiqat xoşbəxtəm ki, öz doğma yurdumda bacardığım nə isə onu edə bilirəm...**

**İlham qardaşımız həm də təpədən-dırnağa türk oğlu türkdü. O bir türk oğlu kimi də türk dünyasına öz töhfəsini verib. Və Türkiyədə keçirilən mötəbər tədbirlərdə iştirak edib, Atatürkün məzarını ziyarət edib! O insanın ürəyində, qəlbində vətən sevgisi var, onlar özləri, ailələri üçün deyil, bütün xalq, millət, dövlət üçün yaşayır və çalışırlar... Bax, İlham qardaşımız da belə bir əməl, ürək sahibidi. Onun kimin əməlisaleh insanları isə heç vaxt yaddan çıxarmaq olmur. Çünki dünya yaxşı, mələk və çiçək insanların çiynindədi... Belə insanlar nə qədər çox olsa, dünyamız bir o qədər işıqlı və gözəl olar...**

## İlanlar çoxalıb...



**Bütün canlılar kimi ilanlar da isti havaları daha çox xoşlayırlar! Ona görə də onlar daşların, qumların, daşların arasında özlərinə rahat yer axtarıb tapırlar!**

Bir çox halda isə bu canlılar kol-kos və otların arasında olur. Bəs insanlar bu zəhərli ilanlardan özlərini necə qorumalıdırlar? Artıq 10- a yaxın insan ilançalma diaqnozu ilə xüstəlif xəstəxanalara yerləşdirilib!

Onların arasında dünyasın dəyişən və ağır vəziyyətdə olan adamlar var! İlançalan əksər insanlar ya tarlada işləyəndə, ya da əkin- biçin işləri gödərəndə belə hadisə ilə üzləşiblər.

Ona görə də, kənd yerlərində təsərrüfatlarda çalışanlar uzunboğaz ayaqqabılardan istifadə etməli, əllərində əlcək olmalı, bir sözlə, ehtiyatı əldən verməməlidir.İlançalması baş verərkən həmin insana ilkin yardım göstərilməli və onlar tez bir vaxtda xəstəxanaya çatdırılmalıdır! Sonrakı bütün proseslər xəstəxana şəraitində həyata keçirilir!!!

## Sürücülər diqqətli olmalıdır...



**Havaların günbəgün istiləşməsi bir problemlərin yaranmasına səbəb olur. Belə ki, isti havalarda kondisioner sistemi işləməyən nəqliyyat vasitələrində uzaq səfərlər getmək bir o qədər də asan deyildir.Bu, həm sürücüyə, həm də sərnişinlərə çətin anlar yaşadır!**

Xüsusilə də sərnişin daşıyan avtobus, mikroavtobus sürücüləri belə havalarda daha diqqətli olmalıdır.Ən azından ona görə ki, kondisioner sistemi olmayan avtobusda isti havalarda sürücülər sükan arxasında yatır və nəticədə ağır qəzalar baş verir.Elə sərnişin daşıyan nəqliyyat vasitələrinin sürücüləri var ki, onlar 16 saat, bəzən də daha çox sükan arxasında olurlar. Təbii ki, istirahat etmədən avtomobili idarə etmək birmənalı olaraq təhlükəlidir.

Təəssüf ki, bu problemi əksər sürücülər nəzərə almır, dincəlmədən sükan arxasında əyləşib, sərnişin daşıyırlar. Elə avtomobil sürücüsü var ki,bir gündə Qazağa gedib- qayıdır.Bu nə deməkdir? Bu , o deməkdir ki, sürücü bilə- bilə özünü ölümün içinə atır! Əlbəttə, sernişin daşıyan hər bir sürücünün idarə etdiyi nəqliyyat vasitəsi texniki cəhətdən saz olmalıdır.Üstəlik də avtomobillər qış və yay mövsümünə uyğun olmalıdır. Yəni yayda bütün nəqliyyat vasitələrində kondisioner işləməli, sürücülər yorğun halda sükan arxasında əyləşməməlidir!!!

## Bir çox avtobuslarda kondisionerlər niyə işləmir?



**Ölkəmizdə havalar get- gedə daha da istiləşir. Heç şübhəsiz ki, isti hava şəraitində sərnişin daşıyan avtobuslarda birmənalı olaraq, kondisionerlər işləməlidir. Əgər adını çəkdiyimiz soyuducu sistemlər işlmirsə , mənll başına gedən sərnişinlər çox əziyyət çəkməli olurlar .**

Hər gün Sumqayıtdan Bakıya, Bakıdan da Sumqayıta işləyən 500 nömrəli marşrutda bu gün- yeni iyulun 2-də kondisioner işləmirdi. Və buna görə də, həmin avtobusda mənzil başına gedən sərnişinlər narazılıq edirdilər.Sürücü isə deyirdi ki, mənim heç bir günahım yoxdur. Yanacağı çətinliklə çatdırırıq! Bakıda da bir neçə marşrutda kondinsionerlər ya yoxdu, ya da heç işləmir.

Məsələn, metronun " Neftçilər" stansiyasının yanından Yeni Günəşliyə hərəkət edən 50 nömrəli marşrutda işləyən avtobuslarda kondisioner yoxdur.Sərnişinlər isə buna görə həmişə narazılıq edir! Ancaq vəziyyət isə hələ də düzəlməyib. Heç belə getsə, düzəlməyəcək də!

## İstilər birdən düşəcək...

**İyunun 21- dən ölkəmizə yay gəlib. Amma yay olmasına baxmayaraq, iyun ayı başqa illərlə müqayisədə bu il çox sərin keçdi. Bununla yanaşı, həmin ayda ölkədə intensiv yağışlar, dolu yağdı və sel gəldi! Bütün bunlar insanlarda böyük narahatlıq yaratdı. Bu gün - yəni iyulun 3 isə yayın isti günlərindən biridir. Təbii ki insanlar isti günlərdə daha çox istirahət mərkəzlərinə getmək istəyirlər! Hidrometeoroloqlar bildirirlər ki, iyul ayında havanın temperaturu yüksək olacaq. Hətta bəzi günlərdə ölkə ərazisində havanın temperaturu 40 dərəcəni ötəcək! Bu isə o deməkdir ki, ölkə ərazisinə istilər birdən- birə yox, tədricən gələcək!**



Belə havalarda səhhətində problemlər olan insanlar daha diqqətli olmalıdırlar.Əlbəttə, yay fəslini çoxlarımız xoşlayırıq. Çünkü həmin fəsildə bolluq olur, mer-meyvələrin və bostan - tərəvəz məhsullarının qiyməti ucuzlaşır!

Üstəlik də istirahət mərkəzlərinə və dənizə çimmə gedənlərin sayı çoxalır. Bu il havalar qeyri-sabit keçdiynə görə, insanlar həmin yerlərə bir o qədər də gedə bilməyiblər.Bununla yanaşı, o yerlərin sahiblərinin də qanları qara olub ki, az müştəri olub.Amma gərək istirahət mərkəzlərinin sahiblərinin də insaf? olsun ki, insanlardan dəyərindən artıq pul almasınlar. Heç kimə sirr deyil ki, bəzi istirahət mərkəzlərində çox bahalıqdır və ora gedənləri şişirdilmiş qiymətlər " oxuyaraq" soğan kimi soyurlar.Bununsa bir adı var- insafsızlıq!!!

## 1-3 qəpiyə satılan yumurtalar...



**Bir neçə həftə bundan əvvəl Bakının bir çox market və mağazalarında 1-3 qəpiyə yumurtalar satılıb. Sözün düzə hələ indiyə kimi yumurtalar belə ucuz qiymətə satışa cıxarılmayıb. Təbii ki, bu da əhali tərəfindən birmənalı qarşılanmayıb.**

Bəzi insanlar deyiblər ki, o yumurtalar süni yolla hazırlanmış yumurtalardı, bəzi istehlakçılar da bildirirlər ki, bu yumurtaların vaxt keçdiyinə görə, belə ucuz satırlar. Bütün deyilənlərə Qida Təhlükəsizliyi Agentliyi aydınlıq gətirib. Məlum qurum bildirib ki, yumurta istehsal olunan müəssisələr də , eləcə də market və mağazalarda yoxlamalar aparılıb və həmin məhsullardan nümunələr götürülərək analiz edilib. Aparılan araşdırmalar nəticəsində məlum olub ki, istehsal və satış mərkəzlərində süni və vaxtı keçmiş yumurtalara rast gəlinməyib.

Üstəlik də həmin məsull şəxslərə tövsiyə edilib ki, əhaliyə həmişə olduğu kimi keyfiyyətli məhsullar verilsin! Heç şübhəsiz ki, yay mövsümü ilə əlaqədar olaraq yumurtaların qiyməti digər mövsümlərə nisbətən daha ucuz olur! Bir sözlə, ölkəmizdə hər an bolluq olduğu üçün hər an yumurtalar ucuzlaşa bilər!!!

## Taxılımız sahədə biçilməmiş qalıb...



**Bu il hava şəraitinin qeyri-sabit keçməsi nəticəsində bütün kənd təsərrüfatı məhsullarına ziyan dəydiyi kimi, taxılçılığa da böyük zərbə deyin. Yəni intensiv yağışlar və dolu bol məhsul yetişməsinə imkan verməyib.**

Ona görə də bu gün ölkəmizdə taxılçılıqla məşğul olan fermerlər çətin vəziyyətlə üzləşib.Artıq bir çox taxıl sahələri yerə yatıb və həmin məhsulları biçmək çətinləşib! Amma buna baxmayaraq yenə o fermerlər ümdlidirlər!Düşünürlər ki, taxılın yarısını da biçsələr az da olsa, məhsuladarlıq əldə edərlər! Amma nə etmək olar ki, onların taxık sahəsini biçməyə kombayn verilmir.Bu narahatlığı ən çox yaşayanlardan biri də Bərdə fermerləridi. Fermer Adil Əliyev deyir ki, beş hektar sahədə taxıl əkmişəm.

Dolu və yağış məhsulumuzun çox hissəsini zay elədi.Bunlar hamısı aydındı.lakin aydın olmayan odur ki, Aqro-lizinq bizə kombayn vermir. Deyirlər ki, gözləyin növbəsiniz çatanda kombayn göndərəcəyik .

Əgər 3-4 günə kombayn gəlib çıxması heç məhsulumuzun 30 faizi də qalmayacaq. Bütün taxılımız məhv olacaq və ziyan görəcəyik. Hələ də gözlərimiz yoldadır ki, kombaynlar nə vaxt gəlib çıxacaq! Nə isə ... Belə getsə, heç çəkdiyimiz xərci də çıxara bilməyəcəyik

**Emil FAİQOĞLU**



# BURA VƏTƏNDİR, ANA VƏTƏN...

**... Uzaqdan, lap uzaqlardan baxanda əvvəlcə göylərdə dalğalanan bayraq görünür.Ay-ulduzlu, üçrəngli Azərbaycan Bayrağı! Yolun hansı istiqamətindən olur-olsun , Balakən şəhərinin mərkəzinə yaxınlaşdığını beləcə görüb rahatlanırsan. Şimal-qərb bölgəsinin sonuncu rayonunda ,Gürcüstanla sərhədin üzbəüzündə... Balakən şəhərində səni sevinc dolu anlar gözləyir. Yol boyunca yeni salınmış park və bağlar, müasir tikililər, sosial obyektlər, rahat yollar, səliqəli küçələr... Yolun bu yerlərdən çoxdan düşməyibsə çaşıb qalırsan. Bir ilin , il yarımın zaman müddəti , əslində görülən işlərin miqyasında qısa bir vaxtın yaşantısıdır. Hələ bir müddət düşüncələrin labirintində qalırsan: bura doğurdanmı həmin yoldur, həmin şəhərdir, həmin yerlərdir?**





Bura Vətəndir! Gündən-günə inkişaf edən Azərbaycan Respublikasıdır. Özü də təkcə şəhərləri, rayon mərkəzləri ilə deyil, kənd və qəsəbələri ilə də daim inkişafda olan gözəl Vətən. Bugün öz inkişafı və müasirliyi ilə hamını sevindirən Balakən də bu Vətənin bir parçası, qürurudur.

Gerçəkdən son vaxtlar buralarda görülən işlər, bütün istiqamətlərdə baş verən yeniliklər bütövlükdə Balakən rayonunun simasını büsbütün dəyişərək onu da müasir bölgələr sırasına çıxarmışdır. Dövlət Proqramlarının uğurlu icrası , Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müstəsna qayğı və diqqəti bu strateji sərhəd rayonumuzun da geniş inkişaf yolunu təmin etmişdir. Bütün bunlar barədə rayonda keçirilən tədbirlər zamanı həmişə geniş söhbətlər açılır, ölkə rəhbərliyinin ünvanına minnətdarlıqlar , alqışlar səslənir.

Balakən rayonu haqqında biz də vaxtaşırı məqalələr dərc etmişik. Onun keçmişindən-bugünündən çoxlu söhbətlər açmışıq. Bir zamanlar çoxlarının o qədər də tanımadığı, yolu düşmədiyi bu ucqar rayonun bir çox özəllikləri də elə ucqarlardaca , necə deyərlər, gözdən-könüldən uzaq düşərək sanki öz zamanının gözləyib. Balakən oğullarının Qarabağ döyüşlərində göstəridiyi igidliklər də bir ara diqqətdən kənar qalıb. Sonralar ” Balakən qartalları” batalyonunun vətən uğrunda döyüşləri haqqında çoxlu xatirələr danışıldı, qəzetlərdə məqalələr verildi, kitablar buraxıldı, şəhidlərin xatirəsi əziz tutuldu, adları əbədiləşdirildi.

... Sonralar Balakən rayonu da çox dəyişdi, çox inkişaf etdi. Dövlətimizin qayğı və diqqəti sayəsində bu ucqar və strateji həssas rayonumuz elə bil mərhələyə çatdı ki , onu sevənlər , dostlar bu haqda həmişə qürurla danışdılar.





... Bəli, bura müasir Balakəndir. Bu yaraşıqlı şəhəri dağlar da isti bir nəvazişlə qoynuna alıb.Yaxınlaşdıqca bu dağlar sanki daha uca, daha nəhəng görkəmi ilə hələ bir az qorxu da yaradır.Elə bil dünya bu dağlara qədərdir, kainat burada sona çatır, hər şey burada səssizcə yoxa çıxır.

Şəhəri , dağ ətəklərini , Heydər Əliyev parkını, kanat yolları, ətraf kəndləri , park və bağları, təbiət gözəllikləri ilə yanaşı, həm də müasir üsullarla salınmış müxtəlif növ təsərrüfatları görüncə bir anlıq yaşanan bu sadəlövh hisslərinə , sadəlövh tələşına eləcə gülümsəyirsən. Bəli, hər iki tərəfi gül-çiçəkli rahat yol səni dağlar qoynunda gizlənmiş şirin bir gözəlliyə çəkib aparır.Keçmişlərdə gündüzləri də boz və tutqun görünən Balakənin bugünkü palitrası göz oxşayır, qəlblərə rahatlıq bəxş edir. Düşüncələrə dalırsan: bura ucqar bir dağ rayonudurmu, yoxsa Avropa şəhərlərindən birimi? ..Şərqdimi, qərbdimi, bilmirsən...

Gerçəkdən son vaxtlar buralarda görülən işlər , bütün istiqamətlərdə baş verən yeniliklər bütövlükdə Balakən rayonunun simasını büsbütün dəyişərək onu ən müasir səviyyəyə çıxarmışdır.Bura sərhəd rayonu , sərhəd qapımızdır. Dost var,düşmən də var, axı!

Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayevlə rayon həyatının əsasını təşkil edən bir çox vacib məsələlərdən danışırıq.Burada uzun illərdir elə mənim də yaxşı bələd olduğum problemlər də az deyildi. Görülən işlərin , inkişafın, yüksəlişin fonunda neqativ halların da mövcudluğu haqlı narahatlıqlar doğururdu. Bütün bunlar cəmiyyətə hədsiz dərəcədə açıq və səmimi olan icra başçısının rayon mərkəzində və kəndlərdə keçirdiyi görüşlər zamanı diqqəti cəlb etməkdəydi. Rayon rəhbərinin quruculuq və inkişaf istiqamətli fəaliyyəti daha mühüm dövriyyəyə daxil olmalı idi. Savadlı, işgüzar, səmimi olmaqla yanaşı , müstəsna peşəkarlıq xarakteri də köməyə gələcəkdi.Və gəldi də!

Artıq Balakən rayonunda bütün neqativ hallar, tərəddüdlər aradan qaldırılaraq olduqca şəffaf bir mühit formalaşmaqdadır.



Bu məsələlərin həllində rayon rəhbəri özünü təkcə başçı kimi deyil, həm də Vətənin şərəfini qoruyan bir əsgər yerində də görür. Baxmayaraq, çoxlu təltifləri olan yüksək rütbəli veteran bir zabitdir.

Mən az vaxt ərzində Natiq Ağayevin işgüzarlığını, Vətəninə, xalqına və ali rəhbərliyə yüksək sədaqətini çox yerdə eşidib gördükcə həm bir vətəndaş , həm də jurnalist olaraq dost sevincinin qürurunu yaşadım. Əsl icra başçısı olmaq, bəli, çox çətin və çox məsuliyyətli bir işdir.İndiki zamanda bundan daha da artıq! Görüşümüz zamanı N.Ağayev Balakən rayonunun bu günü və gələcəyi haqqında konkret fikirlərini də bildirdi:

- Ölkəmizin sərhəd rayonu olan Balakən müxtəlif xalqların, icmaların birgə yaşadığı nümunəvi bölgələrindən biridir. Xalqımıza , xüsusilə bölgəyə məxsus olan , uzun bir tarixi yol keçib gələn adət-ənənələr, folklor nümunələri bugün də burada mövcuddur. Tolerantlığı ilə seçilən Balakəndə iyirmiyə yaxın xalqın nümayəndələri mehriban bir ailə kimi yaşayır.

Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi altında respublikada aparılan uğurlu sosial-iqtisadi siyasət sayəsində Balakən rayonunda inkişaf üçün böyük işlər görülüb və bu işlər hazırda yüksək əzmlə davam edir.Bunun nəticəsidir ki, rayonun sosial-iqtisadi göstəriciləri əhəmiyyətli dərəcədə yaxşılaşmaqda və yeni istehsal sahələri yaradılmaqdadır. Balakəndə aqrar sahənin sürətli inkişafı, kənd təsərrüfatının ənənəvi sahələrinin dirçəldilməsi təmin olunmaqdadır. Bu isə öz növbəsində rayonun ümumi iqtisadi göstəricilərinin yaxşılaşmasına, əhalinin işlə təminatının və həyat səviyyəsinin yüksəlməsinə, gəlirlərin artmasına əhəmiyyətli təsir göstərir. Biz mövcud nöqsanların aradan qaldırılması,insanların arzu və istəklərinin təmin olunması istiqamətində nizamlı bir komanda kimi səfərbər olmuşuq. Bütün fəaliyyətimiz xalqın rifahı və Vətənin ucalığı naminədir...



***P.S*** **Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə Balakən şəhərinə müstəsna yaraşıq verən kanat yolların daha da müasirləşməsi üçün bir milyon manat vəsait ayırmışdır. Kanal yolları ilə bərabər digər müasirləşdirici quruculuq işləri də davam etdirilir.**

**Məzahir ƏHMƏDOĞLU**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Ürəyimdəkiləri kağıza köçürmək cəhdi

## Fikir düyünlərinin çözümsüzlüyü

**İllərin axarında əlimi günlük edib baxıram. Və baxa-baxa da düşünürəm. Arxada qalan bu illər mənə, çevrəmə nələr verdi və məndən, çevrəmdən nələr aldı. Əslində həm də mənim özümlə etdiyim sorğu-sualdı. Bu sorğu-sualın ikinci iştirakçısı da illər, yəni zamandı. Bax, bu zamanın məhəng daşı o qədər ağır, həm də dürüstdür ki, onu sallaşıb, çəkib nə əymək mümkündü, nə də nizamını pozmaq. Deməli, elə mizan-tərəzi anlayışı da heç təsadüfi deyilmiş. Onun da canında-qanında bax elə həmin o zaman daşının hökmü varıymış. Mən də həmin o hökmün qarşısında susmağa çalışıram. Çünki başqa bir addımı atmağa, müqavimət göstərməyə nə gücüm yoxdu, nə də o güc olsa belə axına qarşı üzmək divara baş vurmaqdı. Bunu bir az da çılpaqlasam, deyə bilərəm ki, lap iynə ucu boyda ağlı olan kəs də başını divara vurmaz. Təbii ki, dəlidən və intihar etmək istəyəndən başqa...**

Hə, söhbət dəlilikdən düşmüşkən... Bununla bağlı mənim dünya görüşüm Məcnun sayaqdı. Ona görə də hərdən özümü lap Məcnundan da Məcnun sayıram. Şair demişkən, özümü yeni əsrin Məcnunu kimi hiss edirəm.

Və bu məcnunluğu da vurğulamaqda məqsədim odur ki, dəliliklə məcnunluğun kökündəki eyniliklə fərqliliyin barəsində imkan olduqca birlikdə düşünək. Məncə düşünmək heç vaxt gec də deyil, ziyanlı da deyil.

Əksinə, düşündükcə, qarşında yeni çalarlar, yeni mənzərələr açılır. Həmin mənzərələrin də özünün ifadəsi, özünün təqdimatı adamın ruhunu da çəkir, ürəyini də çəkir. Bir də görürsən ki, nə qədər yeniliklə üz-üzəsən, baş-başasan. Və...

Bəli, bütün bu dediklərim təbii ki, zamanın içərisində əriyən ömrün özünün daxilində baş verir. Bunu bir sən bilirsən, bir Allahın bir də səni dəli edən, Məcnuna çevirən. Doğrudur, belə bir fikir var ki, iki adamın bildiyi heç vaxt sirr olmur. Ona görə də Allahın sənin və ikinci şəxsin bildiyi təbii ki, sirr donundan çıxıb sevgi donuna bələnir. Və yaxud da nifrətə bürünür.

Deməli, bütün bu prosesin başverme proseduru, cərəyan etmə anları da zaman məsələsidi. Bu da yenə zamana, əriyən ömrə hopur. Yekun olaraq belə bir məntiq ortaya çıxır: baş vermişlər, olanlar və olacaqlar zamanla ömrü, yəni insanı gah paralelləşdirir, gah qarşı-qarşıya qoyur, gah da yolların ayırır.

Hə, mən də ömrün elə nöqtəsindəyəm ki, bu daha çox yol ayrıcına yaxındı. Kəsişən yollardan ayrılan yollara olan məsafə də həmin o illərin yaddaşındakı ömür payımdı. Adətən payın azlığı, çoxluğu önəmli olmur. Normal insan üçün adının anılması, qapısının döyülməsi, varlığının xatırlanması bütövlükdə diqqət göstərilməsi özü-özlüyündə artıq ən böyük paydı, ən böyük mükafatdı. Bu mükafat da anlayışlı olana kifayət edir. Ona görə də:

*Sən bir ümid, bir güvən*
*Əllərindən tutmuşam...*
*Sənə sığınan andan -*
*Dünyanı unutmuşam...*

*Gözümün göz gəzməsi*
*Bəbəkdə közərməsi...*
*Dolaraq gözləməsi -*
*Deyir ki, buludmuşam!..*

*Ruhum odda, həm buzda*
*Oda da ərimir buz da...*
*Kipriklərimi duzda -*
*Isladıb qurutmuşam...*

*Haqdan halal olanı*
*Sevdim, qəlbə dolanı!..*
*Ömür adlı solanı -*
*Xərcləyib qurtarmışam...*

***

Heç vaxt kiminsə haqqına göz qoymadım, müdaxilə etmədim, əl uzatmadım. Heç vaxt da Allahımı və Allahım qədər sevdiyimi yadımdan çıxarmamışam. Ona görə də gördüyüm sayğısızlıq, etinasızlıq, qarşılaşdığım haqsızlıq və ən vacibi diqqətsizlik mənə ən ağır yara, ən kəskin xəncər kimi sancılıb həmişə. Onun ağrısını sinirə bilməmişəm, həzm etməyi bacarmamışam. Nə qədər unutmaq istəsəm də, meymun kimi həmişə gözümün önündə olubdu. Və anlamışam ki, yaşadığım bu illərin, doğranan kəsilib üst-üstə yığılan bütün ağrılı hissəsi məhz mənim öz günahlarımdı, mənim hamı kimi ola bilməməyimdi. Təklənmək, təkliyə çəkilmək, özün, Allahın və sediyinlə birgə olmaq sən demə bu cəmiyyətin, bu zamanın yemi deyilmiş, ona uyğun gəlmirmiş. Uyğun gəlməyənlər də həmişə sıxılır və zaman ləpəsi onu sahilə qovur. Mənim üçün indi həmin o uzaq sahillər addım-addım yaxınlaşır. Bəlkə də ləpə-ləpə. Qoy bir az poetik olsun. Bu yerdə mən o ləpələrin pıçıltısına qoşulmaq, o pıçıltının ruhuna uyğun olaraq mən də ruhumun səsinə qulaq asıram. Ruhum deyir ki:

*Ruhum elə göynəyir*
*Elə bil dağ basılıb...*
*Isa kimi çarmıxdan -*
*Dipdiri sağ asılıb...*

*Gözlərim də qıyılır*
*Əhvalım da sıyılır...*
*Nəsə, nəsə duyulur -*
*Od üstdən yağ asılır...*

*Qəfil tutuldum doldum*
*Sən gəlib-gedən yoldum...*
*Bəylə bostançı oldum -*
*Çiynimdən tağ asılıb...*

*Ümid bitir içimdən*
*Allandım bu biçimdən...*
*Yatağımın küncündən -*
*Üç arşın ağ asılıb...*

Bu şeir ruhun pıçıltısı idi. Onu necə ifadə etdim, necə araya-ərsəyə gətirdim, heç xəbərim olmadı. Amma bir balaca nəfəsim gənəldi. Ona görə ki, "üç arşın ağ" söhbəti həyat gerçəkliyidi. Doğrudur, o bəzən hamıya nəsib olmur. Amma bütün hallarda nəticə eynidi, istəyir zəlzələdən, istəyir vəlvələdən olsun...

... Yazının bu məqamında ovqatıma soğan doğrayan bir hal yaşadım. Onu yaddaşın bir küncünə atıram. Qoy qalsın orda... Həyatdı, onsuz da soğansız-sarımsaqsız da keçinmək olmur. Özü də indiki pandemiya şəraitində. Axı bu virus söhbəti çıxanda marketlərdə sarımsağın, zəncəfilin qiyməti kəllə-çarxa qalxmışdı. İndi bir az özünə qayıdıb. Bu "özünəqayıdış" böyüklük demək deyil. Sadəcə, öz yerinə dönməkdi. Bu mənada düşünürəm ki, mənim kimi düşünənlərin özündən çıxıb getməsi yoxdur, biz elə öz yerimizdəyik. Öz yerində olanlar da özünü sevdiyindən artıq Allahını sevir. Çünki onun yerində qayim-qədim edən elə Allahıdır!..

Və bir də unutmaq lazım deyil ki, hər şeyin başlanğıcı, sonu olduğu kimi, qaranlığın da aydınlığı, gecənin də səhəri var. Çalışıb hər ikisinin havasına öz havanı qata biləsən. Öz simində, öz sazında çalasan havanı. Özgə havasına oynayanın qollarının göydə qaldığını o qədər görmüşəm ki.

Təbii ki, siz də görmüsünüz. Deməli, hansı bucaq altından baxırsan bax, ağ ağdı, qara qara. Sənin gözündəki eynək burda aldadıcıdı... Unutma!Bəli, mən bütün bu dediklərimi içimdə yüz dəfə ələdim. Və yalnız yüz birinci dəfə qərar verdim ki, olduğun kimi olmaq, olduğun kimi də görünmək ən böyük dürüstlükdü, doğruluqdu, gerçəklikdi. Ona görə də üzümü Allaha tutub bu misraları pıçıldadım:

*Səndən dilənmək deyil*
*İlahi, əl açmağım...*
*Mənə möhkəm ol, deyir -*
*Qarşında dayanmağım...*

*Yaradan da, yazan da*
*Yazdığını pozan da...*
*Bilib yuxu yozan da -*
*Nədəndi qocalmağım...*

*Qaldır, ya da vur yerə*
*Qaranlıq, ya gur yerə...*
*Birdəfəlik bir yerə -*
*Deyilsin, bac almağım...*

*Duam, sözüm, ümidim*
*Bilmirsən mən kim idim?*
*O ürəyi - kiridim -*
*Keçdi tay ucalmağım...*

Bax, bu misraların özü də mənim yerimdə dayanmağımın müəyyən mənada təsdiqi, təqdimatıdı. Bu təsdiq, bu təqdimat da nə sənin üçündü, nə də sənin düşüncədə olanlar üçün. Gerçəyin bir şeir formasında Allahıma və ona söyləməyimdi...

***

Mən bu yazını bilgisayara diqtə etdikcə içimdə yazdığımla dediyimin arasında müəyyən xətlər yarandığını, müəyyən redaktələrin olduğunu etiraf etməliyəm. Ona görə ki, bu yazı tamam nostalji duyğular üzərində yazılmışdı ürəyimə. Bu nostaljinin içərisində həyatyımdakı, ömrümdəki, düşüncəmdəki, eləcə də aid olduğum kollektivdəki adamlar da var idi. Onlarla bağlı düşündüklərimi, yaşadıqlarımı kağıza köçürmək niyyətindəyim. Bir az da dəqiq ifadə etsəm, ürəyimdəkinin surətni çıxaracaqdım. Amma alınmadı. Bəlkə də belə daha yaxşıdı. Çünki hərənin öz arşını, öz həqiqəti var. Kimsə mənim yazdığımı yanlış da anlaya bilərdi, yaltaqlıq kimi də, qısqanclıq kimi də, ittiham kimi də görənlər olacaqdı.

. O ki, qaldı bundan sonra nəyi necə yazacağıma, onu zaman göstərəcək. Hər şeyin zamana ehtiyacı olduğunu isə yəqin ki, heç birimiz unutmışıq...

# ZƏLİMXAN YAQUBUN ATA YURDUNDA EV-MUZEYİ YARADILIR



**Xalq şairi Zəlimxan Yaqubun ata ocağında - Gürcüstanın Bolnisi rayonundakı Kəpənəkçi kəndində ev-muzeyi yaradılır. Bu barədə məlumat verən Əməkdar mədəniyyət işçisi, Zəlimxan Yaqub irsinin araşdırıcısı Musa Nəbioğlu bildirib ki, ölməz söz ustadının xatirəsini doğma Borçalıda əbədiləşdirmək üçün Kəpənəkçi kəndində, doğulub boya-başa çatdığı evin həyətində ayrıca ev-muzeyin tikintisinə başlanılıb.**

M.Nəbioğlu onu da əlavə edib ki, əslində, Borçalıda - Kəpənəkçi kəndində bir "Poeziya Evi"nin olması Zəlimxan Yaqubun özünün də arzusu olub. Bu gün bu arzu reallaşdırılır. Z.Yaqubun ev-muzeyi həm də saz-sözsevərlər üçün müqəddəs bir ocağa çevriləcək, ziyarətçilər Türk dünyasının sevimlisi olan bu böyük söz ustadının keçdiyi ömür yolu və kitabları ilə yaxından tanış olmaq imkanı əldə edəcəklər. Burada müxtəlif ədəbi tədbirlər keçiriləcək, ustad aşıqların və şairlərin yubileyləri qeyd olunacaq. Bu mədəniyyət ocağı həm də Azərbaycan-gürcü ədəbi əlaqələrinin daha da inkişafına töhfələr verəcək.

Ev-muzeyinin tikintisinin bu ilin sonunadək başa çatdırılması nəzərdə tutulur.

# "Əgər Pirşağıdakı İctimai çimərliyə işıqforun qoyulması məqsədəuyğun hesab edilmirsə..."

**"Xalidə xanımın, təhlükəli çimərliklərlə bağlı yazısını oxudum. Çimərlik mövsümü başladıqdan keçən qısa müddətdə dənizdə boğulanların sayı artıb. Çimərliklərlə bağlı daha bir təhlükəyə toxunmaq istəyirəm. Şənbə və bazar günlərində çimərliklərə nəqliyyat vasitələri ilə gedənlərin sayı çoxalır. Axşam dənizdən geri qayıdarkən, yollarda sıxlıq yaranır. Vaxtilə İDEA İctimai Birliyi ictimai çimərliklər yaradıb. Bunlardan biri də Pirşağı qəsəbəsindədir".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib. O, bildirib ki, nəqliyyat vasitələrinin Pirşağıdakı İctimai çimərlikdən geri qayıtmaları əsl məşəqqətə çevrilib:

"Məsələ burasındadır ki, çimərlik Bakı-Novxanı-Sumqayıt yolunun sağ tərəfindədir. Nəqliyyat vasitəsi ana yola çıxmaq üçün həm sağ, həm də sol tərəfi gözləməlidir. Ancaq bu yol o qədər yüklənib ki, hər iki tərəfi gözləyərək ana yola çıxmaq çətindir. Doğrudur, həmin yolda sürət həddi 40 km/s və 50 km/s göstərilib. Ancaq çox az nəqliyyat vasitəsi həmin sürətə riayət edir. Bu səbəbdən Nəqliyyatı İntellektual İdarətmə Mərkəzinə təklif yazdım ki, Pirğaşı çimərliyi istiqamətində işıqforun qoyulması faydalı olar. Mənə cavab yazdılar ki, əsas yolda əlavə ləngimələrə səbəb olacağı baxımından hazırda svetofor obyektinin quraşdırılması məqsədəmüvafiq hesab edilmir. Halbuki, özüm dəfələrlə şahidi olmuşam ki, yayda axşam saatlarında həmin kəsişmədə qəza təhlükəsi yaşanır. Əgər Pirşağıdakı İctimai çimərliyə işıqforun qoyulması məqsədəuyğun hesab edilmirsə, nədən bir qədər irəlidəki Goradildəki İctimai çimərliyin girişində işıqfor qoyulub? Bu suala Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzindən cavab gözləyirəm".

**Vasif ƏLİHÜSEYN**

# Quterreşdən süni intellektlə bağlı xəbərdarlıq

**Süni intellektin (Sİ) inkişafı bəşəriyyət üzərində heç bir ümumi plan və insanların razılığı olmadan həyata keçirilən nəzarətsiz bir sınağa çevrilib.**

Adalet.az xəbər verir ki, bu barədə BMT-nin baş katibi Antoniu Quterreş süni intellektin idarəolunması üzrə birinci Qlobal Dialoqun açılış mərasimində bildirib.

Baş katibin sözlərinə görə, süni intellekt ağlasığmaz sürətlə inkişaf edir və bu texnologiyalar hətta onları yaradanların belə ayaqlaşa bilməyəcəyi bir templə tətbiq olunur. Quterreş vurğulayıb ki, bu sistemlər iqtisadiyyatı yenidən formalaşdırmaq, seçkilərə təsir etmək və qlobal təhlükəsizlik balansını dəyişdirmək gücünə malikdir: "Cəmiyyətlərimiz üzərində plansız və razılıqsız bir eksperiment aparılır. Bu, belə davam edə bilməz və qəbuledilməzdir".

Quterreşin fikrincə, süni intellekt sistemləri artıq sadəcə alət deyil, kod yazan, şəbəkədə fəaliyyət göstərən və insanın iştirakı olmadan qərarlar qəbul edən müstəqil subyektlərə çevriliblər. "İnstitutlarımız əmrləri yerinə yetirən maşınları idarə etmək üçün yaradılıb. Lakin onlar özləri qərar verən maşınlar üçün hazır deyillər", - deyə o əlavə edib. Baş katib onu da vurğulayıb ki, hazırkı nəsil insanlarla maşınların birgə yaşayış şərtlərini müəyyən etməyə qadir olan son nəsil ola bilər.

# ŞEİRİ PIÇILDAMAYAN ŞAİR

## *Sabir Abdinin "Əlvida deyirəm ayrılıqlara" kitabı barədə dost sözü*

**Bizim yolumuzun başlanğıcı lap uzaqlara, 80-ci illərin əvvələrinə gedib çıxır. Onda hər ikimiz tələbə idik. Hər ikimiz də ölkənin müxtəlif bölgəsində, amma təbiətin üzə gülən, könül oxşayan coğrafiyasında doğulmuşduq. O, Yardımlının Bürzünbül kəndində, mən isə Tuğda, yəni Qarabağda. Həm arzularımız, həm ruhumuz, həm də seçdiyimiz yol bizi Bakıda görüşdürdü. O zamanın yeganə universitetində. Və müxtəlif fakültələrdə oxusaq da, bizi birbirimizlə sözümüz tanış etdi. Özü də universitet qəzetində. Beləcə başladı tələbəlik illərinin şinelindən çıxan dostluq. O dostluğun bir cinahında Sabir dururdu, birində də mən...**

Mən onu öncə adına görə sevdim, çox istədim. Çünki ailəm üçün Sabir adı çox önəmli idi. Rəhmətlik atam 8-ci sinif təhsilli olsa da, Mirzə Ələkbər Sabiri çox sevirdi. Ona görə də sonbeşik qardaşıma Sabir adı qoymuşdu. Evimizdə də hamı Sabirin şıltaqlığına dözürdü. Bir şirin ərki vardı onun da. Elə həyatımın ən sarsıdıcı anı o şirinliyin qəflətən Haqqa qovuşması oldu. Bax, Sabir adı da mənim üçün özündə ehtiva etdiyi o doğmalığa görə Sabir Abdin də məndə ilk görüşdən xoş təəssürat yaratdı. Zaman göstərdi ki, bu dostluqda yanılmamışam. Çünki Sabir Abdin harda işlədisə, hansı bölgədə oldusa, ordan xoş sədasını eşitdim, orda məni xatırladı, orda məni gözlədi, orda məni şərəfləndirdi. Hətta mənə ithaf şeirləri də yazdı. Və bu şeirlərin birində vurğuladı ki:

*Yağış olub yağıb gedək,*
*Çaylar olub axıb gedək,*
*O dağlara baxıb gedək,*
*Gəl, qoşulub Tuğa gedək.*

*Ürəyimiz əlimizdə,*
*Xatirələr dilimizdə,*
*Şələmiz də belimizdə,*
*Gəl, qoşulub Tuğa gedək.*

*Kağız götür, qələm götür,*
*Bayraq götür, ələm götür,*
*Ümidini lələm, götür,*
*Gəl, qoşulub Tuğa gedək.*

*Küləklərə gəl qoşulaq,*
*Yel qanadlı bir quş olaq,*
*Yurd yerində bir daş olaq,*
*Gəl, qoşulub Tuğa gedək.*

*Sübh, obaşdan çıxıb gedək,*
*Gözümüzü sıxıb gedək,*
*Nəyin varsa yığıb gedək,*
*Gəl, qoşulub Tuğa gedək.*

*Yatmış kəndin oyanacaq,*
*İşığına boyanacaq,*
*Bu ilk və son dayanacaq,*
*Gəl, qoşulub Tuğa gedək.*

*Süfrə açıb çörək kəsək,*
*Qoy dil açsın o daş, kəsək,*
*Gecikirik, biz tələsək,*
*Gəl, qoşulub Tuğa gedək.*

Bu şeiri 30 il həsrətini çəkdiyim, yurd niskilini yaşadığım günlərimdə mənə təsəlli olaraq yazdı Sabir. Və hər bir görüşümüzdə, hər bir söhbətimizdə təkrar-təkrar vurğuladı ki, biz Tuğa gedəcəyik, biz o yerin sahibləriyik və o yerin də sahibliyini geri alacağıq. Maraqlıdır ki, bayrağımız Tuğa sancılan gün mənə ilk gözaydınlığı zəngini vuranlardan biri məhz Sabir Abdin oldu. İndi də həmin o xoş anı kövrələ-kövrələ xatırlayırıq.

Mənim kitabxanamda Sabir Abdin qələminin bəhrəsi olan kitabların özəl yeri var. Və bu da maraqlıdır ki, o kitabların hər birinin dünyaya gəlişi məqamını, sevincini bərabər bölüşmüşük. Kitabın ilk oxucularından biri olmuşam. Bu gün də Sabir Abdinin dünyaya gələn növbəti kitabı ilə həmsöhbətəm. Kitabın qəribə bir adı var: "Əlvida deyirəm ayrılıqlara".

Özünüz də bu adın tutumunu, çəkisini, məna yükünü yəqin ki hiss etdiniz. Şairin birbaşa ayrılıqlara meydan oxuması, onlara üsyan etməsi və qəti şəkildə əlvida deməsi sözün böyük anlamında poeziyanın gücünü göstərir. Yəni Sabir Abdin ruhunun, sözünün çəkisini diqqətə çatdırır. Elə buradaca xüsusi olaraq qeyd edim ki, mənə görə, Sabir şeiri yazmır, şeiri deyir, özü də pıçıltı ilə yox, ərklə, birbaşa, necə deyərlər, daxili hökmlə. Məsələn, onun çoxlu sayda şeirlərinə musiqilər bəstələnib. O nəğmələrdən biri "Mənə dəniz verin" adlanır.




Mən hələ o şeiri oxuyanda Sabir Abdinə dedim ki, qardaş, dənizin sahibi onu nə sənə, nə mənə verən deyil. Amma sənin bu ərklə, bu ürəklə istəməyin, yəqin ki, cavabsız qalmayacaq. Belə də oldu. Həmin nəğmə tanınmış müğənnimiz, Xalq artisti Eyyub Yaqubovun ifasında populyarlıq qazandı, dinləyici və tamaşaçıların sevilən nəğməsinə çevrildi. Məntiqi olaraq Sabir istədiyi dənizi aldı.

Elə barəsində fikirlərimi sizinlə bölüşdüyüm kitabdakı "Mən gözlədim, sən gəlmədin" şeirinə Azərbaycanın ən populyar və sevilən bəstəkarları Cavanşir Quliyev və Nadir Əzimov, eləcə də Vüsal Qurbanov musiqi bəstələdilər və bu mahnı da müəllifə uğur gətirdi. Onun imzasını və sözünü dinləyiciyə, oxucuya sevdirdi. Ümumiyyətlə, Sabir Abdinin musiqi bəstələnmiş şeirlərinin hər biri demək olar ki, öz dinləyici auditoriyası olan nəğmələrdir. Ona görə ki, Sabirin içindəki gənclik eşqi ilə paralel düşündürmək, istiqamətləndirmək kimi müdriklik bacarığı birləşir. Və nəticədə oxucu da, dinləyici də onun söz dünyasının könüllü vurğunu olur.

"Əlvida deyirəm ayrılıqlara" kitabında şairin şeirləri və nəğmələri yer alıb. Üç hissədən ibarət olan kitabda vətən, şəhid, torpaq, qələbə və bir də vətəndaş mövqeli poeziya nümunələri sıralanıb. Burdakı şeirlərin hamısında qələbə və inam hissi hakimdir. Hətta onun "Dualı əllərin Göyçəyə körpü" adlanan şeirində Milli Qəhrəmanımız Şövqi Abdullayevin ruhuna və onun doğmalarına hörmətlə yanaşı, Qərbi Azərbaycana qayıdış inamı hakimdir. Bu şeirdəki qətilik, yəni daxili əminlik bütün çılpaqlığı ilə, mübaliğəsiz ifadə olunub. Şair vurğulayır ki:

***Gözlərin yol çəkir, bilirəm yenə,***
***O, Vətən daşıdır, yenə də sağdır!***
***Sarıldın sən ona bir bayraq kimi,***
***Sən uşaq saydığın uca bir dağdır.***
***Şəhidlər ölməzdir, şəhidlər sağdır!***

Sabir Abdin poeziyasındakı bu kəsər onun torpağa, yurda sonsuz sevgisindən qaynaqlanır. Ona görə də o, yurdun ağrısını bütünlüklə duya bilir. Və duyduqlarını da sızıltıya yox, kəsərli, qətiyyətli sözə çevirir. Hətta özü etiraf edir ki, qorxulu, ürək ağrıdan, acı, kədərli, qan qaraldan xəbərlərdən, hadisələrdən bezirəm, yoruluram. Ona görə, ruhuma, könlümə doğma olan, məni o yorulduğum məqamdan çıxaracaq bir kəslə həmsöhbət olmaq istəyirəm. Və bu söhbətdə yaş önəmli deyil, önəmli olan anlayışdı. Ona görə də o, nəvəsi Ümrəsultanla da söhbət etməyi özünün həyat kredosunda təsdiqləyir. Və deyir ki:

***... Deyəsən çox yordum səni,***
***get, bir az da yat,***
***sonra da gülüşünlə***
***dünyanı oyat!***
***Qarışdırma yuxunu,***
***gülüşünlə, təbəssümünlə***
***barışdır insanları,***
***gətir könüllərə baharı.***

Mövzularını həyatın özündən və bir də könlünün incə nöqtələrindən sözə çevirən, yəni hər şeyin gerçək formasını rəngsiz, bəzəksiz, olduğu kimi oxucuya çatdıran Sabir Abdin istər təbiətdən, istər cəmiyyətdən, istərsə də günümüzün indiki anından şeir araya-ərsəyə gətirəndə şəxsən mən onunla söhbət etdiyimi hiss edirəm.

Lap açığını desəm, o şeirlər mənə Sabirin səsində Sabirin söhbəti kimi şirin və doğma gəlir. Bax bu mənada az-çox sözdən xəbəri olan adam kimi birmənalı olaraq çıxartdığım nəticə budur ki, Sabir Abdin pıçıltını sevmir. O, musiqi hopmuş misralarında da, digər poeziya nümunələrində də, hətta ara-sıra könül verdiyi publisist yazılarında da bir kişi kəsəri ilə, hökmü ilə, hamının eşidə biləcəyi səslə fikrini bəyan edir. Düşünürəm ki, onun özəl oxucuları seçimlərində yanılmayıblar. Və həm də düşünürəm ki, Yardımlı şəlaləsinə üz tutub pıçıltı ilə:

***Sən nur işıq payısan,***
***Dağların harayısan,***
***Günəşisən, Ayısan,***
***Ala gözlü Şəlaləm.***

***Şirin layla kimisən,***
***Gah eşq, nalə kimisən,***
***Məcnun, Leyla kimisən,***
***Şirin sözlü Şəlaləm.***

- demək şəlaləni heç cür ifadə etməz. Şəlalənin səsinin içindən şairin səsi keçib daha da uzaqlara getməlidir. Məhz Sabir Abdin də həmin o səslə şəlaləni vəsf edir.

**... Yardımlının Bürzünbül kəndindən və bir də Qarabağın Tuğ kəndindən üzü Bakıya uzanan yollar Bakıda bir-biriylə görüşüb paralelləşdi, çiyin-çiyinə dayandı. Bu gün də çiyin-çiyinədirlər. Ona görə də kitaba yazdığı avtoqrafda Sabir Abdin vurğulayır: "Gənclik illərindən yol gəldiyim qələm dostum, əziz qardaşım Əbülfətə...". Yolumuz uğurlu olsun, qardaş! Yeni kitabın mübarək!**

**Əbülfət MƏDƏTOĞLU**

# "BAYATI-ARAZ" AZƏRBAYCAN HƏRB ƏDƏBİYYATI TARİXİNDƏ HADİSƏDİR

**Bəşəriyyətin əzəli,əbədi mövzularından biri də müharibə mövzusudur. Gücüm yetdiyi qədər oxuduğum sənədli, bədii -sənədli əsərləri xatırlayıram. Bu əsərlərin bir qisminin ən yüksək mükafata layiq olmasına əmin olsam da nədənsə hələ də kifayət qədər nə təbliğ olunur , nə də ssenariləşdirilərək filmlər çəkilir.O siyahıya bu gün həyacanla,göz yaşlarıyla(həm də sevinc göz yaşlarıyla) oxuduğum Etibar Muradxanlının "BAYATI -ARAZ" sənədli romanını əlavə etdim.**

Ordan başlayım ki,əsərin torpaqlarımızın işğal olunduğu zamanı xatırlatmaqla başlanması hər şeydən öncə yazıçının insanlara və gələcək nəsillərə bir çağırışı kimi səslənir. Kiçik Nicatın 28 il sonra artıq yetkin bir döyüşçü kimi göstərilməsi həm də Azərbaycan xalqının ayağa qalxaraq torpaqlarını düşmən tapdağından xilas edəcəyinin simvoludur. Biz ,o qanlı-qadalı illəri unutmamışıq və əmin idik ki,səbrsizliklə gözlədiyimiz o gün gələcək,mütləq gələcək.Çoxumuz o mübarək tarixin dəqiq vaxtını bilməsək də, o günün 27 sentyabr 2020 -ci il olduğunun hamılıqla şahidi olduq.Etibar Muradxanlının hər sətirini yaşayaraq qələmə aldığı bu əsər vətən müharibəsində Dövlət Sərhəd Xidmətinin (DSX) 44 gün ərzində keçdiyi məsuliyyətli ,məsuliyyətli olduğu qədər çətin və çətin olduğu qədər şərəfli döyüş yolu nəinki Azərbaycan hərb tarixinə,dünya hərb tarixinə göstərilə biləcək usta,peşəkar dərs təsiri bağışlayır. Əsərin əvvəlindən sonuna qədər addım-addım irəliləyən döyüşçülərin illərlə keçdiyi hərbi təlimlərin nə qədər yüksək səviyyədə olduğu içimizi fərəhləndirirsə, generalından ,sıravi döyüşçüyə qədər hər birinin iç dünyasının nə qədər zəngin olduğunun,hər zaman başlarına gələ biləcək ən çətin vəziyyətə psixoloji cəhətdən hazır olduqları səhnələrini oxuduqca içində qürur hissi yaşayırsan.Əsər əlli başlıqlı olub,Qarabağın müxtəlif ərazilərində baş verən döyüş səhnələrini canlandırmaqla yanaşı hərbiçilərimizin bir-birileriylə səmimi,kövrək söhbətlərinin də şahidi oluruq.




Hər biri sanki sözləşərək "Əgər şəhid olsam arxamca ağlamayın,bu vətəni sahibinə qaytarmaq hər birimizin müqəddəs borcudur." deyib şəhadət şərbətini "Allahu Əkbər" kəlməsinə qataraq əbədiyyətə qovuşduqları səhnələr bizim də ruhumuza əbədi hopduğunu hiss edirik.

Əsərdə erməni əsirlərinə göstərilən humanist davranış içimizdə qıcıq yaradır və bunun çox təbii səbəbləri var. Ermənilər 1- ci Qarabağ müharibəsində əsir götürülmüş azərbaycanlı hərbi və mülkki şəxslərə qarşı qəddar rəftarları ilə seçiliblər və bunu təsdiq edən saysız-hesabsız faktlar var. Bu baxımdan Ermənistanın azərbaycanlı əsirlərlə davranışı ilə Azərbaycanın erməni əsirlərlə davranışları heç bir şəkildə müqayisə edilə bilməz.Erməni vandallarının öz dilləriylə qəhrəmanlıqlarına verdikləri qiyməti müəllif əsərin elə ilk səhifələrində çox mükəmməl qələmə alıb. Britaniyalı jurnalist Tomas de Vaal Ermənistanın keçmiş prezidenti Serj Sarkisyandan soruşanda ki,"Xocalı soyqırımı haqqında nə düşünürsünüz?",o," Xocalıya qədər Azərbaycan tərəfi elə bilirdi ki,bizimlə zarafat edəmək olar.Onlar elə düşünürdülər ki,ermənilər mülki əhaliyə qarşı əl qaldıracaq insanlar deyil.Biz bu anlayışa son qoyduq." -deyə cavab vermişdi.Amma biz o zamana qədər də ermənilərin belə bir vəhşilik törədəcəklərinə inanırdıq.

**(ardı 12-ci səhifədə)**



Əntiqə Rəşid

# Gecikmiş yazı

Gec xəbər tutdum... Yəqin, ya işin çoxluğundandır, ya da, yaş artıq özünü göstərir. Xətrini istədiyim insanların doğum günü əvvəlki kimi yaddaşımda qalmır. Nəisə ki, peşəkar jurnalistikayla məşğul olandan qiyabi tanıdığım, sonralar isə 9 il iş yoldaşı olduğum Əməkdar jurnalist, "Ədalət" qəzetinin şöbə müdiri Faiq Qismətoğlunun (Hüseynov Faiq Qismət oğlu) doğum gününü unutmuşam. Bir də onda duyuq düşdüm ki, Azərbaycan Mətbuat Şurasında Faiq müəllimin 70 illik yubileyinə həsr olunmuş toplantı keçirilib.

Sən demə, ad günündən bir gün əvvəl - 30 iyunda yaxın dostları yığıb - komalanıb F.Qismətoğlunun başına, bu özəl gündə onu tək qoymayıblar. Tanınmış yazarın adını tutub Mətbuat Şurasına gələnlər içərisində yazıçı-publisist Vaqif Bəhmənli, veteran jurnalist, müstəqillik dövrü Azərbaycan mətbuatında öz dəst-xətti ilə tanınan "7 gün" qəzetinin baş redaktoru olmuş Emin Eminbəyli, politoloq və jurnalist Elşad Həsənov, Müstəqil Araşdırmaçı Jurnalistlər Liqasının sədri Qafar Çaxmaqlı, Əməkdar jurnalist, Mətbuat Şurasının Ahıl Jurnalistlər Məclisinin sədr müavini Əminə Yusifqızı, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu, jurnalist-publisist İqbal Əlisoy, jurnalistlər Zaur Vəliyev, Asif Talıboğlu və başqaları olub. Elə saytlardan oxudum ki, MŞ sədri Rəşad Məcid hər bir yazar üçün qiyməti olan SÖZ-lə yubiliyara layiq olduğu qiyməti verib. Deyib ki, F.Qismətoğlu jurnalistikaya sədaqətli xidmətin nümunəsidir. Bunu ora yığışan qələm adamları da etiraf edib. Vurğulayıblar ki, Faiq müəllimin mövzuları hər zaman həyatdan götürülüb, oxuculara son dərəcə səlis və oxunaqlı şəkildə çatdırılıb. Bunun nəticəsində F.Qismətoğlu cəmiyyətdə yetkin qələm sahibi kimi tanınaraq populyarlaşıb. Çıxış edənlər də F.Qismətoğlunun son dərəcə incə publisistik duyuma malik olmasından söz açıb, bu cəhətin onun çoxsaylı yaradıcılıq nümunələrində özünü göstərdiyini deyiblər. Onlar həm də yubilyarın səmimi və qayğıkeş həmkar, əsl dost kimi səciyyələndirən cəhətlərinə diqqət çəkərək onu səmimi qəlbdən təbrik ediblər.

Hələ BDU Milli mətbuat tarixi kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Cahangir Məmmədlinin "Faiq Qismətoğlu yazır..." məqaləsini oxuyanda ürəyim dağa döndü!

Çox sevindim ki, dostlarının, mediamızın tanınmış simalarının Faiq müəllimin peşəkarlığı haqqında qısa və lakonik danışması dadıma çatıb. Bəli, yalan olmasın, yaşım qədər stajı, peşəkarlığı, başımın tükü qədər məqalələri olan həmkarımı analiz etməyə, oxucuya bu haqda danışmağa yer qoymayıblar! Çünki onların sözü SÖZdür!

Burada onların çıxışından sonra mənim Faiq müəllimin yaradıcılığı ilə bağlı nəsə yazmam doğru olmaz!

Böyüklərimiz danışırsa, bizə susmaq düşər! Amma bir insan olaraq Faiq müəllimin insanlığına "Ədalət" qəzetində işlədiyim 9 il ərzində ( 2007-2010 və 2019-2025) bələd oldum və bu haqda danışmasam olmaz!

Faiq müəllim, sadə, mehriban bir az da saf adamdır. Niyə "bir az" dedim, 70 il yol gələn yaxşı insanlar həyatı boyu hər sifətdə, hər xarakterdə, yaxud da ən murdar xasiyyətdə adamlarla qarşılaşanda bir dərs götürür, bir ibrət alır və götürdüyü dərs, aldığı ibrət onun içindəki saflığa, təmizliyə öz təsirini göstərir. Məsələn, insan bilində ki, inandığı, dost dediyi, saydığı filankəs əslində onun qarşısında ən böyük manelərdən biri imiş, əslində ayağının altında "quyu" qazmaqla məşğul imiş və içdəki saflıq az-az, hissə-hissə azalır, yerini özünümüdafiə instinktinə verir. İndi görün, Faiq Qismətoğlunun uşaq kimi saf təbiətinə bu 70 ildə necə zərbələr dəyib və buna baxmayaraq o saflıq hələ də öz məkanını tərk etməyib. Bəli, belə çətin bir zəmanədə, saf, ruhu pisliklərdən uzaq, rəhmli, mehriban insanlar qalmaqdadır, var! Və Faiq Qismətoğlu məhz belə bir insandır! 9 il ərzində mən onda zərrə qədər pislik, mərdimazarlıq, paxıllıq kimi bir xaraktere rastlamadım.

Hə, yadıma düşmüşkən deyim. Deməli, "Ədalət" qəzetində (əlavə olaraq) korrektor işlədiyim vaxtlar idi. Faiq müəllim bir səhifəlik çox vacib bir material hazırlamışdı. Redaksiya onun yazısının başa çatmasını gözləyirdi ki, yazı qəzetə getsin, çap prosesi başa çatsın, hamı evinə dağılışsın. Adətən, məqalələr kağız səhifəyə çıxarılırdı, mən də hərf səhvlərini elə axtarıb tapırdım, korrektə edirdim. Faiq müəllim necə tələsirdisə, dedi, yox ee Əntiqə, gəl, məqaləni elə kompüterdən oxu, redaktə elə! Day mənim nə həddimə, Faiq müəllim kimi bir jurnalistə etiraz edim... Hə, keçdim kompüterin arxasına, başladım yazını oxumağa... Yarısına qədər çatmışdım və "ox"u vuraraq məqaləni aşağıya "dartırdım ki.... Elə o anda yazı ekrandan yoxa çıxdı. Bayaqkı yazılı səhifə ağappaq oldu, mən də o səhifədən beşbetər ağardım. Ölmüşdüm yerdən götürən də yox idi. Üz ifadəmi, mimikamı elə ilk duyan da Faiq müəllim oldu. Nə soruşdu, yadımda deyil, çünki eşitmirəm, ölmüşəm axı...

Keçdi kompüterin arxasına səhifəni ağappaq göründə Faiq müəllimin gözləri elə geniş açıldı, elə böyüdü ki, səhifənin və mənim rəngimi aldı. Yadımdadı ki, qəflətən elə bil redaksiyda göy guruldadı, şimşək çaxdı. O da yadımdaydı ki, ya Babək müəllim, ya da rəhmətlik Oqtay müəllim, dedi ki, Faiq səs eləmə, "uşaq ayaqüstə ölüb". Faiq müəllim, keçdi kompüterin arxasına və yazını yenidən yazmağa başladı. Təsəvvür edin, çapa hazırlaşan işçilərin narazı baxışlarını... Düzgüncə qanqaraçılıq... Hamımız oturub Faiq müəllimin yazısının bitməyini gözləyirik. Xeyli gözlədikdən sonra Faiq müəllim nə yazdı bilmirəm, amma məqaləni başa çatdırdığını elan elədi. Bəlkə də gecə saat 9-dur, 10-dur... Kimsə dedi ki, Əntiqə, gəl kompüterdən yazını oxu! Faiq müəllim az qala havalandı: "Yoooxxx, vərəqə çıxardın, ordan oxusun..."



Sabahı günü redaksiyaya yenə günortadan sonra gəldim. 6-cı mərtəbənin pilləkənlərin çıxıb sola burulanda baxdım ki, Faiq müəllim dəhlizdə "vargəl" edir. Bu dəfə ağarmaq əvəzinə qıpqırmızı oldum. Dünən "bir mövzunu 2-ci dəfə işləmək "əzabını" bu sakit, saf, mehriban insana verdiyimə görə utandım. Yanından astaca "salam" deyib ötmək istəyirdim. Elə mehribanlıqla, doğmalıqla üzümə gülümsədi ki, sanki uzun illər görmədiyi bir əzizini elə indicə gördü: "Qızım, dünən deyəsən bərk xətrinə dəydim? Eləmi?"

Gözümü yerə dikdim və ürəyimdə dedim: "Evini Allah tiksin, dünən ölmüşdüm, yerdən götürənim yox idi, meyitim qalmışdı ortada"...

"Qızım, sən Allah dünənki hayıma-küyümə görə məni bağışla! Sənə qarşı haqsızlıq etdim! Vallah özümdən asılı olmadı ee... Bilirsən də, məqalə övlad kimidir, dünən sən mənim "övlad"ımı harasa itirdin (gülür). Amma tapdım... bala, bağışla..."

Səs zəif və titrək idi, xüsusən, "peşmaçılıqdan bu gecəni yata da bilməmişəm" deyəndə.

Faiq müəllim, narahat olmayın, olan işdir, günah məndəydi ki, bilmədiyim işi boynuma götürdüm, gərək kompüterin qarşısına keçməyəydim".

Beləcə, dostlaşdıq. Bir birimizin, Faiq müəllim demiş, "əmi-bala" kimi xətrini əziz tutduq.

Sonra "Ədalət"ə müxbir kimi gələndə (2019) sevinənlərdən oldu. Orada işlədiyim 6 ildə bir dəfə də olsun xətrimə dəymədi, acılamadı, həmişə məni mehriban dindirdi, danışdırdı. Əmin idim ki, ən çox ürək qızdırdığı adamlardanam. Bəli, Faiq Qismətoğlunun fəaliyyətini, peşəkarlığını dövlətimiz qiymətləndirib, sayılıb-seçilən Əməkdar jurnalistlərdəndir. Amma Faiq müəllimin insani xarakterlərini, mehribanlığını, saflığını, dürüstlüyünü və ləyaqətini ancaq elə onun özü kimi insanlar anlayar. Hə, Faiq müəllim, hamımız doğumdan ölümə qədər yol gedirik, bu yolda büdrəyənlər, zibilə-çamura yıxılanlar, insanlığını, vicdanını, ləyaqətini itirənlər, mərdimazarlığı, paxıllığı, "quyu" qazmağı, "işverən"liyi özünə şakər edənlər oldu!

70 ildir alnıaçıq, üzüağ yol gedən Faiq Qismətoğlu, keçdiyiniz şərəfli yolunuz mübarək olsun!

# FAİQ QİSMƏTOĞLUNUN YUBİLEYİ AŞIQLAR BİRLİYİNDƏ QEYD OLUNUB

**2026-cı il iyulun 8-də Azərbaycan Aşıqlar Birliyində "Ədalət" qəzetinin əməkdaşı, Əməkdar jurnalist Faiq Qismətoğlunun anadan olmasının 70 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.**



Giriş sözü ilə tədbiri açan AAB-nin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı Faiq Qismətoğlunun keçdiyi ömür yolundan və yaradıcılığından söz açıb, yubilyarı 50 il bundan əvvəldən - hələ tələbəlik illərindən tanıdığını, elə o zamandan da aralarında səmimi və doğma münasibət yarandığını vurğulayıb, onu yüksək insani keyfiyyətləri ilə fərqlənən bir qələm adamı, işıqlı ziyalı kimi dəyərləndirib.



Aşıqlar Birliyinin katibi və eyni zamanda "Ozan Dünyası" Aşıq Yaradıcılığının Təbliği ictimai birliyinin sədri, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu 70 illik ömrünün əlli ildən çoxunu Azərbaycan mətbuatının inkişafına həsr edən yubilyarın bir jurnalist kimi peşəkarlığını və jurnalist etikasına böyük önəm verməsini, aralarındakı dostluq münasibətlərini xüsusi ilə vurğulayaraq onu bu günkü mətbuatımızın abırı kimi dəyərləndirib.

AAB-nin sədr müavini, filologiya üzrə fəlsəfə doktoru Altay Məmmədli də yubilyarı təbrik edərək ünvanına xoş sözlər söyləyib.

Çıxışlarda həmçinin o da vurğulanıb ki, Faiq Qismətoğlunun aşıq sənətinin təbliği istiqamətində də böyük xidmətləri var. Həm Azərbaycan Aşıqlar Birliyi, həm də "Ozan Dünyası" Aşıq Yaradıcılığının Təbliği ictimai birliyi ilə davamlı əməkdaşlıq edərək hər iki təşkilatın həyata keçirdiyi tədbirləri respublika mətbuatında işıqlandırılmasında yaxından iştirak edir.

Sonda AAB-nin sədri Məhərrəm Qasımlı Azərbaycan Aşıqlar Birliyinin fəxri üzvlüyünə qəbul olunması münasibəti ilə Faiq Qismətoğlunu təbrik edərək üzvlük biletini təqdim edib.

Yubilyar həmçinin həm Azərbaycan Aşıqlar Birliyi, həm də "Ozan Dünyası" Aşıq Yaradıcılığının Təbliği ictimai birliyinin "Fəxri diplom"ları ilə təltif olunub.

**Faiq Qismətoğlu ünvanına deyilən xoş sözlərə və "Fəxri diplom"lara layiq görüldüyünə görə hər iki təşkilatın rəhbərliyinə minnətdarlığını bildirib.**

## *Antibiotiksiz müalicə üsulu tapıldı*

**Beynəlxalq alimlər qrupu antibiotiklərə davamlı bakteriyalarla mübarizədə mühüm irəliləyiş əldə edib. Araşdırma bakteriyaların qoruyucu biofilmlərini parçalaya bilən yeni mexanizmi üzə çıxarıb ki, bu da gələcəkdə antibiotiklərə ehtiyac olmadan infeksiyaların müalicəsi üçün yeni imkanlar yarada bilər.**



Adalet.az xəbər verir ki, Kaliforniya Universitetinin San-Dieqo kampusunun rəhbərlik etdiyi və Pompeu Fabra Universiteti tədqiqatçılarının da iştirak etdiyi araşdırmanın nəticələri "Nature Microbiology" jurnalında dərc olunub.

Alimlər müəyyən ediblər ki, bəzi bakteriyalar suyu özünə çəkən hidrogelə bənzər maddə istehsal edir. Bu maddə biofilmin daxilində təzyiq yaradaraq, bakteriyaların qoruyucu təbəqədən ayrılmasına səbəb olur.

Biofilmlər bakteriyaların özlərinin yaratdığı yapışqan qoruyucu qatdır. Bu təbəqə mikroorqanizmləri həm antibiotiklərdən, həm də immun sisteminin təsirindən qoruyur. Məhz buna görə protezlər, kateterlər və sağalmayan yaralarla əlaqəli bir çox xroniki infeksiya biofilmlərlə bağlı olur.

Araşdırma göstərib ki, biofilmin parçalanma mərhələsində bakteriyalar hidrogel istehsal edərək, kifayət qədər təzyiq yaradır və bunun nəticəsində bəzi hüceyrələr biofilmdən ayrılaraq yeni sahələrə yayıla bilir.

Tədqiqatçılar bu mexanizmi laboratoriya şəraitində süni şəkildə gücləndirməyə də nail olublar. Nəticədə biofilmlər antibiotiklərdən istifadə edilmədən parçalanıb.

Alimlər bildirirlər ki, araşdırma hələlik yalnız laboratoriya sınaqları ilə məhdudlaşır. Yeni mexanizmin klinik müalicə üsuluna çevrilməsi üçün əlavə tədqiqatlar və uzunmüddətli sınaqlar tələb olunur.



Lütviyyə Əsgərzadə
Filologiya elmləri doktoru

# Daş səmimiyyəti ilə yazılmış şeirlər

(əvvəli ötən sayımızda)

**Şair üçün ən böyük motivasiya ümiddir. ”Bilsəm ki, yaşayırsan”, - ifadəsi mənəvi açar rolunu oynayır. Şair sevginin hələ də diri olduğuna əmin olsa, onun üçün heç bir maneə qalmır. ”Bilsəm” kəlməsi burada bütün imkansızlığı imkana çevirir. ”Dağları əzmək”, ”Dənizləri gəzmək” onun üçün mümkünsüz deyil. Əgər dağları əzmək gücdürsə, dənizləri gəzmək səbir və axtarışdır. Dalğa-dalğa gəzmək o deməkdir ki, şair sevginin hər bir titrəyişini, hər bir dərinliyini yorulmadan axtarmağa hazırdır. ”Pəhləvan dağları yumruğumla əzərəm”, - ifadəsində ruhun fiziki maddiyyat üzərindəki qələbəsi ifadə olunur. İnsan sevgisi üçün təbiətin ən uca və sarsılmaz simvolu olan dağları belə yox etməyə hazırdır. Artıq şeirin əvvəlindəki o ”utancaq məhəbbət” dağları sarsıntıdan bir qüdrətə çevrilib. Əslində, daxilində ən böyük fırtınaları daşıyan ən sakit və səssiz sevgilərdir. Burada şairin utancaqlığı qorxaqlıq deyil, o böyük gücün hələ ki ”sükutda” olmasıdır. Şeirin o kədərli və sual dolu sonluğuna boylanaq:**

***Ay yanağı qırmızı,***
***Utancaq məhəbbətim!***
***Bilsəydim ki, güllərin***
***Qoxusunda gəzirsən,***
***Əlimdə günəş boyda***
***Gül dəstəsi tutardım.***
***Bilsəydim insanların***
***Yuxusunda gəzirsən,***
***Bütün bəşəriyyətin***
***Əvəzinə yatardım...***

Seyran Səxavət bu finalda məhəbbəti real dünyadan çıxarıb metafizik və bəşəri bir zirvəyə qaldırır. Bu misralar artıq fədakarlığın deyil, bir növ özünün yox etmə meqamının təsviridir. Bu sarsıdıcı sonluğu fərdi rakursdan təhlil edək: ”Günəş boyda gül dəstəsi” ümidin miqyasını göstərir. Şair sevgisini təbiətin ən zərif detallarında - güllərin qoxusunda axtarır. Amma onun təqdim etdiyi ”gül dəstəsi” günəş boydadır. Bu, müəllifin hisslərinin nə qədər işıqlı və nəhəng olduğunu göstərir. O, kiçik bir çiçəklə yox, bütün kainatın istisi və nuru ilə, günəşlə sevgisinə qovuşmaq istəyir. Bu, o utancaq məhəbbətin kainata sığmayan daxili ehtişamıdır. Şeirin ən pik nöqtəsi buradadır: ”Bilsəydim insanların / Yuxusunda gəzirsən, / Bütün bəşəriyyətin / Əvəzinə yatardım...” Şairin ”bəşəriyyətin əvəzinə yatmaq” istəyi onun böyük fədakarlığıdır. Digər tərəfdən, yuxular sevgililərin yeganə maniəsiz görüş yeridir. Əgər sevgi yuxulara köçübsə, müəllif onu orada tutmaq üçün hər şeyindən keçməyə hazırdır. ”Bütün bəşəriyyətin əvəzinə yatmaq” - bu, inanılmaz bir poetik tapıntıdır. Şair sanki deyir: sən tək bir yuxuda deyil, bütün insanların yuxusundasan. Və mən səni tapmaq, səni görmək üçün bütün dünyanın yükünü (yuxusunu) öz üzərimə götürüb, əbədi bir yuxuya dalmağa hazıram. Bu da, sevgini tapmaq naminə dünyadan və özündən imtina etməkdir.

Beləliklə, şeir başladığı kimi ”utancaq məhəbbətim” müraciəti ilə bitsə də, artıq utancaqlıq bir hüzura, mütləq bir sükuta (yuxuya) çevrilib. Bu sevgi o qədər uca və zərifdir ki, o, bəlkə də ancaq yuxuların və ətirlərin içində yaşaya bilər. Sevgi insanı həm ən zəif, görən, amma baxa bilməyən, həm də ən güclü, dağları əzən varlığa çevirə bilər. Bu insanın mənəvi bütövlüyünün göstəricisidir

Seyran Səxavət bu şeiri ilə sübut edir ki, əsl məhəbbət insanı fərdilikdən çıxarıb kainatla birləşdirir. Günəş boyda gül tutmaq və bəşəriyyət əvəzinə yatmaq arzusu ruhun maddiyyat üzərindəki tam qələbəsidir.

Sevgini ”müvəqqəti həvəs” kimi deyil, ”ömürlük tale” (qaya kimi sabit) kimi görən ”Seyran Səxavətin məhəbbət şeirləri sadəcə duyğu axını deyil, uca bir qayanın köksündən süzülüb gələn büllur bulaq kimidir. O, sevgini zəiflik və ya acizlik kimi deyil, bir qaya duruşu qədər dik və məğrur yaşayır. Onun lirikasında aşiq obrazı əyilməzdir; o, sevdiyinin qarşısında belə öz insanlıq vüqarını, daşdan yonulmuş iradəsini qoruyub saxlayır.



Bu sevgi sanki sərt qayaların arasında bitən zərif bir gülə bənzəyir. Bu təzad - qayanın əyilməzliyi ilə məhəbbətin həlimliyinin vəhdəti - onun yaradıcılığını bənzərsiz edir. Seyran Səxavət üçün sevgi fəsillərin keçici rüzgarı deyil, əsrlərin sınağından keçən qədim petroqliflər kimi ruhun dərinliyinə həkk olunmuş sarsılmaz bir yazı, bir qədərdir. Onun məhəbbət şeirlərindəki səmimiyyət, qaya qədər gerçək, onun qədər sarsılmazdır. Oxucu bu misralarda həm dərin bir şəfqəti, həm də heç bir fırtınanın yerindən oynada bilməyəcəyi bir sədaqəti görür.”

Qaya fəsillərin dəyişməsinə, yayın qızmarına və qışın şaxtasına eyni mətanətlə necə dözürsə, Seyran Səxavətin sevgisi və vəfası da zamanın sınaqları qarşısında eləcə sarsılmaz və əzəmətlidir. Bu həm də bir xarakter məsələsidir. O, sevgiyə bir qaya bütövlüyü ilə yanaşır: bu məhəbbətdə tərəddüdə, aşınmaya və ya zamana görə rəng dəyişməyə yer yoxdur. Seyran Səxavət üçün vəfa - ruhun əzəli coğrafiyasına, öz kökünə və sevdiyinə bir qaya kimi bağlanmaqdır. Bu sədaqət elə bir ucalıqdadır ki, oraya hər külək çata bilməz, hər yağış o bütövlüyü poza bilməz.

Seyran Səxavət poeziyasında Azərbaycan cəmiyyətini narahat edən gerçəkliklərdən doğan problemləri də özündə əks etdirir. Yazdıqlarının hamısını ”dünyanın mən baxan tərəfdən görünən hissəsidir”- adlandıran Seyran Səxavət həyata baxışı, ”dik” duruşu, fikirlərinin orijinallığı, sözə sədaqəti və toxunduğu problemlərin aktuallığı ilə diqqəti çəkir. Şairin ”Müdrik” şeirinə nəzər salaq:

***Mənə deyirlər ki,***
***Həmişə dik-dik danışırsan-***
***dik adamsan.***
***Mənə deyirər ki,***
***Müdrik adamsan.***
***Şəhərdən baş götürüb***
***Kəndə qaçdım-***
***Dedilər müdrik adamsan.***
***Hamı qaçırdı***
***Mən də qaçdım-***
***Dedilər müdrik adamsan.***
***Cığır açmıram,***
***Yol çəkmirəm,***
***Deyirlər müdrik adamsan.***
***İyirmi ildi***
***Maaş cədvəlinə***
***Qol çəkmirəm -***
***Deyirlər müdrik adamsan.***

Seyran Səxavət ”Müdrik” şeiri ilə cəmiyyətdəki saxta dəyərlərə, ”müdriklik” maskası altında gizlənən kütləvi düşüncəsizliyə və insanın öz həqiqəti ilə mühitin ona qoyduğu ad arasındakı uçuruma bir güzgü tutur. Şairin bu yanaşması cəmiyyətimizdəki bir başqa problemi, kimliyindən asılı olmadan hər kəsə ”müəllim” sözü ilə müraciət olunmasını yadımıza salır. Əslində, müəllim hansı ixtisas sahibi olmasından asılı olmayaraq, hamıdan başdır. Çünki müəllimin əməyi insanın formalaşmasında, hər hansı bir istiqamətə yönlənməsində, təhsilində, tərbiyəsində danılmazdır. Buna baxmayaraq bəzən bu kəlmə o qədər ucuzlaşdırılır ki, lap Seyran Səxavətin ”müdrik adamsan” kəlamı kimi

Seyran Səxavət müdrik insandır. Amma bu söz yerli-yersiz hər kəsə deyiləndə, söz öz dəyərini itirir, gəlişigözəl sözə çevrilir. Nədənsə, hər kəsi adı və layiq olduğu sözlərlə anmaq istəmirik. Müəllimə müəllim, müdrikə müdrik demək bir ərdəmdir. Amma bu hər zaman belə olmur. Bu baxımdan ”Müdrik” şeirindəki ironiyaya toxunmadan keçmək olmaz. Şair heyrətdədir. Bu dəfə fərqinə varmadan ”müdrik adamsan” sözünü səxavətlə paylayanlar üçün bilərəkdən sözləri sanki tərsindən oxuyur:

***Dərəyə dağ deyirəm,***
***Deyirlər müdrik adamsan.***
***Qatığa ağ deyirəm,***
***Deyirlər müdrik adamsan.***
***Allahımı danmıram,***
***Deyirlər müdrik adamsan***
***Bəzən heç nə qanmıram,***
***Deyirlər müdrik adamsan.***
***Qışda palto geyirəm,***
***Bıçağa balta deyirəm,***
***Boyunduruğa xalta deyirəm,***
***Nə deyirəmsə***
***Alt-alta deyirəm,***
***Deyirlər müdrik adamsan.***

Yeri gəldi gəlmədi, layiq oldu, olmadı bu kəlmənin işlədilməsində, bu qədər ucuzlaşdırılmasında kimdir günahkar? Təbii ki, bu sözü mənfəət xatirinə işlədənlər, hər kəsin önündə küçülənlər, sözün dəyərini bilməyib ucuz satanlar.

Şair ona ”müdrik adamsan” deyənlərin çəkisini ölçüb-biçmək üçün ”baltaya bıçaq” desə də, heç nə dəyişmir. Şairin heyrətlənməsi boşuna deyil. Ən işlək yük heyvanı olan ”eşşəyə” tənbəl demək belə bu sözü işlədənləri ayıltmır.

***Eşşəyə tənbəl deyirəm,***
***Hər şeyi tən böl deyirəm,***
***Hər şeyi genbol deyirəm,***
***Deyirlər müdrik adamsan.***
***Heç vaxt ağac əkmə dedim,***
***Boş papağa çəkmə dedim,***
***Qarşımda diz çökmə dedim,***
***Tay zəhləmi tökmə dedim,***
***Dedilər müdrik adamsan.***

Şair şeir boyu ən adi, bəzən isə tamamilə mənasız və ya səhv hərəkətlərini, öz təbirincə desək ”dəlilik”lərini sadalayır: qaçmaq, yerli-yersiz hər yetənə daş atmaq”, ”baş aparmaq”, ”ağac əkmə” və s.

***Hər yetənə daş atırdım,***
***Çox yerlərdə baş apardım,***
***Ev tikməyə daş apardım,***
***Dedilər müdrik adamsan.***
***Zaman uzun, uzundraz***
***Ömür törə.***
***Biz gəlmişik baxa-baxa,***
***Görə-görə,***
***Anlayırdım, qanırdım ki,***
***Müdriklik bir təşnədi.***
***Əgər müdriklik budursa-***
***Müdriklik heç nədi***

Şairin qarşısındakıların dəyərini ölçməkdən ötrü bilərəkdən etdiyi səhv hərəkətlər belə ona bu sözü ünvanlayanları ayıltmır. Onun cəmiyyətdən gözlədiyi başqa şeydir. Dəlilik etdiyi halda, hər dəfə xarab vallar kimi eyni sözü eşitməsi onu, qıcıqlandırır, bezdirir. Şair elə müqəddəs şeylərə toxunur ki, bu nəinki bir müdrikə, hətta normal bir insana yaraşan hərəkət sayılmır. Məsələn, ”ustadına kəm baxmaq”, ”haram yemək, mənasız danışmaq, ”ağac əkmə”, - demək və s. Bir dəfə də ”müdrik adamsan” əvəzinə, sən yanlışsan, sən səhvsən, sözlərini eşitmək üçün desə də, yenə heç nə dəyişmir. Cəmiyyətin bu günahları belə ”müdriklik” kimi qələmə verməsi sənətkarı heyrətləndirir. Bir şəxsiyyət olaraq, cəmiyyətə etiraz edir: ”Əgər müdriklik budursa- / Müdriklik heç nədi ”

Seyran Səxavət ”sübut edir ki, əgər müdriklik sadəcə kütlənin hər şeyə ”hə” deməsi, hər saxtalığı alqışlamasıdırsa, o zaman bu anlayışın heç bir dəyəri yoxdur. Müdriklik əslində, duymaq və həqiqəti anlamaqdır, hər kəsin dediyi ilə razılaşmaq deyil. Seyran Səxavətin ”Müdrik” şeirindəki o ironiya da məhz bu ”sürtülmüş üzlərə” qarşıdır. Müəllif, saxtakarlığa, yaltaqlığa qarşı etiraz edir. İdeal insan yoxdur, o da, insani səhvləri və səmimiyyəti ilə görünmək istəyir. Hamı bir-birinə bənzəyəndə, hamı eyni cür ”hamar” və ”müdrik” görünəndə, şairin qəsdən bıçağa balta deməsi hər kəsin bu hamarlığı pozması üçün öz kobud və səmimi həqiqətini ortaya qoyması üçündür. Və bütün bunlar, Seyran Səxavətin bu qədər sərt və acı bir dillə özünü və mühiti tənqid etməsi, onun həqiqi müdriklik axtarışından və öz müdrikliyindən doğur.

Məsələyə Seyran Səxavətsayağı yanaşsaq, cəmiyyətimizdə ”müdrik adamsan” etiketindən layiq olmadığı halda həzz alanlar, özünü müdrik sananlar da yox deyil. Şairin ”müdrik adamsan”, - etiketinə qarşı etirazı elə onun müdrik adam olmasından irəli gəlir. Deyilən sözün məsuliyyətini və mənasını anlamayan insanlar bəzən ucuz mallara marka etiketi vurub satan ticarətçilər kimidir.

Sıradan birinə də ”müdrik adamsan” demək ucuz mala marka etiketi vurmaqdır. ”Müdrik adamsan” sözü də yerində işlədilməyəndə yamaq kimi görünür. Müdrikə ”müdrik adamsan”, - deməyə lüzum yoxdur, çünki müdrik adam söhbətindən, sözündən, hal və hərəkətindən özünü bəlli edir. Mən bu şeiri şairin səsli düşünməsi kimi qəbul etmək istəyirəm, çünki bu cür hallarla həmımız çox tez-tez cəmiyyətdə rastlaşsaq da, heç bir reaksiya vermirik. Bu şeiri həm şəxsiyyət, həm də xarakter olaraq Seyran Səxavətin insanlara özünüzə və sözünüzə hörmət qoyun, - səslənişidir.

Məqalədə, şairin ”sözü bütövlüyü” ilə qayanın ”fiziki bütövlüyü” arasında paralel aparmağa çalışdıq. Şairin vəfa anlayışını zamana qarşı dirənən bir qüvvə, şairin xarakterinin bünövrəsini təşkil edən bir dəyər kimi xarakterizə etdik. Çünki onun məhəbbət şeirlərindəki sədaqət, min illərdir yerindən tərpənməyən uca bir qayanın sabitliyinə bənzəyir. Məqalədə vurğulanan bu qaya vüqarı, əslində şairin həm sənətinə, həm də insani münasibətlərinə olan sadiqliyinin ən parlaq rəmzidir. Onun misraları daş yaddaşına köçürülmüş bir əhdnamə kimidir - ağır, sanballı və əbədi.”

Sonda da Seyran Səxavətin poeziyasında daş kimi sarsılmaz və eyni zamanda insanı daxilən sarsıdan o ”daş səmimiyyəti” ilə yazılmış bu misralara nəzər salaraq bitirmək istəyirik. Bu şeir ”hamar olmayan”, ”sürtülməmiş” həqiqət axtarışımızın poetik cavabıdır:

***”Mən kimsəyə demədim ki, mənə inan,***
***Kimsəyə demədim ki, mənə inanma.***
***Mən bir daş idim,***
***Öz dərdimdən çatladım,***
***Öz daxilimdən partladım.”***

Bu misraları, bəhs etdiyimiz o ”kobud və səmimi daş” fəlsəfəsi ilə təhlil edək. Şair özünü parıltılı bir bəzək daşına yox, daxilindəki ağrıdan çatlayan bir daş parçasına bənzədir. Bu, çay daşına bənzəyən ”sürtülmüş üzlərin” əslə yaşaya bilməyəcəyi bir daxili fırtınadır. Hamar daşlar çatlamaz, onlar sadəcə sürtülüb kiçilərlər. Amma həqiqi, sərt və əzəmətli qaya daşına bənzəyən insan dərdi içinə sığışdıra bilməyəndə daxildən parçalanır. Bu isə o qaya parçasının ”dik” duruşudur: ”Mən kimsəyə demədim mənə inan”. O, kimsənin xoşuna gəlmək, kimsəni inandırmaq üçün ”parıldamır”. O necə varsa, elədir. Bu, çatlasa da, onun öz həqiqətidir.

Deyirlər ki, daşlar hər şeyi ”yadda saxlayır”. İnsanlar da belədir; bəzi insanlar çəkdiyi iztirabları üzündəki qırışlarda, sərt xarakterində, sərt baxışında bir iz kimi daşıyır.

Hamar, parıltılı insanlarda isə bu yaşanmışlıqları görmək çətindir, çünki onların həyatı sadəcə bir vitrindir. Şair, parıltılı ”müdriklikləri” yox, sərt və acı həqiqətləri üstün tutur. Seyran Səxavətin ”dik” duruşunu, sərtliyini əzəmətli qayalarla müqaisə etməkdə məqsədimiz, Azərbaycan nəsrinin, poeziyasının və dramaturgiyasının inkişafında böyük xidmətləri olan və öz dəsti xətti ilə seçilən Seyran Səxavətin şəxsiyyət və xarakter olaraq əyilməzliyini, sarsılmaz prinsiplərini, ”dik” duruşunu qabartmaq idi. ”Hamar daşlar”ın bolluğunda öz kələ-kötürlüyünü, əzəmətini, sərtliyini, xarakterini, şəxsiyyətini bir sözlə, prinsiplərini qorumaq Seyran Səxavətin ən böyük qələbəsidir. Qaya mühitə baş əymir, o, mühiti öz varlığı ilə dəyişir.

**Bu il şair, yazıçı, tərcüməçi və dramaturq Seyran Səxavətin 80 illiyi qeyd olunur. 80 yaşınız mübarək olsun, qaya kimi əzəmətli, sərt, bir o qədər də həqiqət olan, Seyran Səxavət!!!**



*Rafiq ƏLƏKBƏR*

# Sabir Rüstəmxanlı qalası

**(sərbəst esse-poema)**

Müharibədən sonra
Savalanın ətəyindən bir səda qopdu,
Savalanın ətəyindən bir nida qopdu.
Yurdun bu sədaya da, bu nidaya da -
Səda-nida timsallı bu uşağa ehtiyacı vardı.
Çünki Savalanın ruhi enerjisi yurdlarımızı
faşist tapdağının altına düşməyə qoymamışdı.
İndi isə Savalan bu məsum uşağı
yurdumuza ərmağan edirdi.
Savalan yurdun başı üzərində
öz dayanıqlığını qorumalıydı.
Savalan öz qoynundan vətənimizə
Sabir Rüstəmxanlını pərvazlandırmışdı.
Tanrı bu uşağın bəxtinə ən çətin məşəqqətləri yazmışdı,
bununla belə ona bu məşəqqətlərə dözə bilən səbr,
dözüm, bəxt və şans da vermişdi.
O, birbaşa Tanrı tərəfindən qorunurdu.
Səbr onun xoşbəxtliyinin açarı idi.
Sabir Rüstəmxanlı Savalanın vətənimizə salamı idi.
Savalan vətənimizin ruh ziyarətgahıdır...
Lap erkən yaşlarında Savalanın ətəyində - Haçayurdda,
Sarıbulaqda, Şahnişində at üstündə qamətli durur,
atı şahanə çapırdı.
Sonralar atları təyyarələr əvəz etdi.
Atları təyyarələrə dəyişən şair
yenə Haçayurddakı ata minməyə tələsirdi,
çünki buradan Savalanın ruhi enerjisini
dünyaya paylayırdı...
Vətən Savalanın ona bəxş etdiyi hədiyyəni
həmişə uca tutdu.
Vətənin bütün dərdləri Sabir Rüstəmxanlının
qələminə hopmuşdu.
Hələ keçən əsrin 70-ci illərində şair ana dilimizin saflığı,
qorunması uğrunda mübarizə aparan
bir sərkərdəyə bənzəyirdi.
Sabir Rüstəmxanlının şerlərindən, özünün təbirincə
desək, gül yox, od tökülürdü.
Keçən əsrin 80-ci illərinin ortalarında
milli oyanış hərəkatı onun şeirlərinin odunda közərirdi.
Yazdığı "Ömür kitabı" milli oyanış hərəkatının
formalaşmasında əvəzsiz rol oynadı, bu, bir növ
erməni təxribatçı yazarlar Zori Balayan və
Silva Kaputikyana tuşlanmış bir cavab zərbəsi idi...
Nə zaman Vətən çətin vaxtlarında
işıqlı ziyalılarını köməyə çağırdısa,
Sabir Rüstəmxanlı orada göründü.
1988-ci ilin meydan hərəkatında şair
iki milyonluq mitinqlərdə
vətənin təhlükədə olduğunu hayqırır,
milli şüurun dirçəlməsi uğrunda
fədakarlıq nümunəsi göstərirdi.
Bu mitinqlər Qorbaçovun sərsəm düşüncəsinə
bir aydınlıq gətirdi:
Azərbaycan xalqı ilə zarafat etmək olmaz,
əks təqdirdə inqilabın seli onun özünü də,
imperiyasını da yuyub aparacaq;
hansı ki, sonda belə də oldu.
Azərbaycanın milli şüuru, milli hərəkatı
ən üst qatında idi.
Sadəcə, milli şüuru siyasi şüura,
milli hərəkatı siyasi hərəkata çevirməyə zərurət var idi.
Azərbaycanın müstəqilliyinə doğru
ciddi addımlar atmaq lazım idi...



Bu zaman bütün imperiyanı çalxalayan
"Azərbaycan" qəzeti ortaya çıxdı.
Bu qəzeti ərsəyə gətirən
və ona başçılıq edən Sabir Rüstəmxanlı idi.
Cəmiyyətdə xüsusi ictimai-siyasi ovqat yaradan,
kütləni öz ətrafında cəm edə bilən bu qəzet
imperiyanın rəhbəri Qorbaçovu da əndişəyə salmışdı.
İmperiya səhnəsində bu, ilk qəzet idi ki,
cəsarətlə imperiyanın ölkəmizə qarşı apardığı
məkrli siyasətinin fəsadlarını üzə çıxarır,
Azərbaycan xalqını müstəqilliyə
hazırlamaq üçün əməli işlər görürdü.
Burada toplaşan jurnalistlər
cəsarətin, istedadın, fədakarlığın simvolu idilər,
sonralar müstəqil Azərbaycana onlar artıq
kamil bir jurnalist kimi qədəm qoydular.
Azərbaycan müstəqillik qazandıqdan sonra
sanki "Azərbaycan" qəzeti də öz missiyasını tamamladı.
Sabir Rüstəmxanlı bu qəzeti
qanunverici orqana hədiyyə etdi.
Azərbaycan müstəqillik qazandıqdan sonra
onun başı üzərində həmişə qara buludlar dolaşırdı.
Azərbaycanı bu bəlalardan qorumaq üçün
vətəndaş həmrəyliyinə ehtiyac var idi.
Milli maraqlar, dövlət maraqları
bütün şəxsi maraqlardan üstün olmalı idi;
Sabir Rüstəmxanlı bununla bağlı ilk əməli addımını atdı.
Vətəndaş Həmrəyliyi Partiyasını yaratdı.
Vətənini sevən hər bir ziyalı üçün
bu partiyanın qapıları açıq idi,
sonralar bu partiyanın şinelindən çıxan
neçə-neçə işıqlı ziyalı cəmiyyətdə
nüfuzlu şəxsiyyətlərə çevrildilər.
Sabir Rüstəmxanlı sözü ilə əməli üst-üstə düşən
ən böyük ədiblərdəndir, ona görə də
cəmiyyətin bütün təbəqələri
ona hörmət və ehtiramla yanaşırlar.
Vətəndaş həmrəyliyinin mahiyyəti də elə budur...
O, üç dövlət başçısının hakimiyyəti dövründə
nazir vəzifəsində işlədi,
hamısı da ona eyni sayğı ilə yanaşdı,
çünki onun doğru və dürüstlüyü,
əməllərində və işlərindəki şəffaflıq nümunəsi
cəmiyyətdə birmənalı qarşılanırdı,
Hətta düşmənləri də onu tənqid etməyə
fakt tapa bilmirdilər.
İftiralar və yalanları isə küləklər qovub
səhralarda külə döndərirdilər.
Onun nümunə göstərdiyi çoxlu olaylara
şahidlik etmişik.
Azərbaycan tarixində ən uca kürsülərdən sayılan
nazir vəzifəsindən könüllü istefa verən
yeganə şəxsdir o.
Hansısa əməllərinə görə ərizəsi alınıb
guya öz xahişi ilə işdən gedən,
əslində, qovulanlar ola bilər,
lakin Sabir Rüstəmxanlının nazir vəzifəsindən
könülü istefa verməsi real tarixi hadisədir,
çünki o, hansı vəzifədə olursa olsun,
vəzifəyə çörək ağacı kimi yox,
xalqa xidmət etmək vasitəsi kimi baxmışdır.
Cəmiyyət onun xidmət etdiyi nazirliyə
el qapısı kimi yanaşırdı,
lakin o, deputatlıq kürsüsündə xalqa daha çox
xeyir verəcəyinin fərqində idi.
Heydər Əliyevin diqqət və mərhəməti
Sabir Rüstəmxanlının
həyatında sipər rolunu oynamışdır.
Deputatlıq kürsüsündə saysız-hesabsız ölkələrə uçaraq
Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə
çatdırmaqda misilsiz fəaliyyət göstərmişdir
Sabir Rüstəmxanlı ixtiyar yaşına, 80 yaşına çatmışdır.
Vətənin hər guşəsində Sabir Rüstəmxanlı şəxsiyyətinə
ehtiram əlaməti olaraq möhtəşəm tədbirlər keçirilir.
Bu tədbirlər, bu təbriklər mahiyyət və formasına görə
vətəndə bir Sabir Rüstəmxanlı qalası ucaltmışdır.
Bu qalanın divarları xalqın sevgisindən yonulmuşdur.
Bu qalanın toxunulmazlığı
müqəddəs bir dəyər kimi xalqın ürəyinə hopmuşdur.
Bu qalanın qoruyucusu tarix özü olacaqdır,
İllər keçəcək, əbədi həyat gələcək,
Sabir Rüstəmxanlı öz qalasından yurda,
vətənə, bir səda, bir nida kimi qopduğu Savalana
Dədə Qorqudsayağı salam verəcəkdir...

# "BAYATI-ARAZ" AZƏRBAYCAN HƏRB ƏDƏBİYYATI TARİXİNDƏ HADİSƏDİR

(əvvəli 9-cu səhifədə)

Bunu onlar 1905-1906-cı illərdə törətdikləri soyqırımla,"Böyük Ermənistan" xülyası ilə tarixin müxtəlif dövrlərində terror və soyqırım kimi bəşəri cinayət aktları ilə sübut etmişlər. Ancaq biz müasir dövrdə ,dünyanın gözü qarşısında ermənilərin Xocalı soyqırımı kimi bir facia törədəcəklərini ağlımıza gətirə bilmirdik. Onlar bunu iyirmi birinci əsrin astanasında da bacardılar və müasir dünya buna göz yumdu. Biz də ermənilərin amansız olduqlarına bir daha inandıq,onlar bunu bizə inanmağa məcbur etdilər. Onlar müasir insanın qadınları,uşaqları,yaşlıları,dinc sakinləri vəhşicəsinə öldürə bilməmək sreotipini məhv etdilər.

Baş leytenant Qubadovun mayor Yusubovdan erməni əsiri Vaçaqan Antoyanla təkbətək görüşməsini xahiş etməsi səhnəsi və Qubadovun Xocalıda baş verənləri xatırlaması,bu ağrıların ürəyinin dərinliklərində əbədi silinməz iz qoymasına baxmayaraq humanist davranışı bir daha söylədiklərimizin bariz nümunəsidir. Hər birimiz əlimizə aldığımız kitabın adna və müəllifin kim olduğunu mütləq nəzərə alırıq. 44gün davam edən döyüşlərdə Azərbaycan Zəfər tarixini yazdı. Azərbaycan bütün dünyaya gücünü,qüvvətini həm də vətənə olan sevgisini göstərdi. " BAYATI-ARAZ " təkcə müharibə xatirələri kitabı deyil,həm də vətən savaşının canlı salnaməsidir. Müəllif hadisələri saatbasaat izləyərək oxucunu döyüş meydanının içərisinə aparır,tarixi faktları şəxsi müşhaidələr və milli yaddaşla birləşdirir. Kitabın ən böyük üstünlüyü hadisələrin emosional təsvirindən daha çox,onların ardıcıllığını və həqiqi axarını qoruyub saxlamasıdır.

Bu əsər Azərbaycan hərb tarixinin öyrənilməsi baxımından mühüm mənbələrdən biri kimi dəyərləndirilə bilər. Xüsusilə Araz-boyu bölgələrin ,Cəbrayılın, Zəngilanın ,Xudafərinin və ətraf ərazilərin işğaldan azad olunması prosesinin dəqiq və ardıcıl şəkildə təqdim edilməsi gələcək nəsillər üçün qiymətli tarixi yaddaş nümunəsidir

"BAYATI-ARAZ " da yalnız torpaqların azadlığı deyil,həm də bir nəslin ruhu əks olunur.1 -ci Qarabağ müharibəsinin qəhramanlarının fədakarlığı arasında görünməz bir körpü qurulur. Bu baxımdan əsər həm tarixi sənəd,həm də milli-mənəvi dəyər daşıyan ədəbi salnamədir. Məncə ,xüsusiylə vurğulanmalı məqam budur ki,belə kitablar sadəcə müharibədən bəhs etmir,gələcək tarixçilər üçün ilkin mənbə rolunu oynayır.Hadisələrin saatbasaat qeydə alınması Azərbaycan hərbi memuar və sənədli ədəbiyyatında nadir rast gəlinən və xüsusi əhəmiyyət daşıyan bir yanaşmadır.

Tarix yalnız böyük qələbələrlə deyil,həmin qələbələrin addım-addım necə qazanıldığını qoruyub saxlayan əsərlərlə yaşayır. " BAYATI -ARAZ" da Vətən müharibəsinin qəhramanlıq salnaməsi gələcək nəsillərə çatdırılan belə qiymətli əsərlərdən biridir. Əsərin hər bölümündə neçə-neçə igidlərin (şəhid və qazilər)eləcə də hərbi hissədəki rəhbərlərin,səhra jurnalistlərinin,ailəli hərbiçilərin bir-birləriylə səmimi,kövrək söhbətlərinin şahidi oluruq. Belə səhnələri inanıram ki,hər kəs oxuduqca göz yaşlarını saxlaya bilməyib.

Müəllif belə söhbətlərlə bir daha Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin həyatımızda nə qədər mühüm və əhəmiyyətli olduğunu göstərməklə yanaşı eyni zamanda belə dəyərləri ustalıqla təbliğ etməyə nail olub.

***P.S.** Bu əsəri oxuduqdan sonra həm də dərindən köks ötürüb içimdən gələn səs eşitdim. Üzdə çox sakit ,təmkinli görsənən dəyərli Etibar bəyin içində nə vulkanlar var imiş....Etibar Muradxanlını təqdim edərkən leksikonumda bildiyim ən yaraşan ifadələri işlətdiyimi zənn etmişdim, bu əsəri oxuduqdan sonra anladım ki, çox az demişəm.*

**Jalə Cəfərova.**
**Yazıçı-publisist**



**Vaqif YUSİFLİ**
**Filologiya elmləri doktoru**

# Bir şair yaşayardı Yerlə göy arasında

## (Böyük şairimiz Əli Kərimin vəfatından 57 il keçdi)

***Bir şair yaşayardı***
***Yerlə göy arasında.***
***Ayağının ucunda***
***Gəlib keçdi dünyadan,***
***Söz ucundan, şeir ucundan.***
***Qıvrılanda ürəyimiz***
***Kövrələndə dodağımız***
***Əli Kərim avtoqraflı xatirələr***
***Gəlib tutar əlimizdən.***

Bu şeiri İsa İsmayılzadə Əli Kərimin bivaxt vəfatıfndae az sonra yazmışdı.İndi Əli Kərim də dünyada yoxdu, İsa İsmayılzadə də. Azərbaycan poeziyasında iki bənzərsiz şairlərimiz. Amma fiziki ölüm şairlər üçün əbədi ölüm deyil. "İnsan dünyaya bənzər- Səfərdədir əbədi". Əli Kərimin ölümündən 59 il keçir, amma bu gün müasir şeirimizdən söz açanda Əli Kərimi xatırlamamaq mümkün deyil.

Günlərin bir günü insan kimi də, şair kimi də istedadlı olan Ələkbər Salahzadəyə yaxınlaşıb dedim: "Siz Əli Kərimi necə xatırlayırsınız?". O dedi: "Əli məndən on yaş böyük idi. Biz ədəbiyyata gələndə o, artıq tanınmış şair idi.

Yadımdadır, İsa və mən, şeirlərimizi Əliyə təqdim edərdik, çünki "Azərbaycan" jurnalında şeirə o baxırdı. Bir neçə dəfə gəldik, getdik, Əli qovluqları bircə-bircə axtardı, şeirlərimiz tapılmadı.. Axırda elə bir təbəssüm göstərdi ki, biz o təbəssümə təslim olduq. İş elə gətirdi ki, mən "Azərbaycan" jurnalında işə düzəldim. Əli ilə yoldaş oldum, dostluq elədik, nə gizlədim, hərdən yeyib-içirdik. Əli olduqca mədəni, tərbiyəli bir insan idi. Çox savadlıydı, dünya ədəbiyyatını, xüsusilə, müasir Avropa yazıçılarının yaradıcılığını gözəl bilirdi".İndi Ələkbər Salahzadə də dünyada yoxdu. Amma o da unudulmayıb. Bu mart ayında Əli Kərimin 90, İsanın və Ələkbərin isə 80 yaşı tamam olur.

Mən isə Əli Kərimi bircə dəfə görmüşəm. Bir tələbə dostumla Kommunist (indikui İstiqlal) küçəsiylə üzüaşağı enirdik. Qarşımıza ortaboylu,yaraşıqlı, qarasaçlı bir kişi çıxdı, sən demə, dostum onu tanıyırmış, mənə dedi ki, bu adam şair Əli Kərimdir. 68-ci ilin fevral ayıydı deyəsən. Əli Kərimin şeirlərini oxumuşdum, "Qaytar ana borcunu" şeiri dillər əzbəri idi. Bilirdim ki, Əli Kərimin "İlk simfoniya" poeması 1957-ci ildə Moskvada keçirilən gənclərin və tələbələrimn XI Ümumittifaq festivalında mükafata layiq görülüb. 1968-ci ilin ilk iyul günlərinin birində isə "Azərbaycan gəncləri" və "Ədəbiyyat və incəsənət" qəzetlərində Əli Kərimin qara haşiyəyə alınmış şəklini gördüm. Sarsıldım.

Mən şair ölümünü ilk dəfə səkkiz yaşım olanda duymuşam, birinci sinifdə oxuyurdum, müəllimimiz sinifə girdi və böyük bir hüznlə bildirdi ki, Azərbaycanın dahi şairi Səməd Vurğun vəfat edib. O gün yaxşı xatırlayıram ki, kəndimizdə çox adam kədərliydi. Təbii ki, mən də bu ölüm xəbərindən doluxsundum. Axı, müəllimimiz bizə S.Vurğunun "Azərbaycan" şeirindən müəyyən parçaları əzbərlətmişdi. Əli Kərimin ölümü isə məni çox həyəcanlandırdı və bundan sonra mənim Əli Kərimli günlərim, illərim başladı. Onun sağlığında çap olunan "İki sevgi", "Həmişə səfərdə", "Qızıl qanad" şeirlər kuitabları yanımdan əskik olmadı.Bir gün Universitetdə (mən filologiya fakültəsində təhsil alırdım) müəllimimiz Bəxtiyar Vahabzadə üzünü bizim kursun tələbələrinə tutub dedi ki, Əli Kərimi kim oxuyub. Əlimi qaldırdım. Dedi ki, onun çoxlu tərcümələri də var, sən qəzet və jurnallarda o tərcümələri tap, köçür, Əlinin həyat yoldaşı Elza xanım gəlib götürər. Bir ay ərzində bu tapşırığı yerinə yetirdim. Tərcümələri də şeirləri qədər gözəldi və onları Elza xanıma təhvil verdim. Amma o tərcümələr kitavb halında çap olunmayıb.

Əli Kərim və onun bənzərsiz poeziyası barədə neçə məqalə yazıb çap etdirmişəm (bu sahədə qardaşım Cavanşir Yusifliyə qibtə edirəm, onun Əli Kərim yaradıcılığı barədə üç kitabı və neçə məqaləsi işıq üzü görüb) Bu yazıda təkrara yol verməyəcəyəm. Böyük şairimiz Rəsul Rza yazırdı ki: "Şair var ki, yüksəliş pillələrini dayana-dayana, tövşüyə-tövşüyə, yazdığıfnı təkrarldaya-təkrarlavya qalxır. Şair də var ki, öz-özü ilə yarışda, hər əsərində bir pillə qalxır, özünü, özgəni təkrarlamaq faciəsindən uzaq olur. Əli Kərim ikincilərdəndi". Bu fikrin davamı kimit mərhum professor Tofiq Hacıyevdən də bir misal gətirmək istəyirəm: "Ə.Kərim mövzu məhdudluğu bilməyib, özünü çağırılmış bayatıların çərçivəsinə salmayıb. Onun şair ilhamı doğuluşundan buxov üzü görməyib, sifətdən gözəllikliklə yanaşı,



həm də əlvanlığı seçib. Mövzuları ən azı əsərlərinin sayı qədərdir"Təfsilata varmadan deyə bilərəm ki, Bu fikirlər Əli Kərimi bənzərsiz bir şair kimi çox dəqiq səciyyələndirir.

Əli Kərimin şair səciyyəsi fikrimcə, ənənəvi şeirdən modern şeirə doğru poetik inkişafı əks etdirir. Onun şeir kitablarında bircə qoşmaya və gəraylıya da təsadüf eləmədim. Ancaq hecanın müxtəlif ölçülərində yazdığı bütün şeirlərdə ənənəyə möhkəm bağlıdıq vardır. Sadəcə olaraq, ənənənin Əli Kərim şeirində yeniləşməsi prosesi diqqəti cəlb edir. Daha doğrusu, Əli Kərim heca şeirində stereotiplərdən qaçır, Bədii təsvir vasitələri, xüsusilə təşbihlər və metaforalar (özü də əksəriyyəti orijinal) Əli Kərim şeirinə poetik təravət gətirir. O, klassik poeziyaya və xalq şeirinə yeni bədii vasitələrlə yanaşıb, bircə qəzəl və rübai, bircə qoşma və gəraylı yazmadan ənənəni yeni biçimdə dirçəldib. Bunun üçün şairin "Qayıt" şeirnə müraciət etmək kifayətdir:

***Həsrətin araya atdı dağ, dərə,***
***Sönən işıq oldun, batan səs oldun.***
***Qayıt, mənim gülüm qayıt bu yerə***
***Ey mənim istəyim, nə gəlməz oldun.***

***Ümidlər, arzular pərən-pərəndir,***
***Qəlbə təsəllidir xatirələrim.***
***Bir halımı soruş, könlümü dindir,***
***Azşamlar yadıma düşür səhərim.***

***Qayıt, mənim gülüm, yerbəyer elə***
***Dərdli səhərləri, gecələri sən.***
***Çaşıb başqa yolla keçirəm elə,***
***Düz öz qaydasınca küçələri sən.***

***Qayıt, yerinə qoy Ayı, Günəşi-***
***Yenə olduğutək görüm həyatı.***
***Qayıt, gözüm nuru, könlüm atəşi,***
***Qayıt, sahmana sal bu kainatı!***

Bu şeir bir-birilə möhkəm bağlı olan iki şetr qolunu özündə ehtiva edir. Ruhca bu şeir Aşıq Ələsgərin, Abbas Tufarqanlının, Dədə Şəmşirin ayrılıq, həsrət motivləri üstə köklənən iltimaslarını xatırladır: "Kəsmə iltifatın, salma nəzərdən, Ələsgərtək binəvanı, sevdiyim!". Amma şeirin üçüncü və dördüncü bəndlərində sanki Füzulinin nəfəsini eşidirik: "Deyil bihudə gər yağsa fələkdən başıma daşlar, Binasın tişeyi-ahımla viran etdigitmdəndir". Əlbəttə, formal baxımdan bu oxşarlıqlar düz gəlməyə bilər, amma ruhca ayrılıq nəzərə çarpmır. "Qayıt, sahmana sal bu kainatı!" - sanki Füzuli Əli Kərim lisanıyla haray çəkir. "Əli Kərim "Qayıt" şeirində bu motivin bədii həllini elə orijinal verdi ki, dövrümüz üçün bir qədər arxaik görünən hicran mövzusu, necə deyərlər, müasirləşdi" (Tofiq Hacıyev). Burada Əli Kərimin Füzuliyə, Nəsimiyə, Müşfiqə, Səməd Vurğuna, Rəsul Rzaya həsr etdiyi şeirləri xatırlamamaq olmur. Açığını deyim ki, Füzuli və Nəsimi Əli Kərim şeirində poetik yüksəklik əldə edib.

**Altı yüz ildir bəşər**
**düşünər,**
**çatmaz yenə**
**Məşəqqətli ölümün**
**Nəsimi zirvəsinə.**

Əli Kərim XX əsr Azərbaycan şeirində doğma dilimizin nəyə qadir olduğunu bir daha həqiqətə çevirdi:

***Bu şirin dilini yaratmış güman,***
***İlahi damağı çağ olan zaman.***
***Bu dildə varlığın hər sədası var;***
***Bir neçə sait də düyşməmiş kənar.***
***Bu dil təmizlikdə uşaq nəfəsi,***
***Gözəllik utanar bu incə dildən.***

Əli Kərimin çox şeiri zamanın sınağından keçdi, bu gün "Babəkin qolları", "Atamın xatirəsi" "Metronun yaylı qapıları", "Gəl, Azərim", "Habil", "Van-Qoqun günəşi", Kürə yağış yağırdı", "Daş", "Həmişə səfərdə", "Bəzən haqq qazanır insan öləndə", "Analavr ağlar", "Xirosimada məktəbsiz uşaq", "Şəhidliyin zirvəsi", "Qayıt", "Nə xoşbəxt imişəm bir zaman allah" və s. şeirləri təkcə altmışıncı illərin deyil, bu günün də müasir şeirləridir.

***Otuzdan çox yaşamışam.***
***Sevgi toranında.***
***Mühazirə salonunda.***
***Sevgimlə bir-birimizə deyəjəyimiz***
***İki söz arasında.***
***Xəstə olarkən***
***Həkimin mənə etdiyi çarəsində.***
***Bəzən baş tutmayan şerimin***
***Dağılmış divarlarının xarabasında,***
***Bəzən söz yarışında***
***Bəzən ölüm sözünün polyar qışında.***

Vaxtilə bu şeir ("Fraqmentlər" ) hansız tənqidə məruz qalmışdı. Rəsul Rza isə onu novatorluq hadisəsi adlandırdı, şeirin ayrı-ayrı "avnlaşılmaz", guya "mücərrəd" təsir bağışlayan misralarını anlatdı.

Əli Kərimin novatorluğu nədə idi? Mən bu məqamda böyük tənqidçi Belinskinin bir fikrinə üz tutmaq istəyirəm. O yazırdı ki, söz özözlüyündə boş səsdir: o ancaq fikir ifadə etmək üçündür. Fikir isə öz-özlüyündə ağıllı və gözəl bir şerin kölgəsindən başqa bir şey deyildir. O, gerçəkliyin yalnız ideal mahiyyəti olmaq etibariylə əhəmiyyətlidir. Praktiki tətbiq ölçüsünə gəlməyən hər bir şey yalan və boşdur.

Vaqtf adamların dilində köhnə həqiqətlər belə sanki ilk dəfə söylənilir, müəllimlik iddiası edən adamların dilində isə bəzən yeni fikirlər təsir buraxmadan itib-batır, sanki bunlar adi söylənmiş şeylərmiş". Əli Kərim özü də yazmırdı ki: "İntellektlə həy at birləşəndə, daha doğrusu, intellektin həyati əsasıf olavnda əsl şeir yarana bilər".

Əli Kərimin "Xətlər variasiyaları", "Meridian üstündə oyun" və bir çox şeirləri 60-cı illərdə bizim poeziyada modern şeirin ilk nəüymünələri idi.

**Əli Kərim poeziyası mənim üçün həmişə təzədir, çünki nə öz zamanının, nə də sonrakı illərin tozu o poeziyanın heç bir sətrinə qona bilmədi. Bax, indi bu sətirləri yazanda, Əli Kərim haqqında, ona sevgim barədə düşüncələrimi qələmə alanda həmin həqiqəti xatırladım - zaman bir çox şairi sındırdı, amma Əli Kərimə toxuna bilmədi.**

## "Məhv olmuş gündəliklər" tamaşası mövsümə yekun vurdu

**İyulun 8-də Bakı Bələdiyyə Teatrı 34-cü teatr mövsümünü "Məhv olmuş gündəliklər" tamaşası ilə bağlayıb. Klassik Azərbaycan ədəbiyyatının böyük nümayəndəsi, Xalq yazıçısı İlyas Əfəndiyevin "Məhv olmuş gündəliklər" pyesi əsasında hazırlanan tamaşa Mərdəkan Mədəniyyət Sarayında nümayiş olunub.**



Tədbiri giriş sözü ilə açan Xəzər Rayon İcra Hakimiyyətinin başçısı Elşən Salahov rayonda belə mədəni tədbirlərin keçirilməsinin önəmindən bəhs edib. O bildirib ki, milli dramaturgiya nümunələrinin tamaşaçılara təqdim olunması istiqamətində həyata keçirilən layihələr cəmiyyətin mədəni həyatının zənginləşməsinə töhfə verir.

Tədbirdə çıxış edən 14 saylı Xəzər-Pirallahı seçki dairəsi üzrə millət vəkili, Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini Günay Əfəndi-



yeva milli mədəniyyətimizin qorunması və təbliğinin dövlətimizin geniş miqyaslı siyasətinin mühüm tərkib hissəsi olduğunu bildirib. Deputat klassik ədəbi irsimizin teatr səhnəsində yaşadılmasının əhəmiyyətini vurğulayıb. Tamaşanın quruluşçu rejissoru, Xalq artisti Mərahim Fərzəlibəyov çıxışında İlyas Əfəndiyevin yaradıcılığından, onunla uzun illər davam edən əməkdaşlığından söz açıb.

Daha sonra səhnə əsəri geniş tamaşaçı auditoriyasına təqdim olunub.



Qeyd edilməlidir ki, İlyas Əfəndiyevin 1969-cu ildə yazdığı "Məhv olmuş gündəliklər" pyesi Azərbaycan teatrlarının səhnəsində bir çox rejissorlar tərəfindən uğurla tamaşaya qoyulmuşdur.

Bakı Bələdiyyə Teatrının baş rejissoru Mərahim Fərzəlibəyov İlyas Əfəndiyevin bir çox pyeslərinə səhnə həyatı verib. "Məhv olmuş gündəliklər" pyesi Xalq yazıçısının Mərahim Fərzəlibəyov tərəfindən səhnələşdirilən sayca 11-ci pyesidir.

Tamaşada rolları Zülfiyyə Məmmədova, İlqar Musayev, Nigar Babayeva, Gülsabah Quliyeva, Toğrul Rza və Məmmədağa Əlilicanzadə ifa edib. Səhnə əsərinin quruluşçu rəssamı, Əməkdar mədəniyyət işçisi İlham Əsgərov, musiqi hissə müdiri, Əməkdar mədəniyyət işçisi Nazim Əbidov, işıqçı rəssam Tərlan Ələsgərli, kostyum sexinin müdiri Leyla Əkbərova, dizayn işləri üzrə tərtibatçı Elnur Ehtiramoğludur. Tamaşa Xəzər rayonunun sakinləri tərəfindən böyük maraqla izlənilib və gur alqışlarla qarşılanıb.



BAYAT

№ 90 (950)



# Dünyayla üz-üzə bir oğlan yaşar



Zakir FƏXRİ

## SƏNSİZ

Təki sən xoşbəxt ol, sən xoşbəxt yaşa,
Bir daha deməræm "ölərəm sənsiz",
Ömrümü birtəhər vuraram başa,
Yaşayıb keçinə bilərəm sənsiz.

Ataram qəlbimdən qüssə, qəmi də,
Yaşaram vəslinə yetmiş kimi də.
Bir içim suyu da, son tikəmi də
Səninlə şərikli bölərəm sənsiz.

Söylərəm dost, tanış-bilişlərinə,
Qurbanam bu yerə gəlişlərinə.
Həyatda uğurlu gülüşlərinə
Ürəkdən şərikli gülərəm sənsiz.

Çalınar kədərim sarı sim kimi,
Gəl çilən ruhuma təbəssüm kimi.
Məzara baş çəkən bir yetim kimi
İlk görüş yerinə gələrəm sənsiz.

Zakir Fəxri, hicran boş yuvam olub,
Yaşaram gah gündüz, gah axşam olub,
Pərvanə soraqlı dilsiz şam olub,
İçimdə ney kimi mələrəm sənsiz.

## DÜNYAYLA ÜZ-ÜZƏ

Üzünə, közünə saçı dağılmış,
taxtı viran olmuş, tacı dağılmış
Qonur göz, qara qaş, bir qara oğlan
Dolaşar dünyanı, gəzər biçarə
axtarar, dərdlərə tapammaz çarə.

Cüyürün qaçarı, quşun uçarı...
Qara qaş, qonur köz, o qara oğlan
Əlindən, dilindən salıb itirər
Bir eşqin sirrinə düşən açarı.

Getdiyi yollar da dalınca qaçar,
Gəldiyi yollara könlünü açar.
Torpağında gəzər, göyündə uçar
Qara qaş, qonur göz, o qara oğlan.

Qonur gözlərində qara yaş gəzər,
Qara ciyərində qara daş gəzər
Bu varlı dünyada cibi boş gəzər
Qara qaş, qonur köz, o qara oğlan.

Gözəl sevdalardan sönük adamlar,
Dost üzündən üzü dönük adamlar
Qarğıyar o ki var, hey danar onu
Gəzdiyi torpağa, uçduğu göyə
Getdiyi yollara qısqanar onu.

Beləcə, beləcə yaşar dünyada
Gözündən, sözündən, özündən daşar.
Külündən püskürüb, gözündən daşar
Dünyayla üz-üzə bir oğlan yaşar...

## ÇİYNİMDƏ TABUT, GƏZİRƏM

Alışdım tək daşımağa,
Çiynimdə yük daşımağa,
Yer yox bir tük daşımağa,
Çiynimdə tabut, gəzirəm.

Dolaşıram dağı-daşı,
Nə zər, nə yaqut gəzirəm.
Düyün-düyün yollarımı
Aça-aça oxuyan bir
Kökdən düşmüş ud gəzirəm.
Çiynimdə tabut, gəzirəm.

Gəzirəm dörd bir tərəfi,
Bilmirəm yolum haradı.
Çəkir məni sirr tərəfi...
Ölümü gördüm, deyəsən,
Görəsən, olum haradı?
Suyuna dodaq dəyməmiş,
Köksünə ayaq dəyməmiş,
Sinəsinə ox dəyməmiş
Gözdən uzaq yurd gəzirəm,
Çiynimdə tabut, gəzirəm.

Dörd yana meydan sulayan,
Səsi ruhunu dalayan,
Axirət deyib ulayan
Yalqız qalmış Qurd gəzirəm,
Çiynimdə tabut, gəzirəm.

Balalar çiçək doğulur,
Gül doğulur balalar.
Balalar göyçək doğulur,
...Qul doğulur balalar.
Torpaqdan altun doğulur,
Daşlardan yaqut doğulur,
Nədənsə şair doğulan
Çiynində tabut doğulur.
Çox göynətdi ürək məni,
Dərdsiz ürəyə qurd düşər...
Silkələmə, fələk, məni,
Çiynimdəki tabut düşər!..

## QAYTAR, ANA, QAYTAR MƏNİ BEŞİYƏ

Ərk etdiyim dostlar da
üzümə durdular...
Sevdiyim qızlar da
sevgimi üzümə vurdular.
Körpə-körpə umudlarım
bu yollarda əldən salıb
məni tamam yordular.
Ömrün cırhacırında
qaldım üşüyə-üşüyə.
Qaytar, ana, qaytar məni beşiyə.

Avand işim tərs gəldi,
cüt səbir ötdü məndən,
gətirəndə nəhs gəldi...
Dilim gəlmədi təpinəm
hər səhər
yolüstü
qabağımdan keçən qara pişiyə.
Qaytar, ana, qaytar məni beşiyə.

Göy üzünün karrığı
görən gözlərin korruğu,
keçdiyim yolun darrığı
oddadı məni, oddadı.
Mənə tuş gələsi sevinc
başım üstdən addadı.
Bənd olmaya bilmədim
hər ağıldan düşüyə...
Qaytar, ana, qaytar məni beşiyə.

Hər payız unutdu məni
tanışlar-bilişlər...
Üzümə, gözümə qonmağa
yer tapmadı gülüşlər.
Ciyərim siqaretə alışantək
üzüm-gözüm alışdı
qəm adlı bir nəşəyə.
Qaytar, ana, qaytar məni beşiyə.

Çəkilmişəm özümə,
yığılmışam içimə.
Kədər məni səsləmir,
səsləmir sevinc məni,
kimsə səsləməz məni,
bu darısqallıqdan
bir hovur çıxam eşiyə.
Qaytar, ana, qaytar məni beşiyə.

## QARA TORPAQ, MUĞAYAT OL ANAMDAN

... Yükünü çəkəmmədim,
Arzusunda bünövrəsini qoyduğu
evini tikəmmədim.
...Dumanlı köçdən ayrılıb,
ocağı başında yanammadım.
İşıq olub gözlərinə qonammadım,
Qara torpaq, muğayat ol anamdan.

Qulaq asmadım
xeyirxah dualarındakı
yalvarışlara.
Damar-damar qəmə dönüb,
çökdüm alnındakı qırışlara.
Xəbər tutammadım düşəndə xəstə,
Saxlaya bilmədim gözümün üstə,
Qara torpaq, muğayat ol anamdan.

Ölüm bəlli, olum yox.
Yeri soyuq düşməsin,
Bürüməyə şalım yox,
İsti közümü yetir.
Külümdən duyuq düşməsin,
Qara torpaq, muğayat ol anamdan.

Qəbrinə gedən cığırlar,
barı, itməsin,
İllərin altında qalıb
qoy məzarı itməsin.
Qara torpaq, muğayat ol anamdan.

## DÜNYA, QAYIT DÜNYAMIZA

Arxanca mən su atmışam,
Gözləməkdə haqlıymışam
Mən ki gedib qayıtmışam,
Dünya, qayıt düyamıza.

Bu bar ayrılıq barıdır,
Gözəllər erkən qarıdı
Yarıyan sənnən yarıdı,
Dünya qayıt dünyamıza.

Tale bizi yarıtmadı,
Yaramızı sarıtmadı,
Nəm gözləri qurutmadı,
Dünya, qayıt dünyamıza.

Daş da dönüb oğul olub,
Ərənlərin nağıl olub.
Körpələrə noğul doğub,
Dünya, qayıt dünyamıza.

Çəkdik hər çəkilən qəmi,
Bu ömür-gün boş yeramі?
Götür Əslini, Kərəmi
Dünya qayıt düyamıza.

Torpağında ah göyərər,
Hər atılan ox göyərər.
Dönməsən günah göyərər
Dünya, qayıt dünyamıza.

## BİR AZ DA SEVDİM SƏNİ

Dağ çayının önündə
Axar sulara baxdım.
Qoşulub göy sulara
Sular axdıqca axdım...

Yenə yadıma düşdün,
Xatirə-xatirə sən
Gözlərimdən ötüşdün.
Pıçıldayıb adını
Axar sulara tutdum.
Bir az da sevdim səni,
Amma bir az unutdum...

Kirələrdə dolaşdım
Küçə-küçə... şəhəri.
Yuxusuz gözlə açdım
Neçə-neçə səhəri...
Kimsəm, arxam olmadı,
Başım üstə bir sınıq,
Bir uçuq dam olmadı...
Tək pencəkdə keçirtdim
Qarlı, şaxtalı qışı.
Sərt şaxtada, soyuqda,
Ayazda sevdim səni -
Bir az da sevdim səni...
Tanıtdım mən sevgimi,
Yola-rizə tanıtdım.
Qısıldım tək sevgimə,
Çölə, düzə tanıtdım.
Bir az da sevdim səni,
Amma bir az unutdum...

Egey sahillərində
Tənha ruhun dolaşır,
Bir-birinə qaynaşır.
Gömgöy ləpələr coşur,
Bir vaxtsız ayrılığa
Qərib türkülər qoşur.
Göynər ruhuna hopur,
Xatırlaya-xatırlaya
Sahildə dolaşıram...
İçimdən bir ah qopur.
Dərindən nəfəs alıb
Bir udum hava uddum,
Bir az da sevdim səni,
Amma bir az unutdum...

Aramla yağış yağır,
Üstüm-başım islanıb.
Sinə daşın islanıb,
Daş heykəldən boylanıb
Baxırsan fağır-fağır...
Arxamca su atardın,
Kövrək gözlərin o an
Doluxsunub dolardı.
Bəlkə də yağış deyil,
Yağan həmən sulardı...
Başım üstə dolaşan
Kövrək, qərib buluddun...
Bir az da sevdim səni,
Amma bir az unutdum...

Köçəri quşlar da yox,
Göy üzü bomboş qalıb.
Payız, bahar, yay köçüb,
Yuvamda tək qış qalıb.
Dərdimi boşaltdım
Ayrılıq quyusuna,
Xatirə bir daş atdım...

Aylar, illər ötsə də,
Hər an səni gözlədim.
Dönmədin... nə gizlədim,
Sevginə çox umuddum.
Bir az da sevdim səni,
Amma bir az unutdum...

# Ekologiya və ətraf mühitin mühafizəsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 25 (2497) 10 iyul 2026-cı il

# YENİ GÜNƏŞLİDƏ ŞAM AĞACLARI QURUYUR?

**Deyirlər ki, yaşıllıqlar təbiətin "ağ ciyəridi". Təbii ki, bu sözdə böyük həqiqət var. Ən azından ona görə ki, ağac, gül-çiçək və yaşıllıqlar olmayan yerdə həyat çox darıxdırıcı görünür. Çünki insan gözünü açıb ətrafında torpaq, hava, su və yaşıllıqlar görüb. Düzdür, dünyada yaşıllıqlar olmayan səhralar da var. Amma o səhrada da hardasa bir ağaca rast gəlmək mümkündür. O bir ağacın da kölgəsinə çox canlılar can atırlar. Yəni yaşıllıq, ağaclıq və gül-çiçək insanların ən çox sevdiyi bir məkandır.**

Bakıda sanki yaşıllıqlara kimlərsə qənim kəsilib. Harda bir boş yer, üç-dörd ağac və yaşıllıq gördülər, o deqiqə iş adamları hərəkətə gəlir, müxtəlif yollarla həmin yerlərdə tikinti aparmaq üçün sərəncamlar alır və bir müddətdən sonra həmin ünvanlarda ya restoran, ya kafe, ya da çoxmərtəbəli binalar tikilir. Heç kim restoranın, kafenin və binaların tikilməsinin əleyhinə deyil. Biz onun əleyhinəyik ki, 30-40 ilin ağaclarını doğrayıb onun yerində yüksək mərtəbəli binalar inşa edirlər.



Deyirlər Bakı ekoloji cəhətdən ən əlverişsiz şəhərlərdən biridir. Bu sözdə böyük həqiqət var. Çünki Bakıda atmosferə istehsalat sahələrindən, müəssisələrdən, fabrik və zavodlardan və eləcə də müxtəlif nəqliyyat vasitələrindən hər gün normadan artıq zərərli qazlar atılır. Bu zərərli qazların atılması isə birmənalı olaraq paytaxtın ekoloji tarazlığını pozur, müxtəlif fəsadlar yaradır. Bunun qarşısını almaq üçün isə təbii ki, dövlət proqramı mövcuddur. Buna da uyğun Bakıda böyük yaşıllıqlar zolağı, parklar, xiyabanlar, ağaclar və güllər-çiçəklərlə zəngin məkanlar istifadəyə verilir. Amma bir də görürsən ki, həmin yerlərdə hansısa mənzil-tikinti kooperativi peyda oldu və o ünvanda yüksək mərtəbəli binalar tikdi.

Heç çox uzağa getməyək, son illər Yeni Günəşlidə ayrı-ayrı tikinti kooperativləri tərəfindən çoxlu sayda ağaclar olan yerlərə sərəncam alınıb və orada yüksək mərtəbəli evlər tikilib, 30-40 ilin ağacları məhv edilib. Bəzi mənzil-tikinti kooperativlərin rəhbərləri deyirlər ki, biz o ağacları çıxarıb başqa yerə aparıb basdırmışıq. Bu nə dərəcədə doğrudur, doğru deyil, onlar özləri bilər.

Bax, Kərpic zavodunun sol tərəfində bir neçə yüksək mərtəbəli bina inşa edilib. Hasara alınmış yeni məkanda isə təzə binanın özülü qoyulur və orda da çoxlu sayda ağaclar mövcuddur. Hələ ki onları qırıb məhv etməyiblər, amma bir müddətdən sonra görəcəyik ki, o ağaclar yoxdu. Onda yenə deyəcəklər ki, biz o ağacları çıxarıb başqa yerə köçürmüşük. Təki deyilən düz olsun. Kor nə istər iki göz - biri əyri, bir düz.



Yeni Günəşlidə "Fatmeyi-Zəhra" məscidinin yanından "Ana-bala" abidəsinə qədər çoxlu sayda şam ağacları var. Və eyni zamanda həmin yerə tamet daşlar döşənilib, oturacaqlar qoyulub. Yəni kimsə səki ilə gedəndə yorulursa o oturacaqda əyləşib dincələ bilir.

Bax, bunu yaradanlara insanlar alqış edir. Amma tamet daşları yerə döşənəndən sonra orda 30-40 ilin şam ağacları qurumağa başlayıb. Birincisi, həmin ağaclara heç vaxt su verilmir, yəni hər şey Allahın ümidinədir, yağış yağsa ağaclar qidalanır, yağmasa susuzluqdan quruyur. Ağacların çoxuna baxırıq, artıq baş hissəsindəki budaqlarda quruma gedir.

Oranın sakinləri deyirlər ki, belə ağaclar yüzdən də çoxdur. Tamet daşlar yerə döşənəndən sonra sanki həmin ağaclar nəfəs ala bilmir. Amma tamet daşlar olmayan yerdə ağaclar yamyaşıldır və orda heç bir quruma hiss olunmur.

Hər gün həmin yerdə təmiz hava qəbul edən Məhəmməd adlı dostumuz deyir ki, mənim bu ağaclara lap yazığım gəlir. Bilmirik onlara xəstəlik düşüb, ya yox, ancaq bildiyimiz və gördüyümüz odur ki, bir il bundan qabaq səkiyə daş döşənəndən sonra bu ağaclar solmağa başladı. İndi çoxu artıq qurumaq üzrədir. Elə həmişə də bu barədə söhbət edəndə deyirik ki, balam, görəsən əlaqədar qurumlar hara baxır, niyə bu ağaclara sahib çıxan yoxdur? Bu ağacların çox qəşəng kölgəsi var. Hər tərəfdən göydən "od yağanda" burda sərinlik olur. Bizim kimi çoxlu sayda insanlar məscidin yanından gəlib keçərək ağacların arası ilə gedir və gəlib əyləşir oturacaqda. Amma belə getsə bir-iki ildən sonra bu ağacların çoxu məhv olub gedəcək. Hansı yerdəki tamet daşları düzülməyib orda ağaclar yamyaşıldır, birinin də budağı qurumayıb.



Əməkdar müəllim İsfəndiyar kişi deyir ki, hökumətimiz və dövlətimiz çox sağ olsun ki, "Fatmeyi-Zəhra" məscidinin yanında gözəl bir park salıb.

Burdakı ağaclar, yaşıllıqlar, güllər-çiçəklər bizə sanki yeni bir nəfəs verir. Aşağı düşüb "Ana-bala" abidəsinin yanına gedəndə isə quruyan ağacları görəndə ürəyimiz para-para olur. Çünki bu ağaclar da canlıdır, onlar qulluq, su istəyir. Amma onlara nə qulluq göstərən var, nə də su verən. Bu qədər qurumlar var, görəsən onların birinin yadına düşmürmü ki, hər tərəfi tamet daşla əhatə olunan və bir-iki qarış yer qalan bu məkanda həmin ağaclar necə inkişaf edə biləcək? Hansı ki təbiəti qoruyan nə qədər dövlət qurumları var. Biz də həmin dövlət qurumlarının yadına salırıq ki, dediyimiz məkanda 30-40 ilin ağacları artıq qurumaq üzrədir, onlar can verir.

Əlaqədar qurumlar zəhmət çəkib gəlib bu ağacların qayğısına qalmalıdır, xəstəlik düşübsə dərmanlamalı, susuzluqdan quruyursa qurumuş budaqları kəsməli və su verməlidirlər. Əks təqdirdə, bir neçə ildən sonra gördüyümüz bu yaşıllıq zolağı, 30-40 ilin ağacları məhv olub gedəcək.

**Eşitdik ki, yaxınlıqdakı iki hektara yaxın sahədə möhtəşəm bir park salınır, buna görə çox sevindik. Çünki Yeni Günəşlidə insanların parka və yaşıllığa böyük ehtiyacı var. Yüz minə yaxın əhali yeni parkın salınması xəbərini eşidib çox sevindi. Deyilənlərə görə, həmin park 2027-ci ilin iyunun 1-dək istifadəyə veriləcək. Bu gün həmin yerdə tikinti-inşaat işləri görülür, maşın və texnika gecə-gündüz işləyir. Bunlar hamısı çox gözəldir, amma o da daha gözəl olar ki, yeni tikilən parkın yanındakı qırx ilin ağaclarını əlaqədar qurumlar qurumağa qoymaya və onlara yeni həyat, yeni nəfəs verə!**

**Emil FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ



Əntiqə KƏRİMZADƏ

# Gənc taleyi zülmətə dönən aktrisa

**İnsan bəzən başına gələcək hadisələri hiss edir. Ancaq aktyorlar isə həmin hadisələri özləri də bilmədən kinolarda ifa edirlər. Həyatının bəzi kədərli məqamlarını obrazlarında canlandıran aktrisa Almaz Əsgərovanı da ömrünün cavan çağında gül kimi yolan sənət adamları sırasında qeyd etmək olar.**

**O, 1949-cu il yanvarın 23-də Bakıda anadan olub. Ə. Əzimzadə adına rəssamlıq məktəbində təhsil alır. Füsünkar əl bacarığı ilə diqqət çəkir, gözəl rəsmləri göz oxşayır. Ancaq bir gün heç kimin gözləmədiyi halda o, rəssamlıq məktəbini atıb, sənədlərini Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinə verir və qəbul olunur.**

**Verdiyi qərarla peşəsini dəyişən gənc qız, təkcə peşəsini yox, həm də taleyini dəyişir. Universitetdə oxuyarkən Azər Süleymanovla tanış olur və ailə həyatı qurur. Bu evlilikdən onların İlham adlı bir oğulları olur.**



**Azər Moskvada kinorejissorluğu bitirib Bakıya qayıtmışdı. Təsadüfən tanış olduğu Almaza aktrisa olmağı məsləhət görür.**

**Və beləliklə Kinostudiyada Adil İsgəndərovun kursuna daxil olan Almaza ustadı "Sən gözəl aktrisa olacaqsan", - deyir.**

**Bu evlilik aktrisanın həyatının məhvinə səbəb olur. Belə ki, aktrisa ailə münaqişələrinə tab gətirə bilmir. Çox sevdiyi həyat yoldaşı Azərlə ayrılırlar.**

**Şeyx Əbdül Mahmudbəyovun dediklərinə əsasən, bu ayrılığa səbəb Azərin anası olur. O, oğlunu qısqanır, Almazla heç cür yola gedə bilmirdilər. Onlar ayrılandan sonra Almaz Əsgərova yeganə övladı olan İlhamla yaşayır.**

**Deyilənə görə onlar ayrıldıqdan sonra Almaz Əsgərova ilə ailə qurmaq istəyən şəxs olur. Ancaq bu münasibət baş tutmur.**



**Almaz kinoda bir-birinin ardınca maraqlı obrazlar yaradır. "Qanun naminə"də Salamatovun xanımı, "Mən ki gözəl deyildim"də Elmira, "Ulduzlar sönmür" də Fatimə. Daha sonra "Bir cənub şəhərində", "Məhəbbət, məhəbbət", "İstintaq davam edir", "Uşaqlığın son gecəsi" filmlərinə çəkilir. Adil İsgəndərov onu çəkəcəyi "Vaqif" filmində Xuraman obrazı üçün hazırlayır. Lakin, İsgəndərovun ölümü bu ideyanın həyata keçməsinə mane olur. Həmin illərdə aktrisa "Tacikfilm"də "Rüstəm və Söhrab" filmində baş rola çəkilir. Nəhayət, Almaz həyatın diktəsi ilə kinoda ən yaddaqalan son obrazına həyat verir - "Nəsimi" filmindəki Şəmsə. Həsən Seyidbəyli Şəms obrazı üçün Almazı sorğu-sualsız dəvət etmişdi.**

**1983-cü ildə Azər iş üçün Moskvaya yollanır və geriyə tabutda qayıdır. Azərin Moskvada vəfat etməsi Almazı sarsıdır.**

**O, dost-tanışdan, qohum-əqrəbadan, sənətdən ayrılıb özünə qapanır. Milli Dram Teatrına dəvət edilsə də, bu təklifi qəbul etmir. "Mən sənətdən getmişəm", - deyə cavab verib.**

**Almazın bacısı Səmayə xatırlayır ki, Azərlə Almaz birbirilərini əfsanəvi məhəbbətlə sevirdilər, yeganə övladları, İlham, hər ikisinin canı idi. Bütün çəkilişlərə bir yerdə gedirlərmiş. Azərin tənqidini də Almaz ürəklə qəbul edər, məsləhətlərinə qulaq asarmış. Hər yerdə həmişə birlikdə olublar.**

**Qapalı həyatı isə onu məhvə sürükləyir. 11 ayın içində amansız xəstəliyə düçar olan Almaz Əsgərovanın gözləri 1988-ci ilin qızmar avqustunda dünyaya əbədi qapanır.**

# HƏKİM NƏSİBƏ XANIMA MİNNƏTDARLIQ

**Mustafayeva Nəsibə Məsim qızı 13 noyabr 1975-ci ildə Qazax rayonunun Hüseynbəyli kəndində anadan olub. Həmin kənddə orta məktəbi əla qiymətlərlə bitirib.1993-1999-cu illərdə Azərbaycan Tibb Universitetinin Müalicə işi fakültəsinədə təhsil almışdır. 1999-2002-ci ildə Qazax Rayon Mərkəzi Xəstəxanasında terapevtik, 2003-2021-ci illərdə travmatoloq-ortoped olaraq işləmişdi.2012-2021-ci illərdə HMK-nin üzvü olmuşdu. Poliklinikada işlədiyi müddətdə əhaliyə, xüsusilə həssas əhali qrupuna, birinci Qarabağ müharibəsi qazilərinə nümunəvi xidmət göstərmişdi.Qazax RMX-da 2019-2020-ci illərdə Covid xəstələrinin müayinə və müalicəsində, 2020-ci ildə Vətən Müharibəsi Zamanı yaralıların qəbulu, müayinə və müalicəsində fəal iştirak etmişdir.**

2021-2025-ci illərdə Qazax RMX PHŞ-də Sığortanın Təşkili və İnnovasiya Şöbəsinin müdiri, göndərişlər üzrə məsul şəxs olaraq fəaliyyət göstərmişdir.



14 may 2025-ci ildən Qazax RMX PHŞ-nin Direktorunun Terapevtik xidmətlər üzrə müavini təyin olunub.

İki övladı var. Qızı ADPU-ni bitirib, işləyir. Oğlu ADİU-də bakalavr və magistr təhsili alıb. Hal-hazırda hərbi xidmətdədir. Bu yaxınlarda anam ağır xəstəlik keçirdi. Tez anamı Qazax Rayon Mərkəzi Xəstəxanasına çatdırdım.Dedilər həkim Nəsibə xanıma yaxınlaşın. O, sizə köməklik edəcək.Yaxınlaşdım Nəsibə həkimə.Gözəl davranışı, səmimiyyəti bütün xəstələrlə səbirli davranışı mənə çox böyük təsir etdi.Onun yazıb göndərdiyi sənədlə biz Bakı şəhərinə müalicəyə getdik. Çox gözəl də nəticə aldıq. İndi anamın vəziyyəti yaxşıdır.Anama və həmçinin bütün xəstələrə göstərdiyi münasibətə görə Nəsibə həkimə öz dərin minnətdarlığımı bildirirəm. Ona bu çətin iş həyatında uğurlar can sağlığı arzu edirəm.Həmişə var olasız.Qazaxda Sizin kimi həkimlərə böyük ehtiyacımız var.

**Hörmətlə Leyla Əliyeva.**
**Qazax rayonu**

# Köməyinizi əsirgəməyin!



**Həyatda xeyirxahlıqla xeyriyyəçilik eyni kökdən qidalanır. Bir xeyriyyəçi olmaq haqdan gəlir. İmkansıza, xəstəyə, ehtiyacı olana kömək etmək Əlidən qalıb. Bizim xalqımız da həqiqətən xeyriyyəçiliyi ilə dünyada tanınır.**

**Hörmətli bacılar və qardaşlar! Bu müraciəti sizlərə ona görə edirəm ki, ahıl yaşlı bir vətəndaşımız - 64 yaşlı Məmmədov Mirzəmməd Hacı oğlu uzun illərdir ki, astma xəstəliyindən əziyyət çəkir. İş qabiliyyəti olmayan bu şəxs göydə Allahın, yerdə isə yaxşı insanların ümidinə qalıb. Doğru deyiblər ki, yaxın qonşu uzaq qohumdan yaxşıdır. Mirzəmməd kişiyə də yaxın qonşuları öz kömək əllərini əsirgəmirlər. Qonşusu Ramin mütəmadi olaraq Mirzəmməd kişiyə imkanı daxilində əl tutur, səhhəti ilə maraqlanır, dərman preparatlarının və gündəlik azuqələrinin alınmasında ona köməklik edir. Amma bununla onun dərdinə əlac etmək olmur. Soydaşlarımızdan rica edirik ki, imkan daxilində kimin nəyə gücü çatırsa Mirzəmməd kişiyə yardım əlini uzatmağı xahiş edirik. Onsuz da bu yaxşılığın əvəzini Allah-təala mütləq verəcəkdir.**



**Mirzəmməd kişinin yaxın qonşularından olan türkiyəli iş adamı Xəlil Kan daim onun yanında olur, imkanı daxilində əl tutur. İnanırıq ki, bizim bu müraciət qədirbilən, sülhsevər, xeyriyyəçi xalqımız tərəfindən isti qarşılanacaq, Mirzəmməd kişi öz sağlamlığına qovuşacaqdır.**

**Əlaqə tel: (070) 809-30-60**
**Bank kartı:**
**4169 7388 0827 8653**

## *Müğənni: "Belə yaşamaq istəmirəm"*



**Həmişə olduğu kimi bu dəfə də Nadir Qafarzadə açıqlaması ilə diqqət çəkib. Adalet.az bildirir ki, müğənni həyatında ən qorxulu məqamları dilə gətirib:**

"Lap uşaqlıqdan zəhmətlə pul qazanmışam. Geyinməyə paltarım, yeməyə bir tikə çörəyim olmayan vaxtlarım olub. Bunu unuda bilmərəm. Heç vaxt keçmişimi danmıram. Ən qorxduğum məqam möhtac olmaqdır. Hər gün dua edirəm ki, Allah məni heç kəsə möhtac etməsin. Ən çox da övlad qazancına möhtac olmaqdan qorxuram. Bunu heç kəs pis anlamasın. Ancaq belə yaşamaq istəmirəm. Kasıb da olsam, az da qazansam, amma övlada möhtac olmayım".

## *Aktyor: "Həmin dönəmdə çox adam birdən yox oldu"*

**Aktyor Müşfiq Şahverdiyev pandemiya dönəmində yaşadığı çətinlikdən danışıb. Adalet.az bildirir ki, o, daha çox bu dövrdə dostlarının onu axtarmamasından gileylənib:**



"Pandemiya elə bir dövr idi ki, insanlara çox şeyi izah etdi. Şəxsən mənə çox adamları tanıtdı. Bu dövrdə bütün sahələrdə durğunluq var idi. Amma bizim işimiz ümumiyyətlə dayanmışdı. Başqa vaxt mənə can deyən, toylarında görmək istəyən adamlar birdən- birə yox oldular. Bəziləri ilə əlaqəm var idi. Amma bir neçə şəxs vardı ki, tamamilə yox oldular. Sözsüz ki, mən də onları axtarmadım. Və belə adamları daha yaxşı tanımağa başladım.

Elə adamlar var idi ki, onların obyektlərini pulsuz reklam etmişdim. Təkcə ailəsinin yox, hətta qohumlarının toyların pulsuz idarə etmişdim. Pandemiya dönəmində müvəqqəti olaraq onlardan kömək istədim, ancaq onlar mənə dəstək olmadılar".

## *"İfalarım ilə çoxlarına mane oluram"*



**Müğənni Vəfa Şərifova həmkarlarının ona münasibətindən danışıb. Adalet.az xəbər verir ki, o, uğurlu mahnı seçimlərində İntiqam Kərimovun əməyi olduğunu söyləyib:**

"Əvvəllər tanınmırdım, hələ onda efirlərə ödənişli çıxırdım. Hamı mənim haqqımda yüksək fikirdə idi. Sonra anladım ki, yəqin bir uğurum yoxdur ki, hər kəs məni qəbul edir və tərifləyir. Sonra mütəxəssislə çalışmağa başladım. İntiqam müəllimin seçimləri ilə mahnılar oxudum. Daha çox uğurlu sənət nümunələri ilə tamaşaçı qarşısına çıxmağa başladım. Heç kəsə mane olmayanda məni çox sevirdilər. İfalarım ilə bir çoxlarından üstün olmağım həmkarlarımda qıcıq yaradıb".

**Əntiqə**


Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS
Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı şəhəri, Neftçilər 67, mənzil 21 A
Telefon: (012) 491-23-53
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 285
Çapa imzalanmışdır: 09.07.2026